Xalqın qəzeti!
# Xalq qəzeti
№ 145 (30261) 14 iyul 2023-cü il, cümə
Gündəlik ictimai-siyasi nəşr
1919-cu ildən çıxır
Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti
veb-sayt: www.xalqqazeti.az

**Günün sözü**

**Prezident İlham Əliyev:**

**Azərbaycana rəhbərliyinin 1-ci dövründə Heydər Əliyev özünün qeyri-adi idarəçilik bacarığı, polad iradəsi və yüksək vətənpərvərliyi sayəsində, uzaqgörən və məqsədyönlü qərarları ilə çox qısa müddətdə böyük sıçrayışa nail olmuşdur. Bu illər Azərbaycanın quruculuq salnaməsinin ən parlaq səhifələridir.**

## İsraillə ikitərəfli münasibətlər, hərbi-texniki əməkdaşlıq məmnunluq doğurur



**İyulun 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İsrail Dövlətinin müdafiə naziri Yoav Qallantı qəbul edib.**

Yoav Qallant İsrailin Baş naziri Benyamin Netanyahunun salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını İsrailin Baş nazirinə çatdırmağı xahiş etdi.

Söhbət zamanı dövlətimizin başçısı ilə İsrailin müdafiə naziri arasında bu il Münxendə keçirilən görüş xatırlandı.

İkitərəfli münasibətlərin inkişafından, o cümlədən hərbi-texniki sahədə əməkdaşlıqdan məmnunluq ifadə edildi. İsrail Prezidenti İsxak Hersoqun Azərbaycana səfərinin əlaqələrimizin inkişafında rolu qeyd olundu.

Görüşdə Azərbaycanın İsraildə səfirliyinin açılmasının əməkdaşlığın genişləndirilməsi baxımından önəmi vurğulandı.

## Ölkəmiz ABŞ-ın sülh gündəliyinə davamlı dəstəyini yüksək qiymətləndirir



**İyulun 12-də ABŞ Dövlət katibi Antoni Blinken Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**

Telefon danışığı əsnasında Antoni Blinken ölkəsinin Ermənistan ilə Azərbaycan arasında sülh müqaviləsi üzrə müzakirələrə davamlı dəstəyini ifadə edib, danışıqlar prosesində yaradıcı və qarşılıqlı güzəştlərə əsaslanan yanaşmanın vacibliyini bildirib. O, Laçın sərhəd-gömrük buraxılış məntəqəsi vasitəsilə keçidin önəmini vurğulayaraq dayanıqlı sülhün əldə edilməsi üçün danışıqlardakı müsbət dinamikanın saxlanmasının əhəmiyyətinə toxunub.

Prezident İlham Əliyev Azərbaycanın Ermənistanla münasibətlərin normallaşdırılması məqsədi daşıyan sülh gündəliyinə sadiqliyini və iki ölkə arasında sülh müqaviləsinin təşəbbüskarı olaraq onun imzalanmasını dəstəklədiyini vurğulayıb. Dövlətimizin başçısı Antoni Blinkenin və ABŞ hökumətinin iki ölkə arasında sülh gündəliyinin irəli aparılmasına göstərdiyi davamlı dəstəyinin yüksək qiymətləndirildiyini qeyd edib və yaxın günlərdə Ermənistan tərəfi ilə yüksək səviyyədə növbəti görüşün keçiriləcəyini bildirib.

Prezident İlham Əliyev Laçın sərhəd-gömrük buraxılış məntəqəsi vasitəsilə humanitar yüklərin, fərdi keçidlərin və tibbi təxliyənin normal qaydada təşkil olunmasına baxmayaraq, iyunun 15-də Ermənistan tərəfindən törədilmiş silahlı təxribatı və Beynəlxalq Qırmızı Xaç Komitəsinin müşayiəti ilə həyata keçirilən humanitar daşımalarda qaçaqmalçılıq hallarının aşkar edildiyini diqqətə çatdırıb və bu xüsusda araşdırmaların aparıldığını vurğulayıb.

***Prezidentin Mətbuat Xidməti***



## Azərbaycanda Lider – Xalq tandeminin başlanğıcı

**Dünyada xalqlar üçün azadlıqdan, dövlət üçün müstəqillikdən böyük nemət yoxdur. İnsan azad, suveren, demokratik dövlətdə yaşayırsa, bundan böyük xoşbəxtlik ola bilməz. Azərbaycan artıq 32 ildir ki, müstəqil demokratik, hüquqi və dünyəvi dövlətdir. Xalqımızın bu xoşbəxtliyə qovuşması uğrunda mübarizənin öndəri ümummilli lider Heydər Əliyevdir.**

*(ardı 5-ci səhifədə)*

## Azərbaycanın iqtisadi uğurları ümumi inkişafın etibarlı təminatıdır



Səhifə ⇨ 3

## Gözlər Brüsselə dikilib – Cənubi Qafqaza sülh gələcəkmi?



**Azərbaycan Prezidenti İlham Əliyevlə Ermənistanın baş naziri Nikol Paşinyan arasında Qərb formatının Brüssel raundu çərçivəsində Avropa İttifaqı Şurasının rəhbəri Şarl Mişelin vasitəçiliyi ilə görüş iyulun 15-də keçiriləcək. Baxmayaraq ki, əvvəl təmasın iyulun 21-də baş tutacağı açıqlanmışdı.**

*(ardı 4-cü səhifədə)*

## Sözümüzə qüvvət verən Türkiyə!



Səhifə ⇨ 6

## Bakı diplomatik qələbə seriyasını davam etdirir

**Azərbaycan və Ermənistan arasında anklavlarla bağlı davam edən diplomatik mübarizənin "əsas turu" başa çatıb. Azərbaycan diplomatiyası rəsmi Bakının anklavlarla bağlı mövqeyini İrəvana qəbul etdirə bilib. Ermənistan tərəfi Azərbaycana məxsus 8 kəndin bu gün də erməni işğalında olduğunu, həmin kəndlərin ölkəmizə məxsusluğunu qəbul edib.**



Ölkəmizin "anklav mübarizəsi"ndəki bu uğuru Prezident İlham Əliyev tərəfindən də təsdiqlənib. Dövlət başçısı 2023-cü ilin 6 ayının sosial-iqtisadi yekunlarına həsr olunmuş müşavirədə Ermənistanın anklavlarla bağlı ölkəmizin haqlı mövqeyini tanıdığını qeyd edib: "Əgər keçən ilin oktyabrında Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini və sərhədlərini qəbul etmişdirsə, bu ilin may ayında daha irəli gedərək, artıq Azərbaycan ərazisinin parametrlərini də, o cümlədən Qarabağ və anklav kəndlərimiz daxil olmaq şərtilə rəsmən tanıyıb".

Amma İrəvanın etiraf etdiyi bu həqiqət hələ də rəsmi sənədlərdə öz təsdiqini tapmayıb. Bütün digər məsələlərlə yanaşı, anklavlar və onların gələcək taleyi ilə bağlı məsələnin də rəsmiləşdirilməsinə, əməli icrasına ciddi ehtiyac var.

*(ardı 6-cı səhifədə)*

## Canlanır hər şəhər, kənd Qarabağda...



Səhifə ⇨ 7

## 23 laçınlı ailə də doğma yurda qayıtdı



Səhifə ⇨ 8

## Uorlikin "müstəqil status" cəfəngiyyatı

**Düzəlmişdi hər yarağı, qalmışdı saqqal darağı. ATƏT-in artıq canını tapşırmış Minsk qrupunun amerikalı keçmiş həmsədri Ceyms Uorlikin Ermənistanın "news.am" portalında yayımlanmış "Güc faktoru" verilişində söylədiklərini məhz bu cür qiymətləndirmək mümkündür.**



Yəni, indiki halda Uorlik İrəvan üçün saqqal darağından başqa bir şey deyil. Əlbəttə, bəzi məqamlarda bu "darağ"ın gerçək faydalarını da nəzərdən qaçırmaq olmaz. Hərçənd, inanmırıq ki, Ermənistanın xəstə ictimai rəyi həmin faydanı görür, sabiq həmsədrin bildirdiklərində avantürizm üçün tutacaq yeri axtarmır.

*(ardı 4-cü səhifədə)*

## Zelenskinin NATO ümidləri puç oldu

Səhifə ⇨ 11

# Monteneqronun Prezidenti Zati-aliləri cənab Yakov Milatoviçə

**Hörmətli cənab Prezident,**

Monteneqronun milli bayramı münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edir, ən xoş arzularımı çatdırıram.

Azərbaycan-Monteneqro dövlətlərarası əlaqələrinin inkişaf dinamikası bizi sevindirir. Bu gün ölkələrimiz arasında münasibətlərin, bir sıra sahələrdə, xüsusilə də energetika və nəqliyyat sahəsində əməkdaşlığın daha da genişləndirilməsi üçün yaxşı imkanlar vardır.

İnanıram ki, ənənəvi dostluq əlaqələrimizi möhkəmləndirmək, qarşılıqlı maraq doğuran əməkdaşlığımızın potensialından tam bəhrələnmək üçün birgə səylərimizi bundan sonra da davam etdirəcəyik.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Monteneqro xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının***
***Prezidenti***

**Bakı şəhəri, 10 iyul 2023-cü il**

# Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin yaradılmasının 25 illiyi münasibətilə bir qrup şəxsin təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin yaradılmasının 25 illiyi münasibətilə **qərara alıram:**

Məhkəmə orqanlarında və dövlət qulluğunda səmərəli fəaliyyət göstərdiklərinə görə aşağıdakı şəxslər təltif edilsinlər:

### 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə

Salmanova Sona Sadıx qızı
Qvaladze Rafael Sergeyeviç
Quliyev Rauf Rəhim oğlu

### 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə

Qaracayev Ceyhun Yasinəli oğlu
Şəfiyev Kamran Rauf oğlu

### "Tərəqqi" medalı ilə

Babayev Anar Şahlar oğlu
Cəfərov Anar Əli oğlu
İbrahimov Sarıbəy Davud oğlu
Məmmədova Dürdanə Mirzə qızı

### "Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə

Quliyev Zaur Ağayar oğlu
Məmmədov Əsgər Allahverdi oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının***
***Prezidenti***

**Bakı şəhəri, 13 iyul 2023-cü il**

# "Azərbaycan Respublikasında biznes mühitinin əlverişliliyinin artırılması və beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin daha da yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 13 iyul tarixli 2199 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

**1.** "Azərbaycan Respublikasında biznes mühitinin əlverişliliyinin artırılması və beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin daha da yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 13 iyul tarixli 2199 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 7, maddə 1288; 2018, № 8, maddə 1765) 1-ci hissəsi ilə yaradılmış Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiya və Komissiyanın Katibliyinin tərkibi aşağıdakı redaksiyada verilsin:

### "Komissiyanın sədri

Azərbaycan Respublikası Baş nazirinin birinci müavini

**Komissiyanın üzvləri:**

Azərbaycan Respublikasının iqtisadiyyat naziri

Azərbaycan Respublikasının maliyyə naziri

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin sədri

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri

İqtisadi İslahatların Təhlili və Kommunikasiyası Mərkəzinin icraçı direktoru

Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzinin icraçı direktoru

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti

### Komissiyanın Katibliyinin rəhbəri

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin İqtisadi islahatların monitorinqi, koordinasiyası və qiymətləndirilməsi sektorunun müdiri.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının***
***Prezidenti***

**Bakı şəhəri, 13 iyul 2023-cü il**

# Hikmət Hacıyev Mirzoyanı ifşa etdi

**Prezidentin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Ermənistanın xarici işlər naziri Ararat Mirzoyanın yalan paylaşımını ifşa edib.**




Ararat Mirzoyan "Twitter" hesabında "Qarabağdakı humanitar vəziyyət" səbəbilə vəfat etdiyi iddia etdiyi azyaşlıların fotosunu paylaşıb. Hikmət Hacıyev cavabında Ermənistanın faktları yoxlamadan rəsmi səviyyədə yalan və dezinformasiya yaydığını bildirib:

"Ermənistanın xarici işlər naziri rəsmi səviyyədə yalan və dezinformasiya yayanda faktların yoxlanılmasına və miflərin ifşasına ehtiyac var. Yerli polis valideynlərinin nəzarətsizliyi səbəbilə iki azyaşlının səhlənkarlıq və avtomobildəki yüksək temperatur nəticəsində yuxudaykən vəfat etdiyini təsdiqləyib. Bu, riyakarlıqdan başqa birşey deyil", – Hikmət Hacıyev qeyd edib.

# Söyüdlüdəki şirkətin fəaliyyəti müvəqqəti dayandırılıb



**İyulun 13-də Azərbaycan Respublikasının Baş naziri Əli Əsədovun yanında Gədəbəy rayonunun Söyüdlü kəndində vəziyyətin araşdırılması üçün Nazirlər Kabinetinin 2023-cü il 21 iyun tarixli Sərəncamı ilə yaradılmış Komissiyanın ikinci iclası keçirilib.**

Nazirlər Kabinetinin mətbuat xidmətindən verilən məlumata görə, Baş nazir Əli Əsədov bildirib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 11-də 2023-cü ilin altı ayının sosial-iqtisadi yekunlarına həsr olunmuş müşavirədə Gədəbəy rayonunun Söyüdlü kəndində iyunun 20-də yaranmış narahatedici və xoşagəlməz hadisə ilə əlaqədar monitorinqlərin aparılması və mövcud vəziyyətin qiymətləndirilməsi üzrə Komissiyanın fəaliyyətinə dair iradlar bildirərək müvafiq tapşırıq verib. Həmin tapşırığın təxirə salınmadan icrası ilə əlaqədar Komissiyada aşağıdakı məsələlərə baxılıb.

Komissiyanın sədri, ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev Söyüdlü kəndində tullantıxana sahəsində və ətraf ərazilərdə aparılmış monitorinqlərin nəticələri barədə geniş məlumat verib.

Baş nazir Ə.Əsədov Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən şirkətin fəaliyyət göstərdiyi ərazidə 2018-ci ildən bəri monitorinqin aparılmamasını ciddi nöqsan adlandırıb. Bildirilib ki, nazirlik öz səlahiyyətlərinə aid olan dövlət nəzarət funksiyalarını layiqincə yerinə yetirməyib.

Baş nazir icra hakimiyyəti orqanları ilə razılaşdırılmadan tullantı anbarında müxtəlif illərdə üç dəfə inşaat işlərinin aparılması, tullantı su anbarının tikintisinə dair layihə sənədlərinin ekspertizadan keçirilməməsi, bəndin dayanıqlığının qiymətləndirilməsinin aparılmaması, tullantı anbarının istismar imkanlarının artırılması ilə əlaqədar şirkət qarşısında heç bir tələbin qoyulmaması, tullantı sularını nəql edən boruların sanitar-mühafizə zonasının müəyyənləşdirilməməsi, məhdudlaşdırıcı hasarların çəkilməməsi, boru xətti boyu və tullantıxana sahəsində məlumatverici və qadağanedici lövhələrin quraşdırılmaması və digər nöqsanların ciddi araşdırılması və aradan qaldırılması ilə bağlı Ekologiya və Təbii Sərvətlər Nazirliyinə və Fövqəladə Hallar Nazirliyinə tapşırıqlar verib.

Qeyd olunub ki, ərazidə fəaliyyət göstərən müəssisədə ekoloji və geoloji auditin aparılması məqsədilə beynəlxalq şirkət müəyyənləşdirilərək dəvət edilib və onun nümayəndələrinin yaxın günlərdə ölkəmizə səfəri gözlənilir. Bu şirkət tərəfindən ətraf mühit, təhlükəsizlik və sağlamlıq məsələləri qiymətləndiriləcək.

İclasda, həmçinin Komissiya üzvlərinin aparılan monitorinqlərin nəticələrinə dair məruzələri dinlənilib.

Səhiyyə nazirinin müavini Nadir Zeynalov bildirib ki, Söyüdlü kəndində və müəssisə ətrafında yerləşən yaşayış məntəqələrində müvafiq müayinələr və monitorinqlər aparılır.

Kənd təsərrüfatı nazirinin müavini Sarvan Cəfərov qeyd edib ki, Söyüdlü kəndində və ətraf ərazilərdə heyvan sağlamlığı, arıçılıq, bitkiçilik, bitki mühafizəsi və torpaq münbitliyi sahələrində monitorinqlər həyata keçirilib, kompleks müşahidələr aparılıb, örüş-otlaq sahələrinin və təsərrüfatların mövcud vəziyyəti qiymətləndirilib.

Baş nazir aparılan monitorinqlərin daha da sərtləşdirilməsi və mütəmadi qaydada keçirilməsi ilə bağlı tapşırıqlarını verib.

Ə.Əsədov Söyüdlüdə təbiətə, insanların sağlamlığına yaranmış təhlükəni nəzərə alaraq şirkətin fəaliyyətinin müvəqqəti olaraq dayandırılması ilə bağlı qərar qəbul etdiyini deyib.

Cəlb edilmiş beynəlxalq şirkət tərəfindən aparılacaq qiymətləndirilmənin nəticələrinə və veriləcək tövsiyələrə uyğun olaraq işini təşkil edəcəyi təqdirdə müəssisənin fəaliyyətinin bərpası məsələsinə baxıla bilər.

Baş nazir qeyd edib ki, ərazidə fəaliyyət göstərən şirkət tərəfindən növbəti dövrdə istehsalatda müasir texnika və yeni texnologiyaların tətbiqi təmin edilməlidir. Bildirilib ki, bu müddət ərzində müəssisə müəyyən edilən bütün nöqsanları aradan qaldırmalı, fəaliyyətini müvafiq qanunvericiliyin tələblərinə uyğun qurmalı, o cümlədən işçilər qarşısında sosial öhdəliklərini yerinə yetirməlidir.

Vurğulanıb ki, beynəlxalq şirkətlər cəlb edilməklə mövcud tullantı anbarı və gölün bəndinin dayanıqlığının yoxlanılması və istifadə imkanlarının qiymətləndirilməsi, həmçinin ərazidə fəaliyyət göstərən şirkətin sosial-korporativ öhdəlikləri çərçivəsində yerli icmalarla münasibətlərin yaxşılaşdırılması, habelə bütün digər məsələlərin həllində Ekologiya və Təbii Sərvətlər Nazirliyinin rəhbərliyi və Komissiyaya üzv olan dövlət qurumlarının iştirakı ilə əlaqələndirilmiş şəkildə ciddi və mütəmadi iş aparılmalıdır. Eyni zamanda, Səhiyyə Nazirliyinə aidiyyəti üzrə daimi nəzarətin həyata keçirilməsi və kənd əhalisinin, o cümlədən müəssisədə çalışan əməkdaşların vaxtaşırı dispanzerizasiya olunmalarının təmin edilməsi ilə bağlı göstəriş verilib.

Baş nazir Komissiya üzvlərinin yaxın günlərdə Söyüdlü kəndinə bir daha səfər etmələri ilə bağlı tapşırıq verib, kənd sakinlərinin müraciətlərinin ən ciddi şəkildə araşdırılmasının davam etdirilməsinin zəruriliyini vurğulayıb.

# Diplomatlarımız "Ağdamın dirçəlişi" təqdimatında

**İyulun 13-də Azərbaycan Respublikasının diplomatik xidmət orqanlarının rəhbərlərinin müşavirəsi çərçivəsində Xarici İşlər Nazirliyinin rəhbər heyətinin və xarici ölkələrdə akkreditə olunmuş diplomatik nümayəndəliklərimizin rəhbərlərinin Ağdam şəhərinə səfəri təşkil olunub.**




XİN-dən aldığımız xəbərdə bildirilir ki, səfərdə iştirak edən xarici işlər naziri Ceyhun Bayramov, Birinci vitse-prezidentin köməkçisi Elçin Əmirbəyov, xaricdəki diplomatik missiyalarımızın rəhbərləri Ağdam Şəhidlər xiyabanını ziyarət ediblər.

"Ağdamın dirçəlişi" adlı təqdimatda açılış nitqi ilə çıxış edən nazir Ceyhun Bayramov Ağdamın, Qarabağın Azərbaycan xalqı üçün əhəmiyyətindən bəhs edərək, bu gözəl şəhərin Ermənistan tərəfindən məqsədyönlü şəkildə dağıdılmasının Azərbaycana qarşı etnik nifrət və dözümsüzlük siyasətinin tərkib hissəsi olduğunu bildirib.

Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov aparılan genişmiqyaslı bərpa və quruculuq işləri barədə tədbir iştirakçılarını ətraflı məlumatlandırıb.

Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin İdarə Heyətinin sədri Vüqar Süleymanov işğaldan azad olunmuş ərazilərdə görülən işlər barədə təqdimat edib. AMEA Tarix İnstitutunun şöbə müdiri, professor Mais Əmrahov Ağdamın, Qarabağın tarixi ilə bağlı mühazirə ilə çıxış edib.

Qarabağ və Şərqi Zəngəzurda bərpa və quruculuq işlərinə həsr olunmuş videoçarx nümayiş olunub. İştirakçılar Ağdamın tarixi və mədəni irs nümunələri ilə tanış olublar.

***"Xalq qəzeti"***

# DSX-in rəisi İsrailin müdafiə naziri ilə görüşüb

**Dünən Dövlət Sərhəd Xidmətinin rəisi general-polkovnik Elçin Quliyev ölkəmizdə rəsmi səfərdə olan İsrail Dövlətinin müdafiə naziri Yoav Qallantın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

DSX-nin rəisi Azərbaycan və İsrail arasında qarşılıqlı faydalı münasibətlərin bütün istiqamətlərdə, o cümlədən hərbi-texniki sahədə uğurla inkişaf etdiyini vurğulayıb.

Müzakirə zamanı qurumlar arasında birgə əməkdaşlıq fəaliyyətlərinə nəzər salınıb, bu kimi səfərlərin ikitərəfli əlaqələrin daha da inkişaf etdirilməsində əhəmiyyətli rolu vurğulanıb, qarşılıqlı maraq kəsb edən istiqamətlərdə əməkdaşlığın inkişaf etdirilməsinə dair fikir mübadiləsi aparılıb.



# Hərbi-texniki əməkdaşlığın inkişaf perspektivləri müzakirə olunub

**Dünən Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə rəsmi səfərdə olan İsrail Dövlətinin müdafiə naziri cənab Yoav Qallantın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

General-polkovnik Z.Həsənov israilli həmkarını salamlayaraq onu ölkəmizdə görməkdən məmnun olduğunu bildirib, ölkələrimiz arasında tərəfdaşlığın yüksək səviyyədə olmasının təkcə dövlətlərimizin inkişafında deyil, habelə bütün regionda təhlükəsizliyin təmin edilməsində mühüm rol oynadığını qeyd edib.



İsrail Dövlətinin müdafiə naziri kimi ölkəmizə ilk səfərindən və səmimi görüşə görə məmnunluğunu ifadə edən Y.Qallant Azərbaycan-İsrail əlaqələrinin dostluq və qarşılıqlı etimada əsaslandığını vurğulayıb, hərbi əməkdaşlığın daha da inkişaf etdirilməsi baxımından bu cür görüşlərin və qarşılıqlı səfərlərin zəruriliyini qeyd edib.

Strateji münasibətlərin daha da möhkəmləndirilməsi və təhlükəsizlik üzrə əlaqələrin genişləndirilməsinin əhəmiyyəti xüsusi vurğulanıb.

Görüşdə Azərbaycan ilə İsrail arasında hərbi, hərbi-texniki sahələrdə əməkdaşlığın inkişaf perspektivləri, eləcə də qarşılıqlı maraq doğuran bir sıra məsələlər müzakirə olunub.

# Azərbaycanın iqtisadi uğurları ümumi inkişafın etibarlı təminatıdır

**Prezident İlham Əliyev 2023-cü ilin altı ayının sosial-iqtisadi yekunlarına həsr olunmuş müşavirədə çıxış edərək ilin əvvəlində verdiyi tapşırıqların yerinə yetirilməsi ilə bağlı bir çox addımlar atıldığını, ilin sonuna qədər isə ölkəmizin uğurlu inkişafının təmin ediləcəyinə əminliyini ifadə edib.**



Dövlətimizin başçısı bu ilin 6 ayında isə respublikamızın dayanıqlı inkişafının təmin olunması, qeyri-neft sektorununda nəzərdə tutulan layihələrin gerçəkləşdirilməsi, düşməndən təmizlənən iqtisadi rayonlarının bərpası və iqtisadi-sosial sahələrdə islahatların davam etdirilməsinin qarşıya əsas vəzifələr kimi qoyulduğunu bildirib. Müşavirədə hesabat dövründə iqtisadiyyatın davamlı inkişafını əks etdirən göstəricilər də diqqətə çatdırılıb. Qeyri-neft sənayesində 6,5 faiz artım əldə olunduğu, qeyri-neft sektorunun, ümumiyyətlə, 3 faizdən çox yüksəldiyi vurğulanıb.

Azərbaycanın qeyri-neft-qaz sektorunun dinamik inkişafını bildirən rəqəmlərin əldə edilməsi iqtisadiyyatın bütün sahələrində ötən illərdəki artım dinamikasının qorunub saxlanılmasının məntiqi nəticəsidir. Başqa sözlə, belə bir uğur makroiqtisadi sabitliyin möhkəmləndirilməsi, iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun inkişafı və ölkəmizin dünya iqtisadiyyatına inteqrasiyası istiqamətində nəzərdə tutulan tədbirlərin ardıcıl həyata keçirilməsi ilə şərtlənir.

Hesabat dövründə ÜDM istehsalının böyük bir hissəsinin sənayenin payına düşməsi isə ölkəmizdə uğurlu sənayeləşmə siyasəti sayəsində mümkün olub. Sənaye parklarının mövcud sahədəki fəaliyyəti, həmin zonalarda yeni sənaye sahələrinin yaradılması, rəqabətqabiliyyətli və ixracyönümlü yeni məhsul istehsalının təşkili, bu işə investorların cəlb olunması kimi məsələlər hökumətin daim diqqət mərkəzində saxlanılıb və bu, müsbət göstəricilərlə müşahidə edilib. Məhz bunun nəticəsidir ki, İqtisadi Zonaların İnkişafı Agentliyinin (İZİA) idarəçiliyində olan Sumqayıt Kimya Sənaye Parkında rezidentlərin sayı 35-ə çatdırılıb. Hacıqabul Sənaye Məhəlləsində isə ümumi investisiya həcmi 51 milyon manatdan artıq olan 13 sahibkarlıq subyekti rezident kimi qeydiyyata alınıb və onlardan 8-i fəaliyyətə başlayıb.

Müşavirədə qeyd edilib ki, cari ilin 6 ayı ərzində ölkənin maliyyə vəziyyəti də böyük dərəcədə yaxşılaşıb. Buna isə, ilk növbədə, maliyyə sektorundakı nizam-intizamın möhkəmləndirilməsi, vergi və gömrük orqanlarında islahatların davam etdirilməsi, şəffaflığın təmin olunması kimi amillər sayəsində nail olunub. Belə bir şərait təbii ki, büdcəyə yenidən baxılmasını və dürüstləşmə aparılmasını şərtləndirib. Ümumiyyətlə, hesabat dövründə proqnozlardan xeyli dərəcədə böyük vəsait toplanılması büdcəyə yenidən baxılması zərurətini qarşıya çıxarıb.

Dövlət büdcəsinə yenidən baxılmanı şərtləndirən amillər sırasında, ilk növbədə, işğaldan azad olunmuş Qarabağda və Şərqi Zəngəzurda genişmiqyaslı və sürətli bərpa-yenidənqurma işlərinin aparılması, vaxtilə öz doğma yurdlarından didərgin düşmüş vətəndaşlarımızın mərhələli şəkildə ata-baba yurdlarına qayıdışının təmin edilməsi, bu zəmində Azərbaycan Prezidentinin 2022-ci il 16 noyabr tarixli sərəncamı ilə təsdiqlənən "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın icrasının sürətləndirilməsi xüsusi yer tutur.

Büdcəyə dəyişikliklərin edilməsini zəruri edən məsələlərdən biri də Silahlı Qüvvələrimizin müdafiə qabiliyyətinin artırılması, ölkənin sərhədlərinin möhkəmləndirilməsi, daxildə və xaricdə təhlükəsizlik tədbirlərinin gücləndirilməsi, dünyada gedən geosiyasi proseslərə, artan təhdidlərə və təhlükələrə, habelə qonşu dövlətlər tərəfindən respublikamıza qarşı baş qaldıra biləcək istənilən təhdidin qarşısının alınması üçün hazırlıq səviyyəsinin yüksəldilməsidir.

Bütün bunlarla bərabər, beynəlxalq yardım proqramları və müqavilələr üzrə imzalanmış öhdəliklərin qarşılanması, dövlət borcunun idarə edilməsi üzrə yeni yanaşmanın tətbiqi və bir sıra digər zəruri dövlət xərclərinin həyata keçirilməsi üçün dövlət büdcəsinə yenidən baxılmasını şərtləndirib.

Yeri gəlmişkən, müşavirədə bu məsələyə toxunan ölkə rəhbəri builki dövlət büdcəsinin rekord həddə çatdığını, 33 milyard manatdan çox səviyyəyə qalxdığını bildirib. Onu da nəzərə alaq ki, ilin birinci yarısında respublikada təcili həllini gözləyən məsələlər də əldə edilən əlavə gəlirlərin müvafiq sahələr üzrə bölüşdürülməsini tezləşdirib. Prezident İlham Əliyev çıxışında bu barədə deyib: "Dürüstləşmə zamanı bizim əsas iki istiqamətimiz də çox açıq-aydın qoyulmuşdur. Bütövlükdə 3 milyard manatdan çox vəsait əlavə edildi. Bunun 1,8 milyard manatı Qarabağın və Şərqi Zəngəzurun bərpa edilməsinə istiqamətləndirilmişdir, 1,1 milyard manat isə hərbi potensialımızın güclənməsinə sərf ediləcək. Yəni, ayrılmış məbləğin mütləq əksəriyyəti bu iki istiqamətə yönəldilmişdir və bu da təbiidir. Çünki bu gün ölkə qarşısında duran iki əsas vəzifə məhz bu vəzifələrdir".

Müşavirədə xarici dövlət borcunun idarə edilməsi istiqamətində görülən işlərə də toxunulub. Yeri gəlmişkən, dövlətimizin başçısı tərəfindən bu məsələyə daim xüsusi diqqət yetirilib və müvafiq qurumlara xarici dövlət borcunun ümumi daxili məhsulun 10 faizi həddində saxlanılması tapşırığı verilib. "Biz artıq bu hədəfə də çatdıq. Mütləq rəqəmlərdə bizim borcumuz cəmi 6,7 milyard dollardır və bu da ümumi daxili məhsulumuzun təxminən 10 faizini təşkil edir. Əlbəttə ki, ümumi daxili məhsulumuzun son rəqəmləri ilin sonunda hesablanacaq. Ancaq indi də proqnoz vermək mümkündür. Birinci altı ayda ümumi daxili məhsul 60 milyard manatdan çox təşkil etmişdir", – deyə ölkə rəhbəri bildirib.

Hesabat dövründə ölkədə həyata keçirilən idxal-ixrac əməliyyatlarından danışılarkən, xarici ticarət balansının müsbət - yəni, profisiti çox böyük səviyyədə qeydə alındığı vurğulanıb. Makroiqtisadi sabitliyin uzun illər ərzində təmin edildiyi, manatın məzənnəsinin sabit saxlanıldığı, belə bir halın dünya praktikasında, xüsusilə indiki şəraitdə nadir hadisələrdən biri olduğu deyilib və bütün bunlar düşünülmüş siyasətin təzahürü kimi dəyərləndirilib. Əlbəttə, Azərbaycanda bu, başqa cür də mümkün deyil. Çünki dövlət başçısının reallaşdırdığı siyasətin mərkəzində təbii ki, Azərbaycan vətəndaşı dayanır. Makroiqtisadi sabitlik isə təbii ki, ölkə iqtisadiyyatına təsir edir. Amma, ilk növbədə, bunun ən ciddi təsiri insanların yaşayış səviyyəsinədir. Ölkəmizdə isə müşavirədə vurğulandığı kimi, həm minimum əməkhaqları, həm də minimum pensiyalar müntəzəm olaraq artırılır. Bununla paralel şəkildə manat sabit qalır.

Müşavirədə narahatlıq doğuran bir məqam– inflyasiyanın ikirəqəmli olması məsələsinə də diqqət yetirilib. Dövlətimizin başçısı Azərbaycanda bütövlükdə iqtisadi potensial və iqtisadi sahədə əldə edilən nəticələr fonunda inflyasiyanın 12 faiz səviyyəsinə çatmasının arzuolunan hal olmadığını, bununla belə ilin sonuna qədər inflyasiyanın birrəqəmli səviyyəyə düşə biləcəyinə əminliyini ifadə edib.

Yeri gəlmişkən, Mərkəzi Bankın məlumatına əsasən, qlobal maliyyə sistemində sabitliyin pozulması, bir sıra inkişaf etmiş ölkələrdə resessiya təhlükəsinin mövcudluğu və geosiyasi gərginlik müxtəlif kanallarla ölkəmizin inflyasiya proseslərinə təsir potensialını saxlayır. İdxal qiymətləri indekslərinin artım templəri ikirəqəmli səviyyədə qalır. Bununla belə, son aylarda xarici inflyasiya təzyiqlərinin zəifləməsi, eləcə də ötən ildən bəri qəbul edilən pul siyasəti və makroprudensial siyasət qərarlarının təsiri ilin qalan dövründə inflyasiya proqnozunun azaldılmasına şərait yaradır.

**Vaqif BAYRAMOV,**
**"Xalq qəzeti"**

## Ekspert rəyi

**Eyyub KƏRİMLİ,**
**iqtisadçı-ekspert**



Müşavirədə cənab Prezidentin toxunduğu mühüm iqtisadi məsələlər cari ilin ilk 6 ayında əldə olunmuş uğurların geniş icmalı kimi dəyərləndirilməlidir. Azərbaycanın sosial-iqtisadi inkişafını şərtləndirən amillərin sırasında qeyri-neft sektorunda və qeyri-neft sənayesində müşahidə olunan artımı xüsusi qeyd etmək olar. Belə ki, hesabat dövründə ölkəmizin qeyri-neft sənayesi 6,5 faiz, qeyri-neft sektoru 3 faizdən çox artıb.

Ölkədə islahatların davam etdirilməsi nəticəsində maliyyə sektorunda nizam-intizam möhkəmlənib, vergi və gömrük sahələrindən büdcəyə daxilolmalar artıb, şəffaflığ təmin edilib. Bu da Azərbaycanın maliyyə durumunun daha da yaxşılaşmasına və büdcəyə yenidən baxılmasına, dürüstləşmə aparılmasına imkan yaradıb. Nəticədə, rekord həddə olan builki dövlət büdcəsi daha 3 milyard manat artırılaraq 33 milyard manatdan 36 milyard manata çatdırılıb. Hazırda Azərbaycanın xarici borcu 6,7 milyard dollar təşkil edir ki, bu da ÜDM-in 10 faizinə bərabərdir. Bu, həm də dünya ölkələri arasında ən yaxşı göstəricilərdəndir.

Son vaxtlar nəqliyyat sektorunun əhəmiyyətinin artması, yeni nəqliyyat dəhlizlərinin yaradılması, eləcə də Azərbaycanın yerləşdiyi əlverişli coğrafi vəziyyət əsaslı yüksəlişə zəmin yaradır. Artıq ölkəmizin müasir nəqliyyat infrastrukturu keyfiyyətcə dəyişərək beynəlxalq standartlar səviyyəsinə yüksəlib. İndi Azərbaycan təkcə böyük yükləri aşıran tranzit ölkə olmaqla kifayətlənmir. Eyni zamanda, nəqliyyat marşrutları üzərində istehsal sahələri yaratmaq niyyətindədir. Bu da insanlar üçün, xüsusən region əhalisi üçün olduqca önəmlidir.

Onu da qeyd edim ki, Azərbaycan bütün gücünü və resurslarını işğaldan azad olunmuş ərazilərin bərpası və yenidən qurulması istiqamətində səfərbər edib ki, bu da ölkədə əlavə dəyərin yaradılmasına geniş imkanlar yaradacaq. Hazırda ölkəmiz heç bir yerdən yardım almadan, öz gücü hesabına Böyük Qayıdış Proqramını uğurla icra edir. Təkcə onu demək kifayətdir ki, 2023-cü ilin sonunadək işğaldan azad olunan ərazilərimizin bərpasına ayrılan vəsait 12 milyard manata çatacaq. Bununla belə, Qarabağın və Şərqi Zəngəzurun bərpasının prioritet olmasına baxmayaraq, cənab Prezident bütün ölkədə infrastruktur layihələrinin reallaşdırılmasını daim diqqətdə saxlayır ki, bu da regionlar üzrə tarazlı iqtisadi inkişafı təmin edir.

Azərbaycan öz müstəqilliyini, seçimini, həyat tərzini, ərazi bütövlüyünü qorumaq üçün daha güclü olmalıdır. Ordunun modernləşdirilməsi prosesinin, islahatların davam etdirilməsi, müasir silah-sursat, hərbi texnika ilə təmin olunması ölkəmizin təhlükəsizliyinin təminatında prioritet istiqamətlərdir.

---

**İkinci Qarabağ müharibəsi Ermənistan ordusu üzərində şanlı qələbə ilə başa çatandan sonra Azərbaycan Prezidenti, müzəffər Ali Baş Komandan İlham Əliyevin birbaşa rəhbərliyi və şəxsi nəzarəti altında işğaldan azad edilmiş ərazilərimizin bərpasına start verildi. Budur, artıq üçüncü ildir ki, Qarabağ və Şərqi Zəngəzurun erməni barbarlığından xilas edilərək ayağa qaldırılması üçün böyük tikinti-quruculuq işləri aparılır.**

# Ordumuzun gücü daim artır, döyüşkənliyi hər gün yüksəlir



Bu da təbiidir. Çünki işğalçı Ermənistanın təxminən 30 il ərzində dağıdıb viran qoyduğu şəhərlərimiz, yüzlərlə kəndimiz, çoxsaylı tarixi-mədəni abidələrimiz, infrastruktur obyektlərimiz yenidən qurulmalı, məcburi köçkünlərimiz öz yurd-yuvalarına qayıtmalıdırlar. Azərbaycan lideri dəfələrlə bəyan edib ki, bu insanlar üçün ən yüksək səviyyədə şərait yaradılmalı, onların ləyaqətli şəkildə öz torpaqlarına qaytarılmalıdırlar.

Hazırda bu istiqamətdə böyük işlər görülür. Amma qarşıda bu işlərlə eyni dərəcədə önəm daşıyan bir vəzifə də var. Xalq yazıçısı Anarın ulu Dədə Qorqudun dili ilə dediyi kimi, torpağı qorumadınsa, əkib-becərməyə, əkib-becərmədinsə, qorumağa dəyməz. Odur ki, bu gün biz dağıdılmış şəhər və kəndlərimizi tikib-yaradırıqsa, demək, onların daha etibarlı qorunması qayğısına da qalmalıyıq. Özü də hazırkı mürəkkəb şəraitdə, düşmənin məğlubiyyətlə barışmaq istəmədiyi, siyasi münaqişələrin sivil qanunlarla, beynəlxalq hüquq normaları əsasında deyil, güc yolu həll olunduğu bir dövrdə müdafiə məsələsi ikiqat önəm daşıyır.

Bu günlərdə Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi ilə 2023-cü ilin altı ayının sosial-iqtisadi yekunlarına həsr olunmuş müşavirədəki çıxışında qeyd etdiyi kimi, nəzərə almalı olduğumuz əsas istiqamətlərdən biri hərbi gücümüzün artırılması olmalıdır. Cənab Prezident bununla bağlı dedi: "Beynəlxalq vəziyyət bəllidir... Dünyanın müxtəlif yerlərində beynəlxalq hüquq işləmir. Beynəlxalq hüquqa, beynəlxalq təşkilatların qərarlarına, qətnamələrinə bel bağlamaq olmaz. Biz həmişə hüququn tərəfdarı idik, o cümlədən beynəlxalq hüququn. Biz həmişə ədalətin tərəfdarı idik. Bu gün də ədalətin və beynəlxalq hüququn tərəfdarıyıq və beynəlxalq müstəvidə bu mövqeyi müdafiə edirik. Həm bir ölkə kimi, həm də 120 ölkəni birləşdirən Qoşulmama Hərəkatının sədri kimi və nazirlər səviyyəsində son toplantı bir daha onu göstərdi. Ancaq biz görürük ki, dünyada qaydalar tamamilə pozulub, davranış qaydalarına, beynəlxalq hüquqa əməl edilmir".

Beynəlxalq hüquq və prinsiplərlə bağlı vəziyyət, təəssüf ki, bu gün acınacaqlı vəziyyətdədir və bu, hər bir dövlətdən, o cümlədən, qonşuluğunda yırtıcı, vəhşi xislətli Ermənistan kimi bir ölkə olan Azərbaycandan öz təhlükəsizliyinin mütləq təminatını tələb edir. Hazırda dünya nizamı elə bir vəziyyətə gəlib çatıb ki, dövlət başçımızın dediyi kimi, beynəlxalq hüququn qarantı rolunu öz üzərinə götürmüş ölkələr bu hüquq və prinsipləri uf demədən pozur, başqalarının qarşısına isə həmin qaydalara əməl etmək tələbi qoyurlar. Amma özləri on illərlə formalaşmış, beynəlxalq sənədlərdə təsbit olunmuş, necə deyərlər, oturuşmuş bəşəri davranış qaydalarına əməl etmirlər. Belə olan təqdirdə bizim də zəif və gücsüz olmağa nə ölkəmiz, nə xalqımız, nə də tariximiz və gələcəyimiz qarşısında haqqımız yoxdur. Biz də istənilən situasiyada özümüzü qorumaq, öz müstəqilliyimizi, ərazi bütövlüyümüzü müdafiə etmək üçün güclü olmalıyıq.

Müşavirədə Prezident qətiyyətlə bildirdi ki, İkinci Qarabağ müharibəsi başa çatandan sonra bu istiqamətdə çox ciddi addımlar atılıb və bu gün Azərbaycan Silahlı Qüvvələrinin hərbi potensialı kifayət qədər artırılıb. Həm döyüş qabiliyyəti, həm silah və texnika ilə təchizat sahəsində mühüm işlər görülüb və davamlı şəkildə görülməkdədir. Bütün bunlarla biz: "Daha da güclü olacağıq, çünki bu proses dayanmır və dayanmamalıdır. Mən demişəm, iki istiqamət üzrə – hərbi potensial və azad edilmiş torpaqların bərpasına nə qədər vəsait lazımdır, biz o qədər də ayıracağıq".

Azərbaycan bu gün məhz bu istiqamətdə irəliləyir, ölkəmizin qüdrətinin, ordumuzun döyüş qabiliyyətinin artırılması üçün lazımi addımlar atılır. Çünki bu gün dünyada hərbi qüdrət amili ön plandadır və güclə hesablaşırlar, sərt qüvvədən çəkinirlər. Dövlətimizin başçısı məhz bunları nəzərə alaraq dedi ki, son iki il yarım ərzində bir neçə dəfə bu həqiqəti müvafiq ünvana göstərmişik, bizə qarşı tuşlanmış bütün oxları sındırıb öz ləyaqətimizi və milli maraqlarımızı qoruya bilmişik: "Əlavə sözlərə ehtiyac yoxdur, hər şey göz qabağındadır. Necə deyərlər, dərinə getmək istəmirəm, amma bunu artıq hər kəs görür, görməlidir və bilməlidir ki, Azərbaycanla hədə-qorxu, ultimatum dili ilə heç kim danışa bilməz və hesab edirəm ki, bundan sonra belə cəhdlər də olmayacaq".

Prezidentin qeyd etdiyi kimi, artıq Azərbaycanda Silahlı Qüvvələrimizin modernləşdirilməsi, bu sahədə islahatların dərinləşdirilməsi, yeni silahlı birləşmələrin yaradılması və təkmilləşdirilməsi, o cümlədən ən müasir silahların, texnikaların alınması istiqamətində işlər plan üzrə gedir. Silahlı Qüvvələrimizin ən qabaqcıl ordular səviyyəsinə çatdırılması üçün, demək olar ki, gündəlik işlər aparılır. Struktur islahatları, idarəetmə və özünümüdafiə nöqteyi-nəzərindən mühüm addımlar atılır ki, yerləşdiyimiz coğrafiyada özümüzü tam əmin-arxayın hiss edə bilək. Amma bütün bunlarla da arxayınlaşmaq olmaz.

Kapitulyasiya aktına imza atmış, üzərinə öhdəliklər götürmüş Ermənistan sülhə gəlməkdə çətinlik çəkir, hələ də revanşizm xülyaları ilə yaşayır. Arada təxribata əl atanda isə qarşısında regionun ən güclü hərbi qüvvəsi olan Azərbaycan Ordusunun dəmir sipərini görür və geri çəkilir. Odur ki, biz də gücümüzü artırmaqda davam etməli, istənilən anda təxribatlara layiqli cavab verməliyik. Bununla bağlı Prezident İlham Əliyevin müşavirədə dediyi fikirlər də maraqlıdır: "Bu sahə elə sahədir ki, burada az danışmaq, çox iş görmək lazımdır. Ona görə bundan artıq demək istəmirəm. Hər halda Azərbaycan xalqı əmin ola bilər ki, bizim təhlükəsizliyimiz etibarlı əllərdədir. Azərbaycan xalqı bundan sonra da rahat yaşaya bilər və yaşamalıdır".

**Paşa ƏMİRCANOV,**
**"Xalq qəzeti"**

# Uorlikin “müstəqil status” cəfəngiyyatı

## *Amerikalı keçmiş həmsədr ATƏT-in artıq ölü olan Minsk qrupunun ermənipərəst mövqeyinə yuvarlanıb*

**(əvvəli 1-ci səhifədə)**

Amerikalı diplomat ermənipərəstliyə bulaşmış həyasızlığını işə salaraq bildirir ki, guya, Prezident İlham Əliyev Qarabağa Azərbaycanın tərkibində status verməlidir və məsələ danışıqların predmetinə çevrilməlidir. Yalnız bu fikrə söykənib 44 günlük müharibəyə qədərki müddətdə Minsk qrupu adlandırılan qurumun ədalətsiz institut təsvirini cızmaq mümkündür. Sanki onun həmsədrləri də xüsusi seçilmiş adamlar olublar. Bitərəf sifətində Ermənistanın mənafeyini qoruyublar.

Bu baxımdan Uorlik kifayət qədər unikal nüsxədir. Belə olmasaydı, dilinə cəfəngiyyat gətirməz və nəzərə alardı ki, zamanında Azərbaycan Qarabağa ən yüksək səviyyəli muxtariyyət verməyə hazır idi, lakin Ermənistan bunu istəmirdi. Həm də ona görə istəmirdi ki, Qarabağı öz ərazisi kimi görürdü. Sadəcə, bunu açıqdan-açığa dilə gətirməyə cəsarəti çatmırdı. Elə ki, inqilab eyforiyasına bürünmüş baş nazir Nikol Paşinyanın timsalında “cəsarət tapdı”, müharibə başladı. Azərbaycan savaşda qan tökərək qalib gəlib öz haqqına sahiblənibsə, o zaman nə üçün köhnə varianta qayıtmalıdır? Hər şeydə məntiq olmalıdır, axı...

Bəli, cənab Uorlik bu yerdə son dərəcə məntiqsiz danışır. Onun sözlərinə görə, Azərbaycan hökuməti Qarabağın de-fakto hakimiyyəti, yəni separatçı rejimin təmsilçiləri ilə fövqəladə əhəmiyyət daşıyan məsələləri müzakirə etməlidir və statusla bağlı belə dialoqun aparılması vacibdir. Diplomat bu sayaq yaramaz fikirlərini gündəmə gətirərkən, elə fon yaradır ki, sanki söylədikləri problemin həllinin səmimi atmosferə köklənməsi naminədir.

“Dağlıq Qarabağ xalqı” kimi sərsəm ifadəni dilə gətirən Uorlikin fikirlərindən anlaşılan odur ki, Qarabağın erməni əhalisinin bölgədən kənarda da ehtiyac duyduğu vacib hüquqlar və təminatlar var. Görünür, o da Ermənistanın bu haqları verməsinin qeyri-mümkünlüyünü bilir. Ona görə, belə demək mümkünsə, Azərbaycana pənah gətirir. Adamın həyasızlığı isə ondadır ki, ölkəmizi hüquq, təhlükəsizlik və digər təminatlar verən qismində qəbul etsə də, erməni avantürizmi üçün plasdarm formalaşdırmağı da unutmur.

Uorlik, faktiki olaraq, “Bakı Qarabağ ermənilərinə istədiklərini versin” deyimini aktuallaşdırır. Nəzərə almır ki, yetmiş ilə yaxın müddətdə onlara istədiklərini vermiş Azərbaycan yekunda otuz ilə qədər davam etmiş işğalla üzləşdi. Sabiq həmsədr keçmişin dərslərini nəzərə almaya bilər. Ancaq onun bu dərsləri ölkəmizin götür-qoy etməyəcəyini düşünməsi böyük qəbahətdir. Nə yaxşı şey imiş, Qarabağ ermənilərinə status da verək, digər hüquq və azadlıqları da! Bəlkə, Bakının mərkəzindəki erməni evlərini də qaytaraq ki, yaxşı yaşayıb yenidən üzümüzə ağ olmaq üçün güc toplasınlar?!

*

Yaşamaqdan söz düşmüşkən, cənab Uorlik bildirib ki, vaxt gələcək, ermənilər və azərbaycanlılar dinc və təhlükəsiz şəraitdə yanaşı yaşaya biləcəklər. Əlbəttə, onun belə düşünməsində nöqsan yoxdur. O anlamda ki, bütün qanlı-qadalı müharibələr sülhlə yekunlaşıb. Dünyanın ən müxtəlif yerlərində birgə yaşayan elə xalqlar var ki, vaxtilə, necə deyərlər, xançal-bıçaq olublar.

Bəli, bu anlamda da Uorlik haqlıdır ki, dinc və yanaşı yaşamaq üçün etimad quruculuğu tədbirlərinə ehtiyac var. Tutalım, bu tədbirləri Azərbaycan görməlidir. Əslində, görür də. Müharibədə darmadağın etdiyi bir ölkəyə əlini uzadır. Ancaq o ölkə həmin əli sıxmaq üçün naz edir, nazına siyasi motivlər qatmağa çalışır. Üstəlik, Qarabağ ermənilərini ayrıca zümrə kimi təqdim etməklə, separatçılıq üçün miras saxlamaq niyyəti güdür. Görəsən, Uorlik özünün beynəlmiləlçi zəngulələrini vuranda bunu düşünüb görmürmü? Hesab edirik ki, “Azərbaycan Qarabağa status verməlidir” deyən bir şəxs bütün oyunları gözəl bilir, sadəcə olaraq, ermənipərəstlik mərəzinə ciddi şəkildə yoluxub.

*

Əlqərəz, Uorlik bəlkə də nadir siyasətçidir ki, Azərbaycan-Ermənistan nizamlanması ilə bağlı məsələlərdən danışarkən, dilinə “alicənablıq” sözünü gətirir. Sual olunur: Bakı alicənablığını necə göstərməlidir? Ölkəmizin rəhbərliyi Qarabağ ermənilərini vətəndaşı olduqları ölkənin paytaxtına dəvət edir. Onların, amerikalı diplomatın təbirincə desək, təhlükəsiz və əmin-amanlıq şəraitində yaşamaları ilə bağlı müzakirə aparsın. Amma çağırışa əhəmiyyət verən yoxdur.

Uorlik onu da nəzərə almır ki, dəvətlərdən imtina Qarabağı ayrıca dövlət kimi görmək avantürasıdır. Bəli, ayının min oyunu bir armudun başındadır. Ermənistanın və havadarlarının, ümumən dünya erməniliyinin hazırda çalışdığı odur ki, Qarabağda gələcək ekstermizm üçün baza saxlanılsın. Bölgənin erməni əhalisinin hüquq və təhlükəsizliyi məsələsinin qabardılması yalnız buna xidmət edir. Hər halda, Uorlik bu məsələdən də xəbərsiz deyil. Belədə onun Bakının alicənablıq göstərməli olduğunu deyərkən, konkret nəyi nəzərdə tutduğunu müəyyənləşdirmək son dərəcə çətindir.

Bəli, amerikalı diplomatın Azərbaycanın alicənablığı məntiqini qabartması yersizdir. Ona görə ki, ölkəmiz müxtəlif millətlərin, dini inanca və etiqada sahib şəxslərin dinc və birlikdə yaşadıqları məmləkətdir və bu şəxslər vətəndaş kimi ən üstün hüquqlara sahibdirlər. Qarabağ erməniləri özlərini yaxşı aparsalar, eyni hüquqlardan bəhrələnə biləcəklər və bunun üçün təminat Azərbaycanın Konstitusiyasıdır. Prezident İlham Əliyev də



çıxışlarında dəfələrlə mövcud məqamı vurğulayaraq, bir növ şans verib. Bölgənin erməni əhalisinin həmin şans daxilində nəzərdə tutulmayan imtiyaza malik olması, əvvəla, qanunsuzluqdur, digər tərəfdən isə belə bir halın baş verməsi ölkəmizdəki digər xalqlara və etnik qruplara münasibətdə hörmətsizlikdir. Bakı nə üçün ayrı–seçkilik etməlidir?

Görünür, Uorlik fikrini izah etmək üçün münasib ifadə tapmayıb, çünki burada ümumiyyətlə söhbət alicənablıqdan gedə bilməz. Həm də ona görə gedə bilməz ki, ortada üç mindən artıq şəhid qanı var. O qanın axmasına səbəb olan bütün mənfi meyillər birmənalı şəkildə aradan qalxmalıdır. O cümlədən, amerikalı diplomatın Bakı ilə görüşdürmək istədiyi separatçıların qondarma hakimiyyəti.

*

Əvvəldə də vurğuladığımız kimi, C.Uorlikin bildirdiklərində Ermənistan üçün faydalı məqamlar var. Ən böyük faydanı isə onun keçmişə nəzərən dilə gətirdiklərinin yekunu olaraq sonda diqqətə çatdıracağıq. Hələlik isə deyək ki, keçmiş həmsədr Ermənistanın baş naziri Nikol Paşinyanın ölkənin sabiq hakimiyyətinin 2007-ci ildə Madrid prinsipləri əsasında danışıqlara razılıq verməklə, Qarabağı Azərbaycanın bir hissəsi kimi tanıdığına və bunun nəticə etibarilə bölgənin erməni əhalisinin uzaq gələcəkdə öz müqəddəratını təyin etmək, hansısa status almaq imkanını sıradan çıxardığına dair fikirlərinə də münasibət bildirib. O vurğulayıb ki, həmsədrliyi dövründə danışıqlar masası üzərində nizamlanma variantı var idi və bu varianta dövlət başçıları razılıq versəydilər, vəziyyət başqa cür olardı: “Mənim həmsədrliyim dövründə belə bir qərarla bağlı razılıq əldə olunsa, Ermənistan üçün daha əlverişli vəziyyət yaranardı. Bu, müharibə və münaqişə nəticəsində baş verməməli idi. Amma, bu, keçmişdə qalıb”.

Əlbəttə, cənab Uorlik məsələnin artıq keçmişdə qaldığını bildirməkdə haqlıdır. Diplomat onda da haqlıdır ki, müharibə reallığını doğurmayan durum Ermənistan üçün əlverişli idi. Axı, o zaman Azərbaycan indiki qədər maksimalist mövqedən çıxış etmirdi və daha çox Qarabağın hansı şərtlərdə olursa-olsun, öz tərkibində qalmasını istəyirdi. Ermənistan isə əksinə, çalışırdı ki, danışıqlardan yayınsın və işğal etdiyi əraziləri özündə saxlasın. Yəni, İrəvanın hansısa ikinci varianta razılıq verməsindən söhbət getmirdi.

Ermənistanın o zamankı iqtidarı istəyirdi ki, vaxt uzansın və Qarabağ mövzusu Azərbaycanın siyasi-ictimai gündəmindən tamamilə silinsin. Erməni beyin mərkəzləri bunun üçün hesablamalar da aparmış və müddət müəyyənləşdirmişdilər ki, status-kvo tutalım beş, on, on beş il və daha artıq saxlanılsa, ölkəmizdə nəsil dəyişikliyinin baş verməsi ilə Qarabağ və işğal edilmiş digər ərazilər məsələsi yaddan çıxacaq. Görəsən, Uorlikin bundan xəbəri yox idi? İnanmırıq. Hər halda, o, həmin zaman kəsiyində Ermənistanda Qarabağın və digər işğal edilmiş torpaqların ölkənin ərazisi kimi göstərildiyi xəritələrin dövriyyəyə buraxıldığını bilməmiş olmazdı. Bilirdi, amma təmsilçiliyini apardığı həmsədrlik institutu belə yaramazlıqlara qarşı fikir bildirmirdi və faktiki olaraq erməni maraqlarının müdafiəsini reallaşdırırdı.

İndi isə Uorlik həmin maraqların müdafiəsi üçün tutacaq yer tapa bilmir. Ona görə mövzunu təkrarən Qarabağ ermənilərinə status məsələsi üzərinə gətirib cəfəngiyyata köklənir. Hələ onu da bildirir ki, status məsələsinin hazırda Azərbaycanla Ermənistan arasındakı danışıqların gündəmində olduğuna əmindir. Sabiq həmsədrin, siyasi korafəhmliyinin əsas göstəricisi isə budur ki, o, keçmişdəki status məsələsi ilə hazırkı status məsələsi arasında müqayisə aparır. Bu, azmış kimi, izah da edir ki, indi söhbət müstəqil status almaqdan getmir və başlıca məqam “Qarabağ xalqının Azərbaycanın bir hissəsi kimi sülh və təhlükəsiz həyat üçün hüquq və öhdəliklərinin tanınmasındadır”.

Ancaq Uorlik bəlkə özü də bilmədən vacib bir məsələni aşkara çıxarır. Yazımızda “ayının min oyunu bir armudun başındadır” misalı kontekstində vurğuladıq ki, Ermənistan Qarabağı öz tərkibinə qatmaq istəyirdi. Uorlik isə indi söhbətin müstəqil statusdan getmədiyini bildirməklə, əslində, təmsil olunduğu həmsədrlik instututunun tam səmərəsiz bir işlə məşğul olduğunu yenidən sübuta yetirir. Belə çıxır ki, bu institut Qarabağın və digər ərazilərimizin işğalını, bir növ, leqallaşdırmaqla məşğul imiş. Hər halda, onun “müstəqil status” məntiqinə başqa ad tapmaq qeyri-mümkündür. Müstəqil status, yoxsa müstəqil dövlət?!

*

Gələk, C.Uorlikin söylədiklərinin kulminasiya nöqtəsinə. Yəni, erməni müxbirin avantürizmə köklənmiş sualına verdiyi cavabına. Sual belə idi ki, Ermənistan 2020-ci il müharibəsindən sonra Azərbaycanın, o cümlədən Qarabağın ərazi bütövlüyünü tanıya və xalqların öz müqəddəratını təyinetmə prinsipinin təbliğ edə və ya heç olmasa, status məsələsini təxirə salmaqda israrlı ola bilərdimi?

ATƏT-in keçmiş Minsk qrupunun amerikalı sabiq həmsədrinin sözlərinə görə, Azərbaycan həmişə ərazi bütövlüyü prinsipində, Ermənistan isə millətlərin öz müqəddəratını təyin etmək və status məsələsinin müzakirəsində israrlı olub: “Amma bu, artıq keçmişdə qalıb. Biz olduğumuz yerdəyik. Ermənistan hökuməti və Qarabağ xalqı mövcud vəziyyəti qəbul etməli və Qarabağın erməni əhalisinin hüquqlarını təmin edən həll yoluna çalışmalıdır”.

Bu yerdə sonda diqqətə çatdıracağımızı bildirdiyimiz məqamdan söz açaq. Uorlik də digər ermənipərəstlər kimi, nə qədər manipulyasiyalar etsə də, Ermənistanın reallıqları qəbul etməsinin vacibliyini vurğulayır. O, nə qədər çək-çevir etsə də, Azərbaycanın gücü qarşısında duruş gətirilməsinin mümkünsüzlüyünü dilə gətirir, müqavimətin səmərəsizliyini aşılayır. Yəni, faktiki olaraq bildirir ki, indiki durumda Bakının iradəsinin əksinə getmək mənasızdır.

**Ə.CAHANGİROĞLU,**
**“Xalq qəzeti”**

# Gözlər Brüsselə dikilib – Cənubi Qafqaza sülh gələcəkmi?

## *Tezləşdirilən görüş, okeanın o tayından zəng, nikbin ovqat və...*



**(əvvəli 1-ci səhifədə)**

Baş nazir Nikol Paşinyan dünən ölkə hökumətinin iclasındakı çıxışı zamanı üçtərəfli görüşdə iştirakını təsdiqlədiyini bildirib. “Mən artıq bu görüşdə iştirakımı təsdiqləmişəm. Ümid edirəm ki, sülh müqaviləsi üzrə danışıqlarda irəliləyiş qeydə alınacaq”, – deyən Paşinyan iyulun 12-də Azərbaycan-Ermənistan dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi üzrə dövlət komissiyalarının dördüncü iclasının da reallaşdırıldığını xatırladıb.

***

Əlbəttə, diqqət çəkən ilk məqam Cənubi Qafqaz liderlərinin təmasının vaxtının tezləşdirilməsidir. İndiyədək belə bir hal yaşanmamışdı. Hazırkı durum nədən xəbər verir, konkret söyləmək çətindir. Ancaq ehtimal etmək olar ki, razılaşdırılmış müəyyən ciddi məqamlar var və görüş həmin məqamların tez bir zamanda rəsmiləşdirilməsi məqsədini daşımaqdadır. Əlbəttə, bəzi detalların dərhal dəqiqləşdirilməsinə duyulan ehtiyac amili də vurğulanmalıdır.

İkinci məqam. Azərbaycan və Ermənistan rəhbərlərinin görüşünün dəqiq tarixinin artıq bilindiyi bir vaxtda ABŞ Dövlət Departamentinin rəhbəri Antoni Blinkenin hər iki ölkə liderinə zəngi də maraq doğurmaqdadır. Bu, bir daha onu göstərir ki, Vaşinqton kollektiv Qərbin Cənubi Qafqaz tənzimlənməsi üzrə vasitəçilik missiyasında özünün öncül mövqe tutduğunu nümayiş etdirir.

Digər tərəfdən, yada salaq ki, Azərbaycanın və Ermənistanın xarici işlər nazirlərinin sonuncu görüşü iyunun 27-29-da Birləşmiş Ştatların paytaxtında gerçəkləşmişdi. Təcrübəyə söykənsək, görərik ki, XİN rəhbərlərinin bu il mayın 1-4-də ABŞ-da bir araya gəlməsindən sonra həmin ayın 14-də ölkə liderlərinin Brüsseldəki təmasında konkret irəliləyişə nail olunmuşdu. Ermənistanın baş naziri Qarabağ da daxil olmaqla, Azərbaycanın 86,6 kvadratkilometrlik ərazidə suveren hüquqlarını tanıdığını bildirmişdi. Görünür, indi Blinkenin zəngi, belə demək mümkünsə, incəliklərin yenidən nəzərdən keçirilməsi məramından irəli gəlir. Deməli, sabah daha ciddi irəliləyişlərin qeydə alınacağını ehtimal etmək mümkündür. Dövlət Departamentinin rəhbəri isə həmin nəticələri riskə atmaq istəmədiyindən zəngə üstünlük verir.

***

Blinkenin Azərbaycan və Ermənistan liderləri ilə telefon danışığının məzmununa gəlincə, ilk növbədə, vurğulayaq ki, Azərbaycan Prezidentin mətbuat xidməti cənab İlham Əliyevin ABŞ-ın Dövlət katibi ilə təmasına dair məlumat yayıb. Blinkenin Paşinyanla danışığı barədə isə birinci özünün Tvitter sosial şəbəkəsindəki hesabında paylaşım edib. Sual yaranır: nə üçün Ermənistan hökuməti cəmiyyətə ABŞ rəsmisinin zəngi kimi vacib məsələ ilə əlaqədar xəbər ötürməyib?

Beləliklə, A.Blinken dövlətimizin başçısı ilə söhbətində Ermənistanla Azərbaycan arasında sülh müqaviləsi üzrə müzakirələrə davamlı dəstəyini ifadə edib, danışıqlar prosesində yaradıcı və qarşılıqlı güzəştlərə əsaslanan yanaşmanın vacibliyini bildirib. O, Laçın sərhəd–gömrük– buraxılış məntəqəsi vasitəsilə keçidin önəmini vurğulayaraq, dayanıqlı sülhün əldə edilməsi üçün danışıqlardakı müsbət dinamikanın saxlanmasının əhəmiyyətinə toxunub.

Prezident İlham Əliyev isə ölkəmizin Ermənistanla sülh gündəliyinə sadiqliyini və iki ölkə arasında sülh müqaviləsinin təşəbbüskarı olaraq, onun imzalanmasını dəstəklədiyini vurğulayıb. Dövlətimizin başçısı A.Blinkenin və ABŞ hökumətinin Azərbaycanla Ermənistan arasında sülh gündəliyinin irəli aparılmasına göstərdiyi davamlı dəstəyinin yüksək qiymətləndirildiyini qeyd edib.

Ölkəmizin lideri, həmçinin Laçın sərhəd–gömrük –buraxılış məntəqəsi vasitəsilə humanitar yüklərin, fərdi keçidlərin və tibbi təxliyənin normal qaydada təşkil olunmasına baxmayaraq, iyunun 15-də Ermənistan tərəfindən törədilmiş silahlı təxribatı və Beynəlxalq Qızıl Xaç Komitəsinin müşayiəti ilə həyata keçirilən humanitar daşımalarda qaçaqmalçılıq hallarının aşkar edildiyini diqqətə çatdırıb və bu xüsusda araşdırmaların aparıldığını vurğulayıb.

ABŞ Dövlət katibi baş nazir N.Paşinyanla iyulun 12-dəki telefon danışığına toxunaraq bunları yazıb: “Mən dünən Ermənistanın baş naziri Nikol Paşinyanla danışdım ki, Azərbaycanla sülhün təminatı istiqamətində davam edən səylərə güclü dəstəyimi bir daha bildirdim. Birbaşa dialoq və diplomatiya Cənubi Qafqazda davamlı sülhün yeganə yoludur və mən buna öz töhfəmi verməyə hazıram”.

***

Ancaq onu da deməliyik ki, N.Paşinyanın ölkə hökumətinin iclasında söylədikləri Brüssel görüşü öncəsi heç də pozitiv düşünməyə imkan vermir. Erməni baş nazir Azərbaycanı ittiham məntiqinə söykənərək bildirib ki, Beynəlxalq Ədalət Məhkəməsinin Laçın dəhlizi ilə sərbəst və maneəsiz gediş-gəlişin təminatına dair məcburi qərarı, Azərbaycanın Qarabağda apardığı etnik təmizləmə siyasətinə qarşı çıxmaq üçün Qarabağ problemi ətrafında daha geniş beynəlxalq “konsolidasiyaya” imkan yaradır. “Bu mənada Bakı ilə Stepanakert (Xankəndi -red.) arasında beynəlxalq mexanizm çərçivəsində Qarabağ ermənilərinin təhlükəsizliyinin və hüquqlarının təmin edilməsi gündəliyi olan dialoq son dərəcə vacibdir”, – deyən Nikolun fikirlərinin pozuculuq mahiyyəti daşıdığı aşkardır. Çünki Azərbaycanın Bakı-Xankəndi dialoqu kimi sərsəm məntiqi yaxın buraxmadığı gün kimi aydındır.

***

Bu arada Azərbaycan və Ermənistan liderlərinin iyulun 15-də keçirilməsi qətiləşmiş Brüssel görüşünə Rusiyadan da reaksiya gəlib. Ölkənin Xarici İşlər Nazirliyinin sözçüsü Mariya Zaxarova NEWS.ru saytına bildirib ki, Moskva Bakı və İrəvan arasında sülhə aparan istənilən konstruktiv vasitəçiliyi dəstəkləyir. Ancaq onun sözlərindən belə anlaşılıb ki, görüş barədə nəticə çıxarmaq hələ tezdir. “Biz davamlı sülhə aparan istənilən konstruktiv vasitəçiliyi dəstəkləyirik. Ona görə də görüşün nəticələrinə əsasən fikir bildirmək lazımdır”.

Ancaq Zaxarovadan fərqli olaraq, onun amerikalı həmkarı nikbinliyini gizlətməyib. ABŞ Dövlət Departamentinin sözçüsü Metyu Miller keçirdiyi brifinqdə təmsil olunduğu qurumun may ayına aid şərhlərində rast gəlinən “Ermənistanla Azərbaycan arasında sülh çox yaxındır, razılaşma mövcuddur” fikrinin konkret nə demək olduğuna münasibət bildirib. O, ayrı-ayrı detallardan söz açmasa da, bunları deyib: “Bu, o deməkdir ki, onlar (Azərbaycan və Ermənistan – red.) bir sıra məsələlərdə ciddi irəliləyiş əldə ediblər. Sonuncu görüşdə həll edilməmiş məsələlərin sayını azaltdılar. Ona görə düşünürük ki, həlli tapmalı olan daha az problemlə razılaşma əldə etmək mümkündür”.

Amerikalı rəsminin sözlərindən belə qənaətə də gəlmək mümkündür ki, daha konkret nəticə tərəflərin nə dərəcədə güzəştə getməyə hazır olmasından asılıdır. Deməli, nəzərlər sabahkı Brüssel görüşündə olacaq.

***Ə.RÜSTƏMOV, “Xalq qəzeti”***

Tarixi 14 iyuldan 54 il keçir

# Azərbaycanda Lider – Xalq tandeminin başlanğıcı



**(əvvəli 1-ci səhifədə)**

Böyük filosof Platon demişdir ki, ədalət və müdrikliklə demokratik və güclü hakimiyyətin bir yerdə olacağı gün bəşəriyyət xoşbəxtliyə qovuşacaqdır. Ümummilli lider, dünya şöhrətli siyasətçi və dövlət xadimi, uzaqgörən şəxsiyyət və qüdrətli strateq Heydər Əliyevə bəşəri şöhrət və əbədiyyət qazandıran da məhz onun Azərbaycan məkanında bu mənəvi-siyasi xüsusiyyətləri bir araya gətirməyi bacarmasıdır. Tanınmış soydaşımız, azərbaycanşünas alim, London Universitetinin professoru Turxan Gəncəyi deyirdi: "Mən istiqlalımızın sabahından daha nigaran deyiləm. Çünki millətimin üçrəngli bayrağı Heydər Əliyev kimi bir rəhbərin müqtədir əlindədir".

Azərbaycan tarixinin taleyüklü hadisələrlə dolu bir qərinəlik dövrü ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Bu illərdə ümummilli lider Heydər Əliyev Azərbaycan dövlətini və xalqını zamanın ən çətin sınaqlarından çıxararaq öz ölkəsinin ictimai-siyasi, iqtisadi və mədəni tərəqqisinə nail olmuş qüdrətli şəxsiyyətdir.

Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev ili" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamında qeyd edilir: "Heydər Əliyev öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və ardıcıl mübarizə apararaq onu müstəqilliyə qovuşdurmuş qüdrətli şəxsiyyətdir". Azərbaycan xalqı XX əsrin sonunda tarixi suverenliyinə məhz Heydər Əliyevin öndərliyi ilə qovuşmuş, yeni əsrə və yeni minilliyə də onun müəyyən etdiyi yol ilə qədəm qoymuşdur.

XX əsr Azərbaycan tarixinin 34 ilini ölkəsinin, xalqının nicatına, inkişafına həsr etmiş ümummilli lider Heydər Əliyev müasir Azərbaycan dövlətçiliyinin siyasi-ideoloji əsaslarını yaratmış, xalqı milli müstəqilliyə qovuşduraraq ictimai şüurda əbədiyaşarlıq qazanmışdır. Azərbaycan xalqının dünya şöhrətli tarixi şəxsiyyəti ulu öndər Heydər Əliyevin siyasi obrazı xalqımızın dövlətçilik şüurunun, tarixin sınağından şərəflə çıxmış bütöv bir idarəçilik məktəbinin, müasir ictimai-siyasi fikrin ən davamlı keyfiyyətlərinin canlı mənzərəsidir.

Ümummilli lider Heydər Əliyev şəxsiyyətini, onun Azərbaycan üçün misilsiz nəticələrə gətirib çıxaran fəaliyyətini öyrəndikcə, araşdırdıqca, əslində müstəqil Azərbaycan dövlətinin tarixi keçmişini, bu gününü, gələcəyini, Azərbaycan dövlətinə, onun qorunub saxlanmasına, dinamik inkişafına, dünya inteqrasiya sisteminə qovuşmasına həsr etdiyi titanik fəaliyyətini və dövlət quruculuğu prosesini öyrənmiş oluruq.

Ulu öndər Heydər Əliyevin Azərbaycanda ali rəhbərliyə birinci gəlişi və 34 illik liderliyinin birinci mərhələsi 1969–1982-ci illəri əhatə edir. Bu mərhələdə ümummilli lider Heydər Əliyev tərəfindən Azərbaycanın sosial-iqtisadi böhran vəziyyətinin, uzunmüddətli (60-cı illərin) geriliyinin təhlili verildi, səbəbləri açıqlandı və çıxış yolları müəyyənləşdirildi. Bunun nəticəsi idi ki, həmin vaxtdan da Azərbaycanda tənəzzüldən tərəqqiyə dönüş başlamışdır. Ümummilli liderin hakimiyyətə gəlməsi ilə Azərbaycanın sosial-iqtisadi və mədəni həyatında dirçəliş, inkişaf, cəmiyyətin keyfiyyətcə irəliyə, milli özünüdərkə, milli özünəqayıdışa dönüş mərhələsinin başlanğıcı qoyulmuş, intibah dövrü başlamışdır.

Xalqını və ölkəsini bütün varlığı ilə sevən bu nadir insanın rəhbərliyi, zəngin təcrübəsi sayəsində qısa müddətdə respublikanın iqtisadi inkişafının konsepsiyası hazırlanmışdır. İqtisadiyyatda, o cümlədən kənd təsərrüfatında ixtisaslaşma, maddi-texniki və müasir istehsal sahələrinin yaradılması ilə bağlı kompleks tədbirlər həyata keçirilmişdir. 1969–1982-ci illərdə müdrik, uzaqgörən, zəngin təcrübəyə əsaslanan milli siyasət əsasında Azərbaycanın iqtisadiyyatında istehsalın sürəti xeyli genişlənmiş, məhsuldarlıq yüksəlmişdir.

O illərdə bütün sahələrdə əhəmiyyətli uğurlar, nailiyyətlər əldə edilmişdir. Azərbaycanda elmi-texniki tərəqqidə böyük irəliləyişlər baş vermişdir. Ölkədə yeni müasir istehsal sahələri yaradılmış, 250-dən çox zavod, fabrik, istehsal sexləri, obyektləri istifadəyə verilmiş, 630 min nəfərlik yeni iş yerləri açılmışdır. Nəticədə, əhalinin maddi rifah halı əhəmiyyətli dərəcədə yaxşılaşdırılmışdır.

1969–1982-ci illərdə neft hasilatının, neft emalı və qazçıxarma sahələrinin inkişafında da yeni mərhələ başlamışdır. Bakı Məişət Kondisionerləri, "Azon", "Ulduz", Cihazqayırma, Sumqayıt Kompressorlar, Dərin Dəniz Özülləri və s. zavodlar da məhz bu illərin nəhəng tikililəridir. 1969–1982-ci illərdə respublika sənayesinin yeni sahələri olan elektrotexnika, cihazqayırma, elektron, dəzgahqayırma, avtomatlaşdırma kimi yeni istehsal sahələrinin yaradılmasına başlanılmışdır. Qısa müddətdə Heydər Əliyevin fədakar əməyi sayəsində Azərbaycan SSRİ-də elektrotexnika sənayesinin ən böyük və əhəmiyyətli mərkəzlərindən birinə çevrilmişdir.

Ümummilli lider Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi birinci mərhələdə sənayenin sürətli, kənd təsərrüfatının dinamik inkişafı, respublikanın inkişafında ən mühüm iqtisadi nəticələrdəndir. 1980-ci illərin ortalarına qədərki dövrdə sənaye istehsalı 2,2 dəfə artmış, məhsulun orta illik artım sürəti 8,2 faiz olmuş və bu, əvvəlki onillikdəkindən 19 faiz çox olmuşdur. Təkcə neft hasilatında istehsalın həcmi 2,8 dəfə, həmçinin maşınqayırma və metal emalı 3,3 dəfə, kimya və neft kimyası 2,8 dəfə artmışdır.

Bu illərdə sənayedə əmək məhsuldarlığı 1,7 dəfə yüksəlmiş, 4 min 400 yeni növ maşın, cihaz, avadanlıq və digər məmulat yaradılmışdır ki, onlardan 400-ü keçmiş SSRİ-də ilk dəfə həyata vəsiqə almışdır. Həmçinin, bu illərdə respublika üzrə 5,5 milyon ton pambıq, 7 milyon 399 min ton üzüm istehsal olunmuşdur. Təkcə 1981-ci ildə pambıq istehsalı 1 milyon 15 min 300 tona, üzüm istehsalı 1 milyon 616 min tona çatdırılmışdır.

1969–1982-ci illərdə baş verən dəyişikliklərin miqyası, iqtisadi və sosial sahələrdə aparılan dərin struktur islahatları, xalqın maddi rifahının yüksəlməsi Azərbaycanda mədəniyyət sahələrində böyük inkişafa səbəb olmuşdur. Respublikada geniş sosial-mədəni quruculuq proqramı həyata keçirilmişdir. Şəhərlər böyümüş, yeni yaşayış massivləri salınmışdır. O dövrdə Bakıda böyük konsert-toplantı mərkəzi – indiki Heydər Əliyev sarayı, Gülüstan şadlıq sarayı və digər möhtəşəm sosial-mədəni obyektlər inşa edilmişdir.

Əsl milli lider olan Heydər Əliyev Azərbaycanda elmin inkişafına və təhsilin dünya standartları səviyyəsinə qaldırılmasına xüsusi diqqət vermişdir. Dahi şəxsiyyətin Azərbaycan təhsilinin inkişafında xidmətlərindən biri də 1969–1982-ci illərdə şəxsi təşəbbüsü və qayğısı sayəsində Azərbaycandan kənarda, keçmiş SSRİ-nin 50-dən artıq şəhərinin 170-dən çox nüfuzlu ali məktəblərində respublikamızın xalq təsərrüfatı, elm, təhsil və mədəniyyətinin 80-dən artıq sahəsini əhatə edən və xüsusi ehtiyac duyulan 250-dən çox ixtisas üzrə 15 mindən artıq azərbaycanlı gəncin ali təhsil almasına, yüksək ixtisaslı mütəxəssislər kimi hazırlanmasına imkan və şərait yaratması olmuşdur.

Beləliklə, XX əsrin 70-ci illəri – 80-ci illərin əvvəlləri Azərbaycan tarixində yüksəliş dövrü kimi səciyyələnir və qeyd edə bilərik ki, müstəqilliyimizin əsasları bu illərdə qoyulmuşdur.

Ümummilli lider Heydər Əliyevin 34 illik dövlətçilik fəaliyyətinin ikinci mərhələsi 1982–1987-ci illəri əhatə edir. 1982-ci ilin dekabrında Sov.İKP MK Siyasi Bürosunun üzvü seçilən Heydər Əliyev SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin edilmiş və Kreml liderlərindən biri olmuşdur. Azərbaycanın qüdrətli oğlu sovet xüsusi xidmətinin sıravi leytenantından general-mayor rütbəsinədək, kommunistlər ordusunun sıra nəfərindən Kreml liderləri, SSRİ-nin rəhbərlərindən birinə qədər yüksəlmişdir.

Qeyd edək ki, Sovet imperiyası, totalitar kommunist rejimi şəraitində həm də müsəlman və türk oğlu üçün belə yüksək səviyyəyə yüksəlmək hər siyasi xadimin hünəri deyildi. Şovinist əhval-ruhiyyəli SSRİ rəhbərliyinin yuxarı eşelonunda təmsil olunmaq, keçmiş Sovetlər Birliyində, həmçinin dünyada gedən proseslərə təsir göstərə biləcək fəaliyyət, cəsarət, iradə sahibi olmaq – bunlar yalnız ümummilli lider Heydər Əliyevə nəsib olmuşdur.

**(ardı var)**

**İbrahim ZEYNALOV,**
**Bakı Dövlət Universitetinin professoru**

# Qüdrətli Azərbaycan naminə!

**Hər bir azərbaycanlı yaxşı bilir ki, mənalı ömür yolu, müdrik və praqmatik siyasi fəaliyyəti, Vətən və xalq qarşısında misilsiz xidmətləri məhz müstəqil Azərbaycanın qurucusu, ümummilli liderimiz Heydər Əliyevi öz tarixi, milli dəyərləri, dövlətçilik ənənələri ilə fəxr edən azərbaycanlıların qürur mənbəyinə çevirmişdir. Ulu öndər bütün ömrünü Azərbaycanın maraqları naminə həsr etmiş böyük şəxsiyyətdir.**

Ölkə həyatının bütün sahələrində Heydər Əliyev siyasətinin izi vardır. Həmin sahələrdən biri iqtisadiyyatdır ki, ümummilli liderin təşəbbüsü ilə bu sahədə böyük nailiyyətlər qazanılmışdır. Əlbəttə ki, iqtisadi gücü olmayan dövlət hər an məhv olmaq təhlükəsi ilə üzləşə bilər. Tarixi keçmişimizə ekskurs etsək, görərik ki, 1969-1982-ci illərdə ölkəmizə ilk dəfə rəhbərlik etməyə başlayan dahi Heydər Əliyevin böyük siyasi fəaliyyəti ilə respublikada 250-dən çox zavod, fabrik, istehsal sexləri, sənaye obyektləri istifadəyə verildi, 630 min yeni iş yeri açıldı. Sənaye istehsalı 2,7 dəfə, tələbat mallarının istehsalı 3 dəfə, kənd təsərrüfatı istehsalı 2,7 dəfə, taxıl, pambıq, üzüm, ipək, tərəvəz, tütün, bostançılıq məhsulları istehsalı sahəsində məhsuldarlıq 1,8 – 2,6 dəfə artdı.

Heyvandarlıqda artım isə 2,7 dəfə oldu. Taxıl istehsalı 573,9 min tondan 1 milyon 211,3 min tona, üzüm istehsalı 272 min tondan 1 milyon 725,4 min tona, pambıq istehsalı 299,4 min tondan 831, 2 min tona, meyvə-tərəvəz istehsalı 410 min tondan 850 min tona yüksəldi.

Bütün bunlar, aparılan genişmiqyaslı işlər, həyata keçirilən uğurlu iqtisadi layihələr geriləməkdə olan Azərbaycan iqtisadiyyatını, sözün əsl mənasında, dirçəltdi. Heydər Əliyev həmin dövrlərdə bütün digər bölgələrimiz kimi, Yevlaxa da daim xüsusi diqqət və qayğı göstərmişdir. Dahi şəxsiyyətin hər dəfə rayonumuza səfər etməsi rayonun sosial-iqtisadi, aqrar inkişafına təkan vermiş və nəticədə XX yüzilliyin ikinci yarısında Yevlax özünün, sözün həqiqi mənasında, tərəqqi dövrünü yaşayırdı. Xüsusilə vurğulamaq lazımdır ki, SSRİ məkanında yunun ilkin emalı fabrikinin Yevlaxda tikilməsi nəticəsində rayonda 2000-dən artıq yeni iş yerləri yaranmış, şəhərdə çox sayda sənaye- tikinti müəssisəsi fəaliyyətə başlamışdır.

Məhz dahi Heydər Əliyevin təşəbbüsü ilə Yevlax respublikada 4-cü iri sənaye şəhərinə çevrilmişdir. Bununla yanaşı 1980-ci illərdə ümummilli liderimizin xüsusi diqqəti nəticəsində Yevlax iri pambıqçılıq rayonlarından biri oldu. Dinamik inkişaf yolu ilə addımlayan rayonumuzda çox sayda yaşayış binası, təhsil, səhiyyə, mədəniyyət müəssisələri tikilib istifadəyə verilmişdir. Dahi Heydər Əliyevin Xaldan kənd kompleks orta məktəbində olması sonradan həmin məktəbin SSRİ məkanında tanınan təhsil ocağına çevrilməsinə əsaslı zəmin yaratmışdır.

Xüsusilə qeyd etmək lazımdır ki, bu dövrdə neft-qaz sənayesi sahəsində də böyük irəliləyişlər baş vermişdir. Ümumilikdə, ölkəmizdə neft hasilatı 2,8 dəfə, maşınqayırma və metal emalı 3,3 dəfə, kimya və neft kimyası 2,8 dəfə artdı. Sənayedə əmək məhsuldarlığı 1,7 dəfə yüksəldi, 4400 yeni maşın, cihaz, avadanlıq və digər məmulatlar istehsal olundu ki, bunlardan da 400-ü keçmiş SSRİ-də ilk dəfə istehsal edilirdi. Əgər 1969-cu ilədək olan 100 il ərzində Azərbaycanda 735 böyük sənaye obyekti tikilmişdisə, Heydər Əliyevin rəhbərlik etdiyi dövrdə –13 il ərzində onların sayı 1048-ə çatdırıldı.1971-ci il martın 28-də Azərbaycanın neft hasilatı tarixində 1 milyard ton "qara qızıl" çıxarıldı. Bütün bu uğurlar ulu öndərin bənzərsiz siyasətinin nəticəsi idi.

Heydər Əliyev 1982-ci ildə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü seçildi, SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini təyin edildi. SSRİ kimi nəhəng dövlətin hakimiyyət iyerarxiyasında Azərbaycan oğlunun belə yüksək mövqe tutması çox möhtəşəm tarixi hadisə idi.

Bu illər ərzində də Azərbaycanda bütün sahələrdə olduğu kimi, iqtisadi sahədə yüksək inkişaf var idi. Azərbaycan əvvəllər iqtisadi göstəricilərinə görə digər ölkələrdən geridə olsa da, dahi şəxsiyyətimizin apardığı müdrik siyasət nəticəsində 15 müttəfiq respublika arasında 14-cü sıradan 2-ci sıraya qalxdı. Tarixi faktlar göstərir ki, Heydər Əliyevin SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini vəzifəsində işləməsi Qorbaçov-erməni qruplaşmasına əsla sərf etmirdi. Onların məqsədi Azərbaycanın böyük oğlunu bu vəzifədən uzaqlaşdırmaq idi. Heydər Əliyev Sov.İKP MK Siyasi Bürosunun və şəxsən Baş katib Mixail Qorbaçovun yürütdüyü siyasi xəttə etiraz olaraq 1987-ci il oktyabrın 21-də vəzifəsindən istefa verdi. 1990-cı illərin əvvəllərində Azərbaycan Ermənistanın təcavüzü, xarici təzyiqlər və daxili çəkişmələr üzündən dünyanın siyasi xəritəsindən silinmək və yeni əldə etdiyi müstəqilliyini itirmək təhlükəsi ilə qarşılaşdı. Bütün baş verən neqativ proseslər torpaqlarımızın 20 faizinin itirilməsi ilə nəticələndi. SSRİ-nin süqutu ilə bağlı digər müttəfiq respublikalar kimi, Azərbaycan da dövlət müstəqilliyini bərpa etdi. Korafəhm və səriştəsiz rəhbərliyin təqsiri ucbatından müstəqilliyimizin ilk illəri ölkəmiz üçün acınacaqlı oldu. Mənasız qarşıdurmalar, vəzifə davası, xaos, bir yandan da yağı düşmənin – Ermənistanın torpaqlarımızı işğal etməsi Azərbaycanın bir dövlət kimi mövcudluğunu itirməsinə aparırdı. Belə bir gərgin vəziyyətdə xalqın təkidli tələbi ilə Azərbaycanda siyasi hakimiyyətə qayıdan ulu öndər Azərbaycanın Qurtuluşuna imza atdı, ölkəni məhv olmaqdan xilas etdi.

1993-cü il iyunun 15-də dahi Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin Sədri seçildi. İyunun 15-i Azərbaycan xalqının tarixinə Milli Qurtuluş Günü kimi yazıldı. 1993-cü il iyunun 24-də Milli Məclisin qərarı ilə ulu öndər Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərinin icrasına başladı.

Bütün bunlar öz xalqının ümummilli liderinə olan sevgisinin və sonsuz inamının göstəricisi idi. Xalq öz xilaskarını heç zaman unutmurdu. Elə bunun nəticəsidir ki, 1993-cü il oktyabrın 3-də keçirilən seçkilərdə böyük səs çoxluğu ilə Azərbaycan Respublikasının Prezidenti seçilən Heydər Əliyev qısa müddətdə xaos və anarxiyaya son qoyulmasına, ictimai-siyasi sabitliyin bərqərar edilməsi istiqamətində gərgin fəaliyyətə başladı.

Heydər Əliyev ölkəmizə Prezident kimi rəhbərlik etdiyi 10 il ərzində Azərbaycan digər sahələrdə olduğu kimi, iqtisadiyyatda da növbəti uğurlu inkişaf yoluna qədəm qoydu. 1994-cü il sentyabrın 20-də "Gülüstan" sarayında dünyanın 7 ölkəsinin məşhur neft şirkətləri ilə "Əsrin müqaviləsi" imzalandı. Bu saziş ölkəmizin dünya xəritəsindəki mövqeyini möhkəmləndirdi. Azərbaycan artıq bütün dünyada neft ölkəsi kimi tanınmağa başladı. Müqavilə digər sahələrdə çalışan şirkətlərin də ölkəmizə marağını artırdı.

Eyni zamanda, qeyd etmək lazımdır ki, bu müqavilənin imzalanması Azərbaycan iqtisadiyyatının inkişafına verilmiş ən böyük töhfə idi. 1997-ci ilin sentyabrında "Əsrin müqaviləsi" çərçivəsində qazma işlərinin başlandığı "Çıraq" yatağında noyabrın 7-də ilk neft hasil olundu. Noyabrın 12-də bu münasibətlə platformada Heydər Əliyevin, layihənin əməliyyatçısı olan BP şirkətinin və tərəfdaşlarının nümayəndələrinin, xarici ölkələrdən gəlmiş qonaqların iştirakı ilə təntənəli mərasim keçirildi. Bu tarixi hadisə Azərbaycanın yeni neft strategiyasının uğurlarının başlanğıcı oldu.

2005-ci ilin fevralında "Mərkəzi Azəri" yatağından, 2006-cı ilin yanvarında "Qərbi Azəri" yatağından, 2006-cı ilin oktyabrında isə "Şərqi Azəri" yatağından neftin hasilatına başlanıldı. 1993-cü ildə 60 xarici ölkə ilə ticarət əlaqələri qurulmuşdusa, 2002-ci ildə bu əlaqələrin coğrafiyası genişlənərək, 128 dövlətə çatdı. 2002-ci ildə xarici ölkələrlə ticarət dövriyyəsi 3 milyard 832,9 milyon ABŞ dolları oldu. Bu 1993-cü illə müqayisədə 2,8 dəfə çox idi.

Hər bir vətəndaşımız fəxr edir ki, hazırda Heydər Əliyev siyasəti ölkə Prezidenti, partiyamızın sədri cənab İlham Əliyev tərəfindən ən yüksək səviyyədə davam etdirilir. Bəli, qüdrətli dövlətin varlığı üçün həmin dövlətin güclü iqtisadiyyatı olmalıdır. Azərbaycan dünyada ən sürətlə və dinamik inkişaf edən dövlətlərdən biridir. Ölkənin iqtisadi qüdrətinin artması onun müstəqil siyasət yeritməsinə, əhalinin rifah halının ildən-ilə yüksəlməsinə imkan yaradır. Məhz güclü iqtisadiyyatı olan dövlət kimi Azərbaycan heç bir ölkədən və ya heç bir beynəlxalq təşkilatdan maliyyə dəstəyi almadan, öz gücü hesabına Prezidentimiz, müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə cəmi 44 gün davam edən Vətən müharibəsində – haqq savaşımızda işğalçı Ermənistan ordusunu darmadağın etdi. Bu parlaq Qələbə möhtərəm Prezidentimizin bənzərsiz siyasəti və Azərbaycan Ordusunun rəşadəti hesabına əldə olundu. Bu tarixi hadisə bir daha bütün dünyaya nümayiş etdirdi ki, Azərbaycanın xilaskar oğlu dahi Heydər Əliyevin müdrik ideyaları keçmişdə olduğu kimi bu gün də yaşayır, gələcəkdə də yaşayacaqdır.

**Rafiq ƏLİYEV,**
**YAP Yevlax rayon təşkilatının sədri**

# Ölkəmizdə hərtərəfli tərəqqinin təməlinin qoyulduğu gün

**YAP Ağsu rayon təşkilatının inzibati binasında rayon icra hakimiyyətinin təşkilatçılığı ilə Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi ilə əlaqədar Ulu öndərin Azərbaycanda birinci dəfə siyasi hakimiyyətə gəlişi ilə bağlı "14 iyul 1969-cu il: Müstəqil və qüdrətli Azərbaycanın təməlinin qoyulduğu gün" mövzusunda toplantı keçirilib.**



Tədbirdə rayon icra hakimiyyətinin başçısı Rövşən Bağırov, rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri, ziyalılar, ağsaqqallar, Vətən müharibəsi şəhidlərinin ailələri, qazilər və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Mərasim iştirakçıları əvvəlcə ulu öndərin abidəsini ziyarət ediblər. Tədbirin əvvəlində Dövlət himni səsləndirilib. Sonra Heydər Əliyevin siyasi fəaliyyətini əks etdirən video-film nümayiş etdirilib.

Toplantıda çıxış edənlər ulu öndərin Azərbaycanda birinci dəfə siyasi hakimiyyətə gəldiyi 1969-cu ilin 14 iyul gününün xalqımızın taleyində oynadığı misilsiz rolundan, dünya şöhrətli siyasi xadimin müdrik fəaliyyəti ilə müasir tariximizin ən şanlı salnaməsini yaratmasından bəhs ediblər.

Natiqlər vurğulayıblar ki, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, milli həmrəylik və bütövlüyü təmin edən azərbaycançılıq ideologiyasının banisi, xalqımızın və dövlətimizin xilaskarı ümummilli liderin Azərbaycan xalqı və dövləti qarşısındakı tarixi xidmətləri misilsizdir. Ulu Öndər həm SSRİ dönəmində, həm də müstəqillik illərində ölkəmizə xalqın rifah halının daha da yaxşılaşdırılması, respublikamızın tərəqqisinin təmin olunması və digər istiqamətlərdə tarixi əhəmiyyətə malik olan misilsiz işlər görülüb. Bildirilib ki, ulu öndər Heydər Əliyevin əsasını qoyduğu siyasət Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

**İlqar HƏSƏNOV, "Xalq qəzeti"nin bölgə müxbiri**

# Sözümüzə qüvvət verən Türkiyə!

## *Prezident Rəcəb Tayyib Ərdoğan NATO-nun Vilnüs Sammitində Azərbaycanın mövqeyini gücləndirən mesajlar verdi*



**Bu, prezident seçiləndən sonra Türkiyə lideri Rəcəb Tayyib Ərdoğanın Şimali Atlantika Alyansının toplantısında ilk iştirakı idi. Onun Vilnüsdən verdiyi önəmli açıqlamalar artıq gündəmə çevrilib.**

Azərbaycanın Qarabağ iqtisadi rayonunda müvəqqəti yerləşdirilmiş Rusiya sülhməramlı hərbi kontingentin ötən iki il səkkiz aylıq fəaliyyəti müddətində öz missiyasına uyğun gəlməyən, bir çox hallarda rəsmi Bakıda inciklik, haqlı narazılıq doğuran məqamlar az olmayıb. Kontingent rəhbərliyinin Rusiya Müdafiə Nazirliyinə göndərdiyi hesabatlarda Qarabağdakı Azərbaycan yer adlarını təhrif etməsindən tutmuş bölgəyə silah-sursatın, minaların daşınmasında separatçılara yardım etməsinə qədər şübhəli "oyunları"na Bakı ara-sıra yumşaq formada iradlarını bildirib. Amma sülhməramlıların nə sülhdənkənar işləri, nə də onların Qarabağda qalma müddəti ilə bağlı Bakının Moskvaya rəsmi müraciəti olmayıb. Bu mənada Vilnüsdə verilən mesajı ilk reaksiya və mövqe kimi qəbul etmək olar.

* * *

NATO-nun Vilnüs Sammiti başa çatandan sonra düzənlənən mətbuat konfransında azərbaycanlı jurnalistin Qarabağ bölgəsindəki rus sülhməramlı kontingentin aqibəti ilə bağlı sualını Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan "2025-ci ilə qədər Rusiya təyin olunmuş yerlərdə qalacaq, həmin ildə isə bu yerləri tərk edəcək" formasında cavablandırıb. R.T.Ərdoğan, həmçinin Moskvanın bununla bağlı imzaladığı razılaşmaya sadiq qalacağına əminliyini də vurğulayıb. Türkiyə Prezidenti Azərbaycanın iştirak etmədiyi nüfuzlu beynəlxalq platformada, yəni dünyanın gözü qarşısında Qarabağ münaqişəsinin həllinə birbaşa aidiyyatı olan məsələ ilə bağlı bu qədər açıq və konkret şəkildə münasibətini bildirdi. Üstəlik, bu məsələdə Bakının da mövqeyini ifadə etdi: "Qardaşım Əliyev (Azərbaycan Prezidenti İlham Əliyev - red) zatən bunu diqqətlə izləyir".

R.T.Ərdoğanın bu mesajı hazırda Rusiyadan daha çox Ermənistanda müzakirə mövzusuna çevrilib. Axı, bu məsələ onlardan ötrü Qarabağdakı ermənilərin "təhlükəsizliyi" ilə sıx bağlıdır. Bakı və Ankaranın digər məsələlərdə olduğu kimi, Qarabağ mövzusunda da vahid mövqedən çıxış etməsi heç kəsə sirr deyil. İntəhası, 2020-ci il 10 noyabr tarixli üçtərəli Bəyanatda Qarabağda müvəqqəti yerləşdirilmiş Rusiya sülhməramlılarının missiyasının bölgədə qalma müddəti ilə bağlı münasibətin NATO-nun ikinci ən güclü ordusuna malik Türkiyənin dövlət başçısının dilindən, həm də hərbi alyansın zirvə görüşünün ardından səslənməsi məsələyə yalnız diplomatik deyil, başqa aspektdən yanaşıldığını düşünməyə əsas verir. Məlumdur ki, hərbi alyans Cənubi Qafqazda nüfuz dairəsini məhz Ankara üzərindən genişləndirir. Əgər belə demək mümkünsə, Türkiyənin bölgədə cərəyan edən hadisələrdə birbaşa iştirakı NATO-nun da regional siyasətinə tam uyğundur. Digər tərəfdən, bugünədək sülh danışıqlarının heç bir platformasında üçtərəfli bəyanatın bu bəndi müzakirə predmetinə çevrilməyib.

* * *

Bu mesaj niyə məhz indi, NATO-nun da dəstəklədiyi Qərb cəbhəsinin Rusiyaya qarşı yekdil mövqe nümayiş etdirdiyi Vilnüs Zirvə toplantısında elan edildi? Bu açıqlama Ərdoğanın verilən suala cavabdan daha çox şimal qonşumuza ünvanlanan konkret ismarıc kimi dəyərləndirilə bilər. Yəni, Ankara müddət başa çatanda sülhməramlıların Qarabağdan çıxmasını istəyir və Rusiyanın imzaladığı razılaşmanın şərtlərinə əməl edəcəyinə inanmaq istəyir.

Bəli, bu, Azərbaycanın demək istədiyi söz, irəli sürməyə hazırlaşdığı tələb idi. Hər şeydən göründüyü kimi, rəsmi Bakı bu məsələ ilə bağlı konkret mövqeyini Moskvanın önünə sərgiləməzdən öncə Ərdoğanın mesajı ilə mövqeyini daha da gücləndirməyi planlaşdırır. Əslində, Azərbaycanın 10 noyabr razılaşmasına əsasən uzağı iki il dörd aydan sonra rus sülhməramlılarının Qarabağı tərk etməsi mövqeyindən çıxış edəcəyi indidən məlumdur. Bir daha vurğulamaq istəyirik ki, Vilnüs mesajının altında Bakının istər iki, üç və beştərəfli sülh danışıqlarında, istərsə də Azərbaycan-Rusiya münasibətlərinin çox önəmli məqamlarında mövqeyimizi gücləndirən ismarıc dayanır. Azərbaycanın suveren ərazisi sayılan Qarabağ iqtisadi rayonundan Ermənistan ordusunun tör-töküntülərinin çıxarılması, bölgənin silahsızlaşdırılması və separatçıların son aqibətinin həll edilməsi Bakının tezliklə atacağı praktiki addımlar kimi qəbul oluna bilər. Amma bundan öncə Rusiyaya "bölgədə qalma müddətiniz bəllidir, buna görə proseslərə müdaxilə etməyin" mesajı verilir.

2025-ci ildə Rusiya sülhməramlı kontingenti Qarabağdan çıxacaqmı? – sualına müsbət və praktiki cavabın indiki şərtlər daxilində mümkün olacağı ehtimalına inananlar azdır. Sualın cavabı sülh dialoqunun konkret nəticələrə nə vaxt və necə nail olunacağından asılıdır. Görünən odur ki, həm geosiyasi, həm də regional müstəvidə Türkiyə-Azərbaycan tandeminin əhəmiyyət dərəcəsinin xeyli artması faktını Moskva nəzərə almalıdır. Kreml üçün Ankara faktoru Ukraynada apardığı müharibənin gedişatına təsir göstərməyə qadir gerçəklikdir.

Bəli, Türkiyənin Cənubi Qafqazda Rusiya ilə Qərbin toqquşan maraqlarını balanslaşdıran qüvvəyə çevrildiyi danılmaz həqiqətdir. Rəsmi Ankara üzvü olduğu NATO-nun Şərqə genişlənməsinə töhfə versə də, həm özünün, həm də qardaş Azərbaycanın strateji maraqlarından dolayı Moskva ilə də isti münasibətlərini qoruyub saxlayır.

2025-ci ildə sülhməramlıların Qarabağda qalma müddətinə xitam verilməsini gündəmə gətirən Türkiyə liderinin ismarıcını Moskvanın qəbul etməsi mümkündür. Deyəsən, Ərdoğanın bunu məhz indi ilk dəfə açıq şəkildə dilə gətirməsi də bu amilə hesablanıb. Rusiya bölgədəki maraqlarını qorumaq üçün artıq fərqli şərtlər daxilində hərəkət etməyə məcburdur. İrəvanın rəsmən Qarabağdan imtina etməsi Kremldən ötrü bu amilin effektivliyini və perspektivini xeyli zəiflədib. Artıq Rusiya isteblişmenti anlayır ki, Qarabağda uzun müddət duruş gətirə bilməyəcək. Hətta sülhməramlıların bölgədə qalma müddəti uzadılsa belə, bu, Moskvanın əvvəlki mövqeyini və tərəflərə təsir rıçaqlarını gücləndirməyə zəmin yaratmayacaq. Məgər bir ovuc haya görə Kremlə Bakı-Ankara tandemi ilə problemlər lazımdır?

* * *

İndi Moskvanı Cənubi Qafqaz bölgəsində kommunikasiyalarda, yeni yol və dəhlizlərdə daha çox paya sahib olması düşündürür. Məsələyə bu yöndən yanaşsaq, deyə bilərik ki, Rusiya üçün bölgədə mənafeyini və gücünü qoruyub saxlamağın ən real variantı təhlükəsizliyini sərhədçilərinin təmin edəcəyi Zəngəzur dəhlizi ola bilər. Burada Bakının Moskva üçün sərfəli varianta etirazı yoxdur. Ankara da transmilli nəqliyyat layihəsində Moskvanın söz sahibi olacağına loyal yanaşır.

Türkiyənin Rusiya ilə əməkdaşlığında cizgiləri görünən yeni tendensiya, güman edirik ki, Prezident Vladimir Putinin Türkiyəyə gözlənilən səfər proqramının özəyini təşkil edəcək. Bəli, Ərdoğanın NATO-nun Vilnüs Sammitindəki ismarıc-bəyanatı göründüyündən daha geniş təsirə malikdir. Bu ismarıc özündə Kremlin bölgə müstəvisində "komandanlıq" etmək niyyətini balanslaşdırmaq məqsədini daşıyan diplomatik addımdır. İki qitəni birləşdirən, bir ayağı Avropada, bir ayağı Asiyada olan Türkiyə regional, eləcə də beynəlxalq müstəvilərdə siyasətini məhz qardaş Azərbaycanın mənafeyini nəzərə alaraq irəliyə aparır. Və yeri gələndə mövqemizi öz mövqeyi, sözümüzü öz sözü kimi dünyaya bəyan edir.

**İmran BƏDİRXANLI,**
**"Xalq qəzeti"**

### Ekspert rəyi



**Fərid ŞƏFİYEV,**
**siyasi şərhçi**

Qarabağda rus sülhməramlılarının qalma müddəti barədə Azərbaycan Prezidenti İlham Əliyev birbaşa deməsə də, dolayısı ilə müəyyən şərhlər vermişdi. İndiki mərhələdə Türkiyə lideri tərəfindən belə bir mesajın verilməsi, ilk növbədə, son zamanlar Rusiyadan Laçın yolu ilə bağlı Azərbaycana qarşı təzyiqlərin bir növ qarşılığı idi. Bu təzyiq tendensiyası Qərbdən də hiss olunurdu. Burada söhbət konkret olaraq Rusiyadan gedir. Bu məsələ ilə bağlı Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarovanın müəyyən şərhləri də var idi. Yəni, o, Laçın yolunun açılması, guya blokadanın aradan qaldırılması ilə bağlı bəyanatlar səsləndirirdi. Bu kontekstdə Rusiyanın başqa qurumlarından da Azərbaycanın ünvanına ultimativ tərzdə müraciətlər, təhdidlər eşidilirdi. Birincisi, onlar sadəcə unudurdular ki, Azərbaycanın arxasında Türkiyə kimi NATO-nun üzvü olan nəhəng bir dövlət durub. İkincisi, həmin 2025-ci illə bağlı məsələdir ki, Azərbaycan təxminən iki ildən sonra Rusiyanın Qarabağımızda müvəqqəti yerləşdirilmiş sülhməramlı hərbi kontingenti ilə vidalaşmaq niyyətindədir. Bu məsələdə də Azərbaycan tək deyil və yenə qardaş Türkiyənin dəstəyini hiss edirik.

---

**İranın Ali Dini Liderinin müşaviri, ölkənin sabiq xarici işlər naziri Əli Əkbər Vilayətinin "Tasnim" nəşri üçün qələmə aldığı məqaləni Ermənistanın "news.am" saytı xüsusi seçdirmə ilə paylaşıb. Məqalənin ana dilimizdə icmalını qısa şərhlərlə oxucuların diqqətinə veririk.**

# Vilayəti yenidən nala-mıxa vurur

## Keçmiş nazirin, indiki müşavirin reallıqla bir araya sığmayan "siyasi gedişləri"



"Ukraynada müharibənin şiddətləndiyi indiki məqamda Türkiyənin guya Rusiyanın siyasi mövqeyinə yaxın daha bir tərzi müşahidə edirik. Son günlər Ankaranın İsveçin NATO-ya üzv qəbul olunması ilə razılaşdığını xəbər verirlər. O, həmçinin "Azov"çuların bir hissəsini Ukraynaya təhvil verib. Bu cür mövqe dəyişikliyinin fonunda son aylar Türkiyənin Azərbaycanla əlaqələri barədə məsələ gündəmə gətirilir ki, İran bunun əleyhinə çıxır. Skeptiklər deyirlər ki, əgər Azərbaycan Respublikası ilə Naxçıvan arasında əlaqələr bərpa olsa, bu halda Ermənistan ərazisinin xeyli hissəsini işğal etməyə (?) ehtiyac olmayacaq. Qazın nəqli, elektrik enerjisinin verilişi, tranzit marşrutlar və s. kimi obyektlər Ermənistanın suverenliyi pozulmadan asanlıqla əldə edilə bilər və bu tezis ölkələr arasında yayılmaqdadır", – yazan Vilayəti məqaləsində qeyd edir ki, Azərbaycan və Türkiyə hökumətlərinin İranla Ermənistan arasında gərginliyin artmasında nədən bu qədər maraqlı olduqları kənar müşahidəçiləri təəccübləndirdi. Müəllif türklərin "bəd niyyətinin" məqsədlərini də sıralayır:

"Amma onlar tədricən reallığı başa düşdülər. Ekspertlər anladılar ki, Naxçıvanı Azərbaycanla bağlayan geniş əlaqələrin arxasında pis niyyətlər dayanır: birincisi, Ermənistanı iki hissəyə bölmək, ikincisi, Əhəmənilər və Fars imperiyaları dövrünə gedib çıxan İran-Ermənistan əlaqələrini qırmaq, onları bir-birindən ayırmaq. Üçüncüsü isə bununla İranın xarici aləmlə təmaslarını məhdudlaşdırmaq. Yəni, həmin andan etibarən biz 15 deyil, 14 ölkənin qonşusu olacağıq. İİR-in Şimali Qafqaz, Rusiya və Avropa qitəsi ilə əlaqələri pozulacaq. Regional sərhədlərdə istənilən dəyişiklik uzunmüddətli gərginliyə səbəb olacaq. Bu zaman ən narahatedici amil sərhədboyu yad ölkələrin sayının çoxalmasıdır".

Maraqlı narahatlıqdır. Keçmiş xarici işlər naziri, dini liderin hazırki müşaviri hesab edir ki, İran, Çin və Rusiya Asiyada qüdrətli və sabit üçbucaq yaradıblar və dünyanın yeni xəritəsində arzuları həyata keçməyən ABŞ və Avropa Qərbi Asiyada əsas qüvvə kimi beynəlxalq hadisələrə təsir edə bilən İran amilini nəzərə almaya bilməzlər.

"Bu gün Rusiya və ABŞ arasında münasibətlər strateji cəhətdən də gərgindir və ata Corc Buşun söylədiyinin əksinə olaraq, gələcəkdə dünya çoxqütblü olacaq", – yazan Vilayəti Türkiyənin NATO ilə əlaqələrinin miqyası genişləndikcə, İranı əhatə edəcək bir zolağın meydana çıxması versiyasını irəli sürür. Bu kontekstdə Naxçıvana yolun açılmasını ticarətin və əməkdaşlığın inkişafına deyil, NATO-nun və onun bəzi üzvlərinin İranın şimalında və Rusiyanın cənubundakı bütün obyektlərdə daha ciddi və fəal iştirakına gətirib çıxaracağını iddia edən eks-diplomat hazırda Cənubi Qafqaz regionunun Avropa İttifaqının, Fransanın, ABŞ-ın, eləcə də İsrailin müdaxilə etdiyi, qeyri-qanuni yollarla və korrupsiyalarda iştirak etdiyi məkana çevrildiyini "acı təəssüflə" qeyd edir.

"Bizim rus dostlarımız çox ehtiyatlı olmalı və Qafqazda yol verdiyi hər hansı ehtiyatsız hərəkət regionu müxtəlif ölkələrin və bədniyyətli tərəfdaşların müdaxiləsinə bəhanə verər və onlar Rusiyanın və İİR-in maraqları üzərinə hücuma keçə bilərlər. Bu isə Cənubi Qafqaz kimi çox həssas bir bölgədə gərginliyi artırar, bütün regionun təhlükəsizliyini zərbə altında qoyar".

Təxəyyül məhsulu olan bu ehtimalları qəzetin səhifəsindən üfürən eks-nazirin sözlərinə görə, regionun NATO-ya daxil olmuş bəzi ölkələri alyansla əlaqələrini möhkəmləndirərək gələcəkdə Asiyada nəhəng gücə çevrilmiş "üçlük" ittifaqının Rusiya, İran və Çin üçün problemlər və maneələr yarada bilərlər. Bunun isə "üçlüy"ün liderlərinin strateji ehtiyatlılığı ilə üzləşəcəyinə əmin olan Əli Əkbər Vilayəti sonda yenə hayların əsas dayağı və təəssübkeşinin İran olduğunu yazmağı da unutmur.

Bu, həmin Vilayətidir ki, 2020-ci ilin oktyabrında, artıq Qarabağın taleyinin həll olunduğu Vətən müharibəsinin gedişində demişdi ki, BMT-nin Dağlıq Qarabağın işğaldan azad edilməsi haqqında 4 qətnaməsi var. "İran da BMT-nin üzvü kimi bu qərarların yerinə yetirilməsini istəyir", – deyən müşavir hətta diqqətə çatdırmışdı ki, münaqişə nəticəsində 1 milyon azərbaycanlı qaçqın və məcburi köçkün düşüb və Qarabağ azad edildikdən sonra onlar öz doğma yurdlarına qayıtmalıdırlar.

Amma 1995-ci ildə İranın xarici işlər naziri kimi Təbrizin iqtisadi cəhətdən geridə qalması ilə bağlı iclasda belə buyurmuşdu: "Biz niyə Azərbaycana (Güney Azərbaycan -red.) sərmayə qoymalıyıq? Azərbaycan əvvəl-axır İrandan ayrılacaq".

Əlbəttə, İİR-in sabiq xarici işlər nazirinin, hazırda Ali Dini Liderin müşavirinin ikiüzlülüyü göz önündədir. Onun fərdi düşüncələrinin məhsulu olan "politoloji mülahizələri" artıq bizim üçün elə bir əhəmiyyət kəsb eləmir.

**İ.HƏSƏNQALA, "Xalq qəzeti"**

---

# Bakı diplomatik qələbə seriyasını davam etdirir

## *Azərbaycan "anklav mübarizəsi"nin əsas mərhələsindən də qalib çıxdı*

**(əvvəli 1-ci səhifədə)**

### "Müqavimət təkcə faydasız deyil, həm də təsirsizdir"

Azərbaycanın anklavlar və Zəngəzur dəhlizinin açılması məsələsindəki israrçı mövqeyinin rəsmi Bakının qəti qələbəsi ilə yekunlaşacağı erməni mediası tərəfindən də etiraf olunmaqdadır. Məsələn, Ermənistanın "Qraparak" nəşri yazır ki, İrəvanın indiki halda Azərbaycanın gücü qarşısında müqavimət göstərməsi mümkün deyil. Məhz buna görə də proseslər rəsmi Bakının arzuladığı məcrada cərəyan edəcək: "Nikol Paşinyan hökumətin iclaslarında Azərbaycana qarşı cəsarətli mətnlər səsləndirsə də, hökumət nümayəndələri onun tapşırığı ilə qapalı görüşlərdə reallıqlardan danışırlar: Müqavimət təkcə faydasız deyil, həm də təsirsizdir. Azərbaycan istədiyini alacaq, Ermənistan isə müqavimət göstərərsə, itkiləri olacaq. Elə bu günlərdə hökumət nümayəndələri ekspertlərlə qapalı görüş keçirib və açıq, səmimi söhbət olub, lakin ictimaiyyətləşdirilməsi qadağan edilib".

Erməni mediası hesab edir ki, zəif Ermənistanın qüdrətli Azərbaycanla mübarizədə heç bir şansı yoxdur və bu, İrəvan üçün sadəcə yeni itkilər demək olacaq. Buna görə də erməni mediası vəziyyətdən mümkün qədər daha az itki ilə çıxmağı İrəvan üçün ən məqbul çıxış yolu olaraq görməkdədir.

### Sərhəd müzakirəsi: Hansı yeniliklər var?

Münasibətlərin nizamlanması prosesində diqqət çəkən məqamlardan biri də sərhədlərin delimitasiyası ilə bağlı müzakirələrin aktivləşməsidir. Xatırladaq ki, iyulun 12-də iki ölkə arasında sərhəddə Azərbaycan Respublikası Baş nazirinin müavini Şahin Mustafayevin və Ermənistan Respublikası Baş nazirinin müavini Mher Qriqoryanın sədrliyi altında sərhədlərin delimitasiyası üzrə komissiyaların dördüncü görüşü keçirildi. Müzakirələr zamanı sərhədlərin delimitasiyası ilə bağlı təşkilati və prosedur məsələlər müzakirə edilib, habelə növbəti görüşün vaxtı və yeri razılaşdırılıb.

Hələlik delimitasiya ilə bağlı siyasi proses yekunlaşmadığı üçün bu məsələ ilə bağlı yekun rəsmiləşdirmə gerçəkləşməyib. Bununla yanaşı, həm delimitasiya, həm də sərhədlərin təhlükəsizliyi ilə bağlı görüş və danışıqların intensivləşməsi, hər iki tərəfin bu məsələdə qərarlılıq sərgiləməsi ciddi uğur kimi dəyərləndirilə bilər. Çünki məhz bu intensivlik sərhədlərin delimitasiyası ilə bağlı yekun razılaşmanı şərtləndirəcək başlıca amildir.



### Parisin anti-sülh siyasəti regional təhlükədir

Anklavlar və delimitasiya məsələləri ilə bağlı prosesin yekunlaşmasını əngəlləyən əsas amillərdən biri Fransa və digər ermənipərəst qüvvələrin anti-sülh siyasətidir. Bu, rəsmi İrəvanı Azərbaycanla sülh müqaviləsi imzalamaqdan çəkindirən ən başlıca amildir. Fransa və digər təxribatçı qüvvələrin Ermənistanın təxribatlarına haqq qazandırması, onun hərbiləşdirilməsinə yardım göstərməsi İrəvanı sülhdən uzaqlaşdırır ki, bu da regionda vəziyyəti gərginləşdirir, sülh və təhlükəsizlik üçün yeni təhdidlər yaradır. Bu amil Azərbaycanla Ermənistan arasında uzun müddətdir ki, müzakirə mövzusu olan anklavlar və delimitasiya ilə bağlı məsələlərin həllinə də öz mənfi təsirini göstərir. Bununla yanaşı, bütün ermənipərəst qüvvələr bilməlidir ki, onların İrəvanı hansı səviyyədə dəstəkləməsindən asılı olmayaraq, Azərbaycan bölgədə sülhün və ədalətin bərqərar olmasını, qorunub saxlanılmasını təmin edəcək.

**Seymur ƏLİYEV**

# Canlanır hər şəhər, kənd Qarabağda...

**Ali Baş Komandan, ölkə Prezidenti İlham Əliyevin qətiyyəti və şanlı Azərbaycan Ordusunun qüdrəti sayəsində işğaldan azad olunmuş torpaqlarımızda həyat yenidən əvvəlki məcrasına qayıdır. Möhtəşəm tarixi Zəfərin sevincini yaşayan xalqımız artıq Ali Baş Komandan, ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə Qarabağ və Şərqi Zəngəzurun quruculuq salnaməsini yaradır. Düşmənin 30 il ərzində viran qoyduğu ərazilərimizin, daşı daş üstdə saxlamadığı yurd yerlərinin bərpası sürətlə davam etdirilir.**



Azərbaycan dövlətinin müəyyənləşdirdiyi bərpa və quruculuq missiyasının uğurla yerinə yetirilməsi üçün bütün imkanlar səfərbər olunub. Ötən müddətdə işğaldan azad olunmuş ərazilərimizdə insanların rahat və firavan yaşayışın təməlinin qoyulması üçün mühüm infrastruktur layihələri icra olunub. Sevindirici haldır ki, Azərbaycan bütün bu işləri təkbaşına, heç bir ölkədən və beynəlxalq maliyyə qurumundan yardım istəmədən, öz gücü ilə həyata keçirir. Yeri gəlmişkən, Qarabağ və Şərqi Zəngəzur regionunun bərpa və yenidənqurma işləri üçün dövlət büdcəsindən 2021-ci ildə 2,2 milyard, 2022-ci ildə 2,7 milyard manat vəsait ayrılıb. Bu ilin büdcəsində isə işğaldan azad olunmuş ərazilərin bərpası üçün ötən illə müqayisədə 13 faiz çox, yəni 3 milyard manat nəzərdə tutulub. Artıq həmin vəsaitin 60 faizi istifadə olunub. Bu da Qarabağ və Şərqi Zəngəzurun bərpası və yenidən qurulması ilə bağlı işlərin sürətlə həyata keçirilməsinə dəlalət edir. Bununla belə, Azərbaycanın maliyyə imkanlarının artması ilə əlaqədar olaraq dövlət büdcəsinə yenidən baxılaraq onun xərclər hissəsi 3 milyard manat artırılıb. Həmin vəsaitin 1,8 milyard manatı isə Qarabağın və Şərqi Zəngəzurun bərpasına ayrılıb. Bir sözlə, illərlə əsl sahibinə həsrət qalan torpaqlarımızda infrastruktur yenilənir, dədə-baba yurdlarına qayıdacaq soydaşlarımızın rahat yaşaması, işlə təmin olunması, onların təhlükəsizliyi və istirahəti üçün hər cür şərait yaradılır.

İyulun 11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2023-cü ilin altı ayının sosial-iqtisadi yekunlarına həsr olunmuş müşavirədəki çıxışında deyib: "Əlbəttə ki, biz bu sahədə görüləcək işləri daim diqqət mərkəzində saxlamalıyıq. Deyə bilərəm ki, mənim gündəlik fəaliyyətimdə bu məsələ bu gün birinci yerdə dayanan məsələdir və biz daim bütün işlərə nəzarət edirik. Hökumət üzvləri və digər rəsmi şəxslər müntəzəm olaraq azad edilmiş bölgələrə ezam olunurlar. Biz hər şeyi planlı şəkildə edirik, orada ən yüksək standartlar tətbiq edilir və edilməlidir. Bütövlükdə, nəzərdə tutulmuş investisiya proqramı əsasında bu ilin sonuna qədər Qarabağ və Şərqi Zəngəzura biz təqribən 12 milyard manata qədər vəsaitin xərclənməsini təmin edəcəyik. Onu da bildirməliyəm ki, görülən bütün işlər Azərbaycan hesabına həyata keçirilir".

Azərbaycan dövlətinin həyata keçirdiyi məqsədyönlü fəaliyyət, xüsusən də dövlət başçısının təsdiq etdiyi "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nda nəzərdə tutulmuş tədbirlərin uğurla yerinə yetirilməsi nəticəsində qədim və əzəli yurd yerlərimiz öz həqiqi sahiblərinə qovuşur. Xatırladaq ki, sözügedən proqramın icrasının birinci mərhələsində işğaldan azad olunmuş ərazilərdə 100 yaşayış məntəqəsinin yenidən qurulması nəzərdə tutulur. Qarabağ və Şərqi Zəngəzurda məskunlaşmanın təmin olunmasını xüsusi nəzarətdə saxlayan Prezident İlham Əliyev ötən müddətdə 8 şəhər, 22 qəsəbə və kəndin təməlini qoyub. Məlum müşavirədəki çıxışında bu məqama xüsusi toxunan dövlət başçısının qeyd etdiyi kimi, artıq bu il Talış kəndinə və Laçın şəhərinə keçmiş məcburi köçkünlərin qayıtması təmin olunub. İlin sonuna qədər isə Laçın şəhərinin Zabux və Sus kəndlərinə də keçmiş məcburi köçkünlər qayıdacaqlar. Qayıdış proqramının ardıcıllıqla icra olunduğunu vurğulayan ölkə rəhbəri ilin sonuna qədər bir şəhər və dörd kənddə vətəndaşların öz dədə-baba torpaqlarında məskunlaşacaqlarını bildirib. Ölkə Prezidenti Laçın şəhərinin timsalında görülən işləri, cəmi səkkiz ay ərzində şəhərin böyük hissəsinin tamamilə bərpa olunduğunu təqdirəlayiq hal adlandırıb. Artıq Laçında 700-dən çox ailə üçün həm fərdi, həm çoxmənzilli evlər inşa olunduğunu bildirən dövlət başçısı şəhərin gələcək inkişaf planı ilə bağlı əlavə addımlar atılacağını diqqətə çatdırıb.

Yeri gəlmişkən, Qarabağ və Şərqi Zəngəzurda aparılan bərpa-quruculuq işlərində Heydər Əliyev Fondu da yaxından iştirak edir. Təkcə onu qeyd etmək kifayətdir ki, hazırda fond tərəfindən 10-dan çox məscid inşa edilir və ya əsaslı şəkildə bərpa olunur.

**Mirbağır YAQUBZADƏ,**
**"Xalq qəzeti"**

## Ekspert rəyi

**Təbriz YADİGAROV,**
**Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutunun aparıcı elmi işçisi, dosent**



Azərbaycanda həyata keçirilən uğurlu iqtisadi və sosial islahatların əsas istiqaməti qeyri-neft sektorunun inkişafına, Qarabağın və Şərqi Zəngəzurun bərpasına, eləcə də nəqliyyat dəhlizləri layihələrinin reallaşdırılmasına yönəldilib.

Yeri gəlmişkən, 2023-cü ilin 6 ayının sosial-iqtisadi yekunlarına həsr olunmuş müşavirədə Prezident İlham Əliyev dövlət büdcəmizin artaraq 36 miyard manatdan çox olması hesabına potensial imkanlarımızın genişlənməsinə şərait yarandığını bildirib. Ölkə başçısının rəhbərliyi altında uğurla davam edən investisiya layihələrinin icrası və azad edilmiş torpaqlarda genişmiqyaslı quruculuq işlərinin davam etdirilməsi bunu bir daha sübut edir. Əsas istiqamətlərdən biri kimi Qarabağ və Şərqi Zəngəzurun bərpasına yönəldiləcək vəsaitlər gələcəkdə həmin ərazilərdə yerləşən faydalı qazıntı yataqlarından istifadə edilməsinə şərait yardacaq. İşğaldan azad olunmuş ərazilərimizin zəngin iqtisadi potensialının reallaşmasında nəqliyyat infrastrukturunun bərpası, yaranan nəqliyyat habı, o cümlədən Şərqi Zəngəzur dəhlizinin açılması mühüm rol oynayacaq.

Qeyd edək ki, ölkəmizdə yaranan nəqliyyat habı hesabına Azərbaycan Asiyanı Avropa ilə birləşdirən mühüm əhəmiyyətli Şimal-Cənub və Şərq-Qərb nəqliyyat dəhlizləri hesabına qitələrarası daşınmaların həyata keçirilməsində mühüm rol oynayır. Qarabağın nəqliyyat infrastrukturunun yenidən qurulmasında mühüm regional əhəmiyyət daşıyan Zəngəzur dəhlizinin açılması, beynəlxalq hava limanlarının inşası, Bərdə-Ağdam, Yevlax-Xankəndi, Horadiz-Füzuli-Şusa dəmiryol xəttinin tikintisi, Əhmədbəyli-Füzuli-Şuşa, Tərtər-Suğovuşan-Talış, Talış-Naftalan, Göy Göl-Kəlbəcər və Horadiz-Zəngilan-Qubadlı-Laçın avtomobil yollarının çəkilməsi daxildir. Region ölkələrinin və ümumilikdə, Avropa və Asiyanın əksər dövlətlərinin maraq dairəsində olan Zəngəzur dəhlizinin açılması isə bu baxımdan xüsusi əhəmiyyət daşıyır. Naxçıvanla ölkəmizin qalan hissəsi arasında quru yolunun açılması ilə yaradılacaq yeni nəqliyyat dəhlizi Azərbaycan üzərindən beynəlxalq tranzit yükdaşımalarını artırmaqla yanaşı, respublikamızın regionda mövqeyini daha da gücləndirəcək.

## 6 ayda 34,7 milyard manatlıq sənaye məhsulu istehsal edilib

**Sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən 2023-cü ilin yanvar-iyun aylarında 34,7 milyard manatlıq sənaye məhsulu istehsal edilib.**



Dövlət Statistika Komitəsindən bildirilib ki, neft-qaz sektorunda məhsul istehsalı 2,3 faiz azalıb, qeyri neft-qaz sektorunda isə 6,5 faiz artıb. Sənaye məhsulunun 69,5 faizi mədənçıxarma sektorunda, 25,3 faizi emal sektorunda, 4,4 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda, 0,8 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda istehsal olunub. Mədənçıxarma sektorunda əmtəəlik neft hasilatı 7,7 faiz azalıb, əmtəəlik qaz hasilatı isə 3,2 faiz artıb.

Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda istehsalın həcmi 3,6 faiz, su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda isə 17 faiz artıb.

## Aqrar Sığorta Fondu zərərdən mənfəətə keçib

**Aqrar Sığorta Fondu 2022-ci ili 2 milyard 586 milyon manat xalis mənfəətlə başa vurub. Qurum 2021-ci ili 1 milyard 308 milyon manat xalis zərərlə başa vurmuşdu.**




Bu il yanvarın 1-nə fondun aktivləri 22 milyard 95 milyon manat olub ki, bu da illik müqayisədə 35,5 faiz çoxdur. Hesabat dövründə fondun öhdəlikləri 31,8 faiz artaraq 13 milyard 275 milyon manata, balans kapitalı isə 41,5 faiz artaraq 8 milyard 82 milyon manata çatıb.

Xatırladaq ki, Aqrar Sığorta Fondu ölkə Prezidentinin 19 avqust 2019-cu il tarixli fərmanına əsasən yaradılıb. Qurumun nizamnamə kapitalı 9 milyon manatdır.

**"Xalq qəzeti"**

# "Abşeron" yatağının istismara verilməsi ölkənin neft-qaz sənayesində önəmli hadisə oldu



**Prezident İlham Əliyevin sədrliyi ilə 2023-cü ilin altı ayının sosial-iqtisadi yekunlarına həsr olunmuş müşavirədə dövlətimizin başçısı çıxış edərək bu barədə deyib: "Bir məsələni də qeyd etməliyəm. Bu da bu günlərdə "Abşeron" qaz-kondensat yatağından çıxarılan ilkin qazın əhəmiyyəti ilə bağlıdır. Bu, doğrudan da çox əhəmiyyətli hadisədir. Çünki bu günə qədər bizim ixracla bağlı əsas qaz resursumuz "Şahdəniz" qaz-kondensat yatağı idi. Bu gün bizim artıq iki böyük qaz-kondensat yatağımız var. "Abşeron" qaz yatağı ilə bağlı bizim ümidlərimiz böyük idi. Bilirdik ki, "Abşeron" qaz-kondensat yatağı böyük ehtiyatları özündə ehtiva edir. Bir neçə gün bundan əvvəl mənə məlumat verildi ki, ilkin qaz hasil edildi, debitlər də çox yaxşıdır".**

Dövlətimizin başçısı çıxışında daha sonra, "Abşeron"un birinci fazasının artıq icra edildiyini və yəqin ki, SOCAR öz xarici tərəfdaşları ilə bu yatağın ikinci fazasının işlənməsi ilə bağlı tezliklə daha fəal danışıqlara başlayacağını vurğulayıb.

Xatırladaq ki, ölkəmizin qaz ehtiyatlarının həcminə görə, ikinci böyük yatağı olan "Abşeron"dan hasilatın başlanması ilə ixracın artırılmasına müsbət təsir göstərəcəyi proqnozlaşdırılıb. İyulun 10-da Fransanın "TotalEnergies" şirkəti Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) ilə əməkdaşlıq çərçivəsində Xəzər dənizində yerləşən "Abşeron" qaz-kondensat yatağının işlənməsinin birinci mərhələsi çərçivəsində təbii qaz hasilatına başlandığını elan edib.

Azərbaycan Dövlət Neft Şirkətindən (SOCAR) verilən məlumata görə, Xəzər dənizinin Azərbaycan sektorunda, Bakıdan təxminən 100 kilometr cənub-şərqdə yerləşən "Abşeron" qaz-kondensat yatağının işlənməsinin İlkin Hasilat Sxemi (İHS) mərhələsi sualtı hasilat quyusunu SOCAR-ın "Neft Daşları"ndakı mövcud qurğuları ilə əlaqəli yeni qaz emalı platformasına birləşdirir. İHS mərhələsinin hasilat gücü gündəlik 4 milyon kubmetr qaz və 12 min barel kondensat təşkil edir. Qazın Azərbaycanın daxili bazarına satılacağı nəzərdə tutulur.

JOCAP ("Absheron Petroleum" Birgə Əməliyyat Şirkəti) tərəfindən idarə olunan layihədə SOCAR və "TotalEnergies" hər biri 50 faiz paya malikdir. Xəzər dənizinin ilk məsafədən idarə olunan platforması olan Abşeron İHS layihəsinin qəbul platformasının idarəetməsi "Neft Daşları"nda yerləşən mərkəzi idarəetmə məntəqəsindən həyata keçirilir.

Xatırladaq ki, "Abşeron" yatağının işlənməsi üzrə hasilatın pay bölgüsü sazişi 12 il əvvəl imzalanıb. Ötən zaman ərzində yataqdan hasilatın başlanması müddəti dəfələrlə ertələnib. Nəhayət ki, 12 ildən sonra yataqdan ilk qazın alınmasına başlanıb.

"Abşeron" yatağından hasil olunan qaz daxili tələbata yönəldiləcək. Bu isə "Şahdəniz"dən çıxarılan qazın daha çox həcminin ixraca yönəldilməsinə imkan yaradacaq. Yəni Azərbaycan bununla da Avropadakı müştərilərə vəd etdiyi həcmləri təmin etməklə üzərinə götürdüyü öhdəlikləri gerçəkləşdirəcək.

Prezident İlham Əliyev çıxışlarının birində bu barədə deyib: "Bu yataqda 350-360 milyard kubmetr qaz ehtiyatları vardır. Amma mən hesab edirəm ki, daha çox olacaq. Çünki artıq bizdə olan təcrübə onu göstərir ki, ehtimal olunan resurslardan daha böyük resurslar üzə çıxır və 100 milyon ton kondensat. Bu da xam neftə bərabər olan bir məhsuldur və beləliklə, Azərbaycan bundan sonra da etibarlı qaz təchizatçısı olacaqdır. Onu da bildirməliyəm ki, "Abşeron"un birinci mərhələsində çıxarılacaq qaz daxili tələbatlara istiqamətləndiriləcək. Çünki buna da ehtiyac var. Artan əhali, artan sənaye bunu tələb edir. İkinci mərhələdə çıxarılacaq qaz isə ixrac yolu ilə dünya bazarlarına çıxarılacaq. Çünki artıq bu yatağın tam işlənməsi mərhələli yollarla öz həllini tapacaq".

Bu məqamda onu da qeyd edək ki, artıq Azərbaycanda "Şahdəniz"lə bərabər iki böyük qaz-kondensat yatağı fəaliyyət göstərir. Halbuki vaxtilə buna şübhə ilə yanaşanlar vardı. Vaxtilə "Azəri", "Çıraq", "Günəşli" yataqlarında da neftin az olması iddia edilirdi. Hazırda 300 milyard kubmetrdən artıq ehtiyata malik "Abşeron" yatağının istismara verilməsi ölkəmizin zəngin enerji potensialına malik olduğunu təsdiqlədi. Dövlətimizin başçısının cari ilin altı ayının sosial-iqtisadi yekunlarına həsr olunmuş müşavirədə dediyi sözlər də bu baxımdan diqqət çəkdi: "Biz gözləyirdik ki, kəşfiyyat olacaq, amma sözün düzü, bu qədər gözəl nəticələri gözləmirdik. Bu, çox gözəl bir xoş xəbər oldu və Azərbaycanın enerji potensialına kölgə salmağa çalışan bəzi dırnaqarası ekspertlərə də çox yaxşı, tutarlı cavab olmuşdur. Ona görə bundan sonra bizim qaz ixrac planlarımız daha tez bir zamanda və daha böyük həcmdə təmin ediləcək".

Yeri gəlmişkən, Fansanın "TotalEnergies" neft-qaz nəhəngi də Azərbaycanın SOCAR şirkəti ilə birgə işlədiyi "Abşeron" yatağında qaz hasilatına başladığını elan edib. Bununla bağlı "Le Figaro" qəzetində "TotalEnergies" şirkətinin məlumatına istinadla məqalə dərc olunub.

Məqalədə bildirilir ki, qaz-kondensat yatağının işlənməsinin birinci mərhələsində gündəlik 4 milyon kubmetr qaz və 12 min barel kondensat hasil ediləcək. Vurğulanır ki, 2016-cı ildə SOCAR və "TotalEnergies" arasında saziş imzalanarkən yatağın gücü kondensatın əhəmiyyətli hissəsi də daxil olmaqla, sutkada təxminən 35 min barel neft ekvivalentində qiymətləndirilirdi. Şirkətlərin hər biri layihədə 50 faiz paya malikdir.

Fransa şirkətinin kəşfiyyat-hasilat üzrə baş meneceri Nikolas Terraz bildirib ki, bu layihə şirkətin qaza artan tələbatı ödəmək strategiyasının bir hissəsidir və SOCAR ilə tərəfdaşlığı daha da gücləndirir.

Sonda onu da xatırladaq ki, "Abşeron" qaz yatağı 1960-1970-ci illərdə kəşf edilsə də, hasilata artıq indi başlanılır. JOCAP ("Absheron Petroleum" Birgə Əməliyyat Şirkəti) tərəfindən idarə olunan layihədə SOCAR və "TotalEnergies" hər biri 50 faiz paya malikdir.

Azərbaycanın təsdiq olunan qaz ehtiyatları 2,2 trilyon kubmetrdir. Bu göstəriciyə "Abşeron" yatağının ehtiyatı da daxildir. Hazırda illik qaz ixracı 21 milyard kubmetr təşkil edir. Yaxın 5 il ərzində Azərbaycan indiki 21 milyard kubmetr qaz ixracını 30-31 milyard kubmetrə qədər artırmağı planlaşdırır. Avropaya qaz ixracının isə 11 milyarddan 20 milyard kubmetrədək yüksəldilməsi proqnozlaşdırılır.

**Vaqif BAYRAMOV,**
**"Xalq qəzeti"**

Konstitusiya Məhkəməsi – 25

# Ölkə Konstitusiyasının və qanunların aliliyinin keşiyində



**Bu günlərdə Azərbaycan Respublikasında ali konstitusiya ədalət mühakiməsi orqanının – Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin fəaliyyətə başlamasının 25 illiyi tamam olur. Bu tarixin Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin anadan olmasının 100 illiyik yubileyi ilinə təsadüf etməsi Konstitusiya Məhkəməsi üçün olduqca əlamətdardır.**

***Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev bu münasibətlə ölkə mediasında çıxışında bildirib ki, müasir Azərbaycan dövlətinin memarı Heydər Əliyevin 30 il öncə ölkənin siyasi rəhbərliyinə qayıdışından sonra bütün sahələrdə sabitliyin təmin olunması genişmiqyaslı islahatların həyata keçirilməsinə əlverişli şərait yaratdı:***

– Həyata keçirilən islahatlar çərçivəsində ən mühüm hadisələrdən biri də 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi - referendum yolu ilə müstəqil Azərbaycanın ilk Konstitusiyasının qəbul edilməsi oldu. Ölkəmizdə müasir məhkəmə-hüquq sisteminin bərqərar edilməsi məhz Ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. 1995-ci il Konstitusiyasının dövlət və hüquq sisteminə gətirdiyi əsas yeniliklərdən biri də demokratik hüquqi dövlətin təməl daşlarından biri hesab olunan müstəqil məhkəmə hakimiyyətinin yaradılması oldu.

Dövlətimizin Əsas Qanunu qəbul edildikdən sonra 1998-ci ildə konstitusiya nəzarəti orqanı olan Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi fəaliyyətə başladı. Belə ki, 1997-ci il oktyabrın 21-də "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmiş, 1998-ci il iyulun 14-də Azərbaycan Respublikası Milli Məclisinin Qərarı ilə Konstitusiya Məhkəməsi hakimlərinin təyin edilməsi ilə və həmin ilin iyulun 18-də Ulu öndər Heydər Əliyevin Konstitusiya Məhkəməsinin müstəqilliyini və hakimlərinin hüquqi statusunu təmin etmək məqsədi ilə imzaladığı fərmanla Konstitusiya Məhkəməsi rəsmi olaraq fəaliyyətə başlamış oldu.

Konstitusiya Məhkəməsinin yaradıcısı olaraq bu təsisatın əsas vəzifələrindən birini Konstitusiyada təsbit edilmiş insan hüquq və azadlıqlarının qorunmasında görən Ulu öndər Heydər Əliyev Konstitusiya Məhkəməsinin yaradılmasının beşinci ildönümü münasibətilə müraciətində qeyd etmişdir: "Konstitusiya Məhkəməsinin insan hüquqlarının müdafiəsi sahəsində mühüm beynəlxalq sənədlərə əsaslanaraq qəbul etdiyi qərarlar insanların siyasi, iqtisadi, sosial və digər hüquq və azadlıqlarının təmin edilməsinə, dövlətin hüquqi bünövrəsinin möhkəmləndirilməsinə, gələcək nəsillər üçün zəngin hüquqi irsin formalaşmasına xidmət edir".

***Konstitusiya Məhkəməsinin Ulu öndərin bu sözlərini hər zaman rəhbər tutduğunu və üzərinə qoyulan bu vacib missiyanın öhdəsindən gəlməyə çalışdığını vurğulayan Fərhad Abdullayev qeydn edib ki, səlahiyyətlərinə aid edilmiş məsələlərə dair ali konstitusiya ədalət mühakiməsi orqanı olan bu qurumun əsas məqsədləri əsas qanunun aliliyini təmin etmək, hər kəsin əsas hüquq və azadlıqlarını müdafiə etməkdir:***

–Məhkəmənin əsas səlahiyyətləri Konstitusiyanın 130-cu maddəsində öz əksini tapmışdır. Belə ki, qanunvericilik və icra hakimiyyəti orqanlarının normativ aktlarının, bələdiyyə və məhkəmə aktlarının Konstitusiyaya və hüquqi qüvvəsinə görə daha üstün olan aktlara uyğunluğunun yoxlanılması Konstitusiya Məhkəməsinin əsas səlahiyyətlərindən biridir. Bu səlahiyyəti vasitəsilə Konstitusiya Məhkəməsi Konstitusiyanın və qanunların aliliyini təmin edir. Məhkəmə tərəfindən yoxlanılan norma məhz Əsas Qanunun hərfinə və ruhuna, o cümlədən onun təməl prinsiplərinə uyğunluğu baxımından qiymətləndirilir.

Konstitusiya Məhkəməsinin digər mühüm səlahiyyəti Konstitusiyanın və qanunların şərhidir. Konstitusiya Məhkəməsi tərəfindən verilən şərhin əsas məqsədi Konstitusiya və qanunların müvafiq müddəalarının başa düşülməsində qeyri-müəyyənliyin aradan qaldırılması, eyni zamanda bu müddəaların həqiqi mənasını və məzmununu müəyyən etmək və bununla da, onların vahid tətbiqi qaydasını müəyyən etməkdir. Konstitusiya Məhkəməsi bu səlahiyyətini müvafiq hüquq subyektlərinin sorğuları və məhkəmələrin müraciətləri əsasında həyata keçirir.

Konstitusiya Məhkəməsi digər məhkəmələrlə qarşılıqlı əməkdaşlıq münasibətlərinin inkişaf etdirilməsinə hər zaman böyük diqqət yetirir. Konstitusiya Məhkəməsinin Plenumu tərəfindən qəbul edilmiş qərarlar sırasında məhkəmələrin müraciətləri əsasında Konstitusiya və qanunların şərhinə dair çıxarılmış qərarlar xüsusi çəkiyə malikdir.

Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi ölkəmizin hərtərəfli tərəqqinə, cəmiyyətdəki ümumi yüksəlişə uyğun olaraq, müəllifi Ulu öndər Heydər Əliyev olan Əsas qanunun müdafiəsi, müstəqil dövlətimizin möhkəmlənməsi, qanunçuluğun qorunması istiqamətində Prezident İlham Əliyevin həyata keçirdiyi çoxşaxəli və mütərəqqi fəaliyyətinə dəstək olaraq, üzərinə düşən məsuliyyətli vəzifələri bundan sonra da layiqincə yerinə yetirməyə çalışacaq.

***"Xalq qəzeti"***

# Çağdaş tariximizdə dönüş günü



**Nəsimi rayonunda Ulu öndər Heydər Əliyevin Azərbaycanda birinci dəfə siyasi hakimiyyətə gəlişi ilə bağlı "14 iyul 1969-cu il: Müstəqil və qüdrətli Azərbaycanın təməlinin qoyulduğu gün" mövzusunda müşavirə keçirilib.**

Əvvəlcə Ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətindən bəhs edən videoçarx nümayiş olunub.

Nəsimi rayon İcra Hakimiyyətinin başçısı Asif Əsgərov bildirib ki, milli təqvimimizdə ulu öndər Heydər Əliyevin adı ilə bağlı şanlı və unudulmaz günlərdən biri də 14 iyuldur. 1969-cu il 14 iyulunda respublikanın məsul rəhbərlərindən biri olan Heydər Əliyev öz ölkəsinin ali şəxsi postuna seçilib. Bu yurdsevər, təşəbbüskar və yüksək enerjili insanın Azərbaycana rəhbərliyə başlaması xalqımızın tarixində əhəmiyyətli dönüşün, ölkəmizin sürətli və yüksək inkişafının başlanğıcı olub.

Qeyd olunub ki, həmin illər tariximizə hərtərəfli tərəqqi, milli intibah dövrü kimi yazılıb, o dövrdə gələcək müstəqilliyin zəruri əsasları yaradılıb. Ulu öndər Heydər Əliyevin hakimiyyətinin birinci dövründə yaradılmış iqtisadi potensial müstəqillik illərində Azərbaycanın yeni tələbatı üçün çox əhəmiyyətli rol oynayıb.

Sovet imperiyası çökəndən sonra müstəqil Azərbaycan dövlətinin qurucusu olmaq missiyasını da ümummilli lider Heydər Əliyev gerçəkləşdirib. Ulu öndərin həyata həyata keçirdiyi alternativi olmayan siyasəti onun ən layiqli davamçısı Prezident İlham Əliyev 20 ildir ki. uğurla davam etdrir. Birinci vitse-prezident Mehriban Əliyeva geniş və səmərəli fəaliyyəti ilə bu mükəmməl və məqsədyönlü siyasətə önəmli dəstək qazandırır. Hüydər Əliyevin ideya və əməlləri Azərbaycanı xoş sabahlara aparır.

***R.TAHİR, "Xalq qəzeti"***

# Beynəlxalq antikorrupsiya mübarizəsinə Azərbaycanın növbəti töhfəsi

**Dünən Azərbaycan tərəfinin təşəbbüsü ilə IAACA tərəfindən EPAC/EACN (Korrupsiyaya qarşı Avropa Tərəfdaşları / Korrupsiyaya qarşı Avropa Əlaqələndiricilər Şəbəkəsi) ilə birgə "Sərhədsiz korrupsiya: onunla mübarizədə əməkdaşlıq" mövzusunda beynəlxalq vebinar keçirilib.**






Bildirilib ki, 60 ölkədən 850-ə yaxın nümayəndənin qeydiyyatdan keçdiyi tədbirdə Avropa, Asiya, Amerika və Afrika qitələrinin müstəqil antikorrupsiya qurumlarının, prokurorluq, istintaq xidmətlərinin, ədliyyə, daxili işlər nazirliklərinin, ombudsman ofislərinin və digər aidiyyəti qurumların məsul şəxsləri, Avropa İttifaqı, Avropol və digər beynəlxalq təşkilatların təmsilçiləri iştirak ediblər.

Vebinarın açılışında IAACA-nın vitse-prezidenti, Azərbaycanın ədliyyə naziri Fikrət Məmmədov, EPAC/EACN-ın vitse-prezidentinin müavini Trayan Barlici, Litvanın Xüsusi İstintaq Xidmətinin direktor müavini Eqidiyus Radzaviçyus və IAACA-nın Baş katibi Kennet Vonq çıxış ediblər.

Nazir F.Məmmədov ölkəmizdə Prezident İlham Əliyevin rəhbərliyi ilə korrupsiyaya qarşı mübarizəyə dair kompleks tədbirlərin görüldüyünü, bu sahədə fəal beynəlxalq əməkdaşlığın həyata keçirildiyini vurğulayaraq 2006-cı ildən fəaliyyət göstərən assosiasiyanın işinə dəyərli töhfələr verildiyini bildirib.

Nazir IAACA-nın işinə dünyada ilk antikorrupsiya qurumlarından olan Honkonqun Korrupsiyaya qarşı mübarizə üzrə Müstəqil Komissiyasının dəstəyini qeyd edib. Həmçinin Avropa məkanında korrupsiyaya qarşı mübarizədə məlumat və təcrübə mübadiləsinin aparılmasını təşviq edən EPAC/EACN-ın, habelə Şərqi Avropa regionunda ilk belə qurumlardan olan Litvanın Xüsusi İstintaq Xidmətinin (STT) fəaliyyətinə toxunaraq ölkəmizin bu mühüm təşkilatlarla səmərəli əməkdaşlığını vurğulayıb.

Sonra ekspertlər antikorrupsiya treninqlərinin keçirilməsi təcrübəsi və bu sahədə birgə fəaliyyət, korrupsiyaya qarşı işlər üzrə beynəlxalq əməkdaşlıq, qlobal antikorrupsiya təcrübəsinin bölüşülməsi və ikitərəfli layihələrin həyata keçirilməsinə dair mövzular üzrə ətraflı təqdimatlarla çıxışlar ediblər.

***Qəzənfər QASIMOV, "Xalq qəzeti"***

Böyük Qayıdış davam edir

# 23 laçınlı ailə də doğma yurda qayıtdı





**Dünən Qaradağ rayonundakı "Qobu park -3" yaşayış kompleksindən 85 nəfərdən ibarət 23 ailə doğma yurdu Laçına köç edib.**

Yolasalınma mərasimində Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin, Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçın rayonunda Azərbaycan Prezidentinin xüsusi nümayəndəliyinin və Laçın Rayon İcra Hakimiyyətinin rəsmiləri iştirak ediblər.

Səhər saatlarında başlanan yolasalma mərasimində müxtəlif media qurumlarının nümayəndələri, yaşayış kompleksinin digər sakinləri də qatılmışdılar. Bütün bu qələbəlikdə Laçına köçənlərin kimlər olduğunu başa düşmək elə də çətin deyildi. Simalarındakı sevinc və fərəh, həyəcan onları digərlərindən fərqləndirirdi.

Qarabağ müharibəsinin bütün ağrı-acılarını yaşayan, öz doğma torpaqlarından didərgin düşən və nəhayət yurd həsrəti sona çatan bu insanların ürək sözlərini dinlədik.

**İlk həmsöhbətimiz Laçın sakini Bəxtiyar Şirinov oldu. O, bu sevinci keçmiş köçkünlərə yaşadanlara minnətdarlıq etdi:**

–Bu gün doğma torpaqlarımıza dönüksə, buna görə Ali Baş Komandanımıza, şəhidlərimizin ruhuna və qazilərimizə borcluyuq. Şəhidlərimizə Allahdan rəhmət, qazilərimizə cansağlığı diləyirəm. Biz o torpaqlarda gəzdikcə Vətən uğrunda döyüşənləri daim xatırlayacağıq. Onlar təkcə doğma torpaqlarımızı deyil, qürurumuzu da bizə qaytardılar.

**Bahar Həsənova isə yaşadığı hissləri dilə gətirməkdə çətinlik çəkdiyini dedi:**

– Bu gün ömrümdə tam fərqli hisslər yaşayıram. Baxın, barxanalarımız yığılır, maşın karvanımız yola çıxmağa hazırlaşır. Əminəm ki, Laçına yaxınlaşanda həyəcan dolu hisslərimiz daha da güclənəcək. Bu barədə düşündükcə həyəcanlanıram. Otuz ildən sonra doğma el-obama geri dönərkən keçirdiyim hissləri sözlərlə ifadə edə bilmirəm.

**Digər sakin Elmira Cəfərova uzun illərdir bu günün arzusunda olduğunu vurğuladı:**

– Şükürlər olsun Allahın bugünkü gününə ki, doğma elimizə geri dönürük. Bu günü çox arzulayırdıq, arzumuza çatdıq.

**Atamoğlan Quliyevlə söhbətimiz zamanı o, böyük qayıdış işlərində əməyi keçən hər kəsə təşəkkür etdi:**

– Mən ordan çıxanda oğlumun 5 yaşı var idi, indi nəvəm 6 yaşındadır. Bu müddət ərzində hər gün yurd həsrəti çəkmişik. Şükürlər olsun qovuşdurana. Bu işin təşkilində, orda quruculuq işlərində, bizim evlərimizin təmirində əziyyəti keçən hər kəsə minnətdaram. Hər şey çox yüksək səviyyədə təşkil edilib.





Qeyd edək ki, doğma torpaqlarına köçürülən ailələr, Laçın şəhərində vaxtilə yaşadıqları, işğala son qoyulduqdan sonra Prezident İlham Əliyevin göstərişi əsasında bərpa edilən və ya yenidən tikilən evlərdə məskunlaşacaqlar.

Son bir neçə ay ərzində Laçın şəhərinə 5 köç yola düşüb və 93 ailədən ibarət 351 nəfərin daimi məskunlaşması təmin edilib. İnşallah, yurd həsrəti çəkən bütün soydaşlarımız doğma ocaqlarına qayıdarlar. Dövlətimiz, hökumətimiz bundan ötrü məqsədyönlü addımlar atır.

***Rüfət MƏHƏRRƏMOV***

# AMEA-da işgüzar müzakirələr



**Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyətinin növbəti iclası keçirilib. Toplantını giriş sözü ilə açan akademik İsa Həbibbəyli gündəlik barədə məlumat verib.**

Sonra Əməkdar elm xadimi, filologiya elmləri doktoru, professor Qəzənfər Paşayev "Azərbaycanda İraq-türkman araşdırmaları: yekunlar və vəzifələr" mövzusunda məruzə ilə çıxış edib. Akademik İsa Həbibbəyli qeyd edib ki, İraqda yaşayan türkmanlarla elmi əlaqələrin qurulması akademiyanın yaxın perspektivdə qarşısında duran hədəflərdəndir və AMEA bu istiqamətdə üzərinə düşən vəzifələri məsuliyyətlə və layiqincə yerinə yetirəcəkdir. AMEA Rəyasət Heyətinin qərarı ilə yeni yaradılan İraq-Türkman Araşdırmaları üzrə Əlaqələndirmə Şurasının tərkibi təsdiqlənib. Şuranın sədrliyinə akademik Teymur Kərimli, sədr müavinliyinə professor Qəzənfər Paşayev, üzvlüyünə isə tanınmış türkoloq alimlər təsdiq olunublar.

İclasda müzakirəyə çıxarılan növbəti məsələ Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyi ilə əlaqədar AMEA-nın nəşrləri haqqında olub. AMEA-nın həyatındakı yeniliklər və qarşıda duran vəzifələr də diqqət mərkəzində olub. Akademiklər Arif Həşimov, Rasim Əliquliyev, İradə Hüseynova, Gövhər Baxşəliyeva, İsmayıl Hacıyev, Fuad Əliyev, fizika-riyaziyyat üzrə fəlsəfə doktoru Yusif Şükürlü, tarix elmləri doktoru Zemfira Hacıyeva və başqaları çıxış edərək müzakirə edilən məsələlər barədə fikir və təkliflərini səsləndiriblər.

***T.RÜSTƏMLİ, "Xalq qəzeti"***

12–15 iyul 2020-ci il

**2020-ci ilin İyul döyüşlərindən 3 il keçir. Azərbaycan Ordusunun düşmənin hər bir təxribatının qarşısı almağa qadir olduğunu dünyaya nümayiş etdirən bu hərbi qələbə həm də yaxınlaşan Vətən müharibəsindəki misilsiz Zəfərin qaranquşu olmuşdu.**

Bu parlaq qələbə Prezidentin və Ali Baş Komandanın Vətənin müdafiəsində xalqa arxalanmasının, ağır gündə xalqla bir yerdə olmasının yeni bir nümunəsini göstərmişdi. Prezident İlham Əliyev o zaman bu birliyi belə dəyərləndirmişdi: “Bizim hərbi qələbəmizi qeyd etmək üçün minlərlə insan küçələrə çıxdı, minlərlə insan dövlətə, orduya dəstək göstərdi. Bu gözəl mənzərə vətəndaş həmrəyliyinin bir rəmzi idi. Son günlər ərzində baş vermiş toqquşmalar və qanlı döyüşlər Azərbaycan dövlətinin, ordusunun gücünü, xalqla iqtidar arasındakı birliyi bir daha göstərdi. Bu gün xalq–iqtidar birliyi Azərbaycanda sabitliyin inkişafının əsas şərtidir”.

# Tovuz döyüşləri Qarabağ zəfərinin müjdəçisi idi



**Tarix elmləri doktoru, ehtiyatda olan polkovnik, hərbi ekspert Mehman Süleymanov Tovuz döyüşlərinin tarixi önəmini, işğal olunmuş torpaqlarımızın müharibə yolu ilə azad edilməsi prosesində rolunu belə açıqladı:**

–2020-ci il iyul ayının 12–15-də Ermənistan–Azərbaycan sərhədinin Tovuz



rayonu ərazisində baş verən hadisələr zamanı Azərbaycan Ordusunun bölmələri tamamilə yeni bir keyfiyyət ortaya qoydu. Ordunun komandir və zabit heyətinin yüksək peşəkarlığı, təşəbbüskarlığı və çevikliyi Ali Baş Komandan tərəfindən verilən tapşırıqların tam şəkildə yerinə yetirilməsinə yol açdı. Bütün bunların nəticəsində Azərbaycan Ordusu Ali Baş Komandanın bütün əmrlərini vaxtında yerinə yetirməyə və Azərbaycan xalqının ümidlərini doğrultmağa qadir olan bir qüvvəyə çevrildiyini sübut etdi.

işə salındı. Xüsusilə pilotsuz uçan təyyarələr Ermənistanın istər sərhəd boyu, istərsə də dərinliklərində olan hərbi obyektlərini darmadağın etdi, təcavüzkara ağır itki verildi. Erməni hərbi qüvvələrinin ələ keçirməyə çalışdığı ərazilər geri qaytarıldı və düşmənə bu bölgədə bir qarış da olsa torpaq verilmədi.

**Yalnız güclü dövlət və güclü mərkəzləşdirilmiş rəhbərlik olan yerdə qalib ordu yaratmağın mümkün olduğunu vurğulayan müsahimiz bildirdi:**

–Prezident İlham Əliyev Ali Baş Komandan kimi yalnız ordu qüvvələrinin qisas döyüşlərinin keçirilməsini nəzarət altına götürmədi. O, eyni zamanda Prezident Administrasiyasının müvafiq şöbələrinə, Nazirlər Kabinetinə, aidiyyatı qurumlara lazımi göstərişlər verdi, dövlətin gücünü baş verən erməni təcavüzünün qarşısını almağa səfərbər etdi. Bu hadisələrin nəticəsi də artıq göstərir ki, Ali Baş Komandan döyüş xəttində təşəbbüsün ələ alınması və Ermənistanın hərbi-siyasi rəhbərliyinin yerində oturdulması üçün zəruriliyi və səmərəliliyi şübhə doğurmayan qərarlara əl atdı.

Tovuz hadisələri zamanı şəhid olan hərbçilər isə dövlət başçısı İlham Əliyev nisgilli duyğularla yad etmiş, onların qəhrəmanlığını gənc nəsil üçün örnək saymışdır. Bu da əslində, Ali Baş Komandan tərəfindən Vətən müdafiəçilərinə göstərilən qayğının bir nümunəsi idi: “General Polad Həşimov, polkovnik İlqar Mirzəyev həlak olmuşlar. Onların həyatı, torpaq, Vətən uğrunda göstərdikləri şücaət, qəhrəmanlıq hər bir gənc üçün nümunə olmalıdır. Biz fəxr edirik ki, Azərbaycan xalqı, Azərbaycan torpağı belə övladlar yetişdirib”.

**Mehman Süleymanov açıqlamasının sonunda dedi:**

–Nəticə etibarilə, İyul döyüşləri Qarabağ Zəfərinin müjdəçisi oldu. Həmin günün yaxında olduğunu isə Ali Baş Komandanın son bəyanatlarından duymaq mümkün idi. Tovuz döyüşlərindən dərhal sonra Azərbaycan Prezidenti İlham Əliyevin səsləndirdiyi “Biz öz doğma torpaqlarımıza qayıtmalıyıq və qayıdacağıq” bəyanatı isə göstərirdi ki, qəhrəman ordumuzun torpaqlarımızı işğaldan azad edəcəyi gün çox da uzaqda deyil. Bunu cəbhədə və beynəlxalq aləmdə əldə edilən uğurlar, bir də Ali Baş Komandanın inamlı qətiyyəti deməyə əsas verirdi. Ötən hər gün bizi Azərbaycanın haqq işinin təntənəsinə, Ali Baş Komandanın xalqımıza qazandıracağı böyük və son zəfərə yaxınlaşdırırdı.



Həmin günlərdə İlham Əliyev Ali Baş Komandan kimi ordunun hazırlıq səviyyəsini belə qiymətləndirmişdi: “Bu gün biz güclü ordu yaratmışıq. Bir daha demək istəyirəm ki, Azərbaycan Ordusu bu gün istənilən vəzifəni icra edə bilər. Son günlər ərzində Azərbaycan Ordusu bir daha öz üstünlüyünü göstərdi. Mən hesab edirəm ki, bu əməliyyatın Azərbaycan Ordusunun şanlı tarixində öz yeri olacaq. Azərbaycan Ordusu Ali Baş Komandan tərəfindən verilən bütün tapşırıqları şərəflə yerinə yetirir. Mənim dövrümdə bir dəfə də olmayıb ki, tapşırıq verilsin, yerinə yetirilməsin. Yerinə yetirilib”.

Tovuz döyüşləri zamanı bölgədəki hərbi qüvvələr dərhal bu təcavüzün qarşısının alınmasına səfərbər olundu, Azərbaycan Ordusunun malik olduğu müasir hərbi texnika çox dəqiqliklə

Tovuş döyüşlərində 2 ay yarım sonra düşmənin növbəti irimiqyaslı hərbi hücumuna cavab olaraq başladılan və çağdaş tariximizə Vətən müharibəsi adı ilə düşən II Qarabağ savaşı Azərbaycan Ordusunun Zəfər tarixinə çevrildi. Dünyanın müxtəlif ölkələrinin hərbi mütəxəssislərinin qeyd etdiyi kimi, Azərbaycan Ordusu XXI əsrin yeni müharibəsinin aparılmasının nümunəsini nümayiş etdirdi.

***Hazırladı:***
***Tahir AYDINOĞLU,***
***“Xalq qəzeti”***



# Düzilqarlı Vətən oğlu – İlqar Mirzəyev

**Onun haqqında düşünəndə, ilk növbədə, yadıma unudulmaz Xalq şairimiz Musa Yaqubun doğma kəndi Buynuzda öz dilindən eşitdiyim məşhur misraları düşdü:**



*Bəlkə də borcundan çıxmadım, Vətən,*
*Ömür bahar deyil bir də qayıtsın.*
*Ölsəm də, qoynunda qoy ölüm ki, mən*
*Çürüyüm, bir ovuc torpağın artsın!*

Düz 3 il əvvəl – iyulun 14-də Tovuz döyüşlərində şəhidlik zirvəsinə ucalanlardan, şairin təbirincə desək, Vətən torpağını daha bir qarış artıranlardan biri də o idi: 3-cü Ordu Korpusunun artilleriya rəisi İlqar Mirzəyev.

Özü də gözlərini həyata əbədi yuman zaman Vətən borcunu layiqincə vermiş qəhrəmanlardan biri İlqar Mirzəyev həmin gün səhər çağı korpusun komandir müavini, general-mayor Polad Həşimov və tabeliyində olan hərbçilərlə ön xətdə düşmən hücumunun qarşısını alarkən şəhid olub.

...Azərbaycan–Ermənistan dövlət sərhədinin Tovuz rayonu ərazisində düşmənin növbəti silahlı təxribatının qarşısının alınması məqsədilə görülən cavab tədbirləri nəticəsində haylara məxsus müxtəlif təyinatlı hərbi nəqliyyat və döyüş vasitələri, xeyli canlı qüvvə məhv edilib. Lakin igid polkovnik və dostları həmin şiddətli döyüşlərdən sağ çıxa bilməyib, adlarını al qanları ilə şöhrət və şərəf tariximizə yazıblar.

Elə o gün şəhid zabit İlqar Mirzəyevin cənazəsi minlərlə insanın qatıldığı izdihamın müşayiəti ilə yaşadığı Bakının Əhmədli qəsəbəsindəki evinə gətirilib. O, II Fəxri xiyabanda dəfn olunub. Beləcə, Gürcüstanın Qardabani doğulan, sonradan Bakını ünvan seçən, hərbi vəzifə borcu olaraq 2016-cı ilin aprelində Tərtərdə, 2020-ci ilin iyulunda Tovuzda vuruşan və oradaca əbədiyyətə qovuşan İlqar Mirzəyev artıq 3 ildir ki, xatirələrdə yaşayır.

Ölümündən sonra Polad Həşimovla ona “Azərbaycanın Milli Qəhrəmanı” adı verilib. Digər şəhid silahdaşları – mayor Anar Novruzov, mayor Namiq Əhmədov, gizir İlqar Zeynallı, gizir Yaşar Babayev və əsgər Elçin Mustafazadə müxtəlif təltiflərə layiq görülüblər...

İki ay öncə şəhid polkovnikin 50 yaşı Xətai rayonunda ehtiramla qeyd olundu, məzarı ziyarət edildi. Müdafiə Nazirliyinin, hüquq-mühafizə orqanları rəhbərlərinin və ictimaiyyət nümayəndələrinin tədbirə qatılması, Hərbi Orkestrin ifasında Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi, Xalq artisti – şəhid atası Əli Nurun şeir söyləməsi, şagirdlərin ifasında ədəbi-bədii kompozisiya təqdim olunması və s. şəhidlərimizin xatirəsinin necə yüksək urvatda tutulduğunu bir daha göstərdi. Milli Qəhrəman İlqar Mirzəyevlə bütün Azərbaycan xalqının fəxr etdiyi vurğulandı. Onun adını daşıyan 98 nömrəli tam orta məktəbin ərazisində şəhidlərimizin xatirəsinə ağaclar əkildi.



Yubileyinə həsr olunmuş “İgidlik simvolu İlqar Mirzəyev” adlı digər bir anım tədbirində isə şəhid polkovnikin döyüş yoldaşları – polkovnik Xəyyam Məmmədov, polkovnik-leytenantlar Mürşüd Babayev və Təbriz Kərimov onunla bağlı barıt qoxulu xatirələrini dilə gətirdilər. Bəstəkar-müğənni Ruslan Səfəroğlu Milli Qəhrəmana həsr etdiyi mahnını ifa etdi. Həzi Aslanov adına Ordu İdeoloji iş və Mədəniyyət Mərkəzinin solistlərinin ifasında hərbi-vətənpərvərlik mahnıları səsləndirildi. Sonda Milli Qəhrəmanımız haqqında “Atama məktub” adlı kitabı qonaqlara təqdim olundu.

Daha öncə Azərbaycan Dövlət Pedaqoji Universitetinin tələbələri şəhid polkovnikin ailəsini ziyarət ediblər və İlqar Mirzəyevin obrazını yaratmış gənc rəssam Azadə Zellabdiyeva portreti qəhrəmanın həyat yoldaşı Güllü xanıma təqdim edib. O da öz növbəsində tələbələrə İlqarla bağlı xatirələrini danışıb, onların suallarını cavablandırıb.

Onu da qeyd edək ki, rejissor Kəmalə Mehralı Musazadə “Salnaməfilm” studiyasında “Azərbaycanın Milli Qəhrəmanları” silsiləsindən İlqar Mirzəyev haqqında “Artilleriyanın atası” adlı maraqlı film çəkib. Biz bu faktı qəsdən yazının sonu üçün saxladıq. Ona görə ki, çəkilişləri onun döyüş yolu keçdiyi məkanlarda – Goranboy, Gəncə, Şəmkir və Tovuz istiqamətlərində aparılmış film davadan sonra qəhrəmanın oğlu Elvinin əsgəri xidmətə yollanması ilə sona çatır. Bu isə o deməkdir ki, qəhrəmanlıq ənənələri davam edir.

Qoy düşmən bilsin ki, estafet etibarlı əllərdədir. Qəhrəman ataların yolunda oğullar iftixarla irəliləyirlər.

***Əli ƏLİYEV, “Xalq qəzeti”***

# İyul döyüşlərinin tovuzlu şəhidi

**Qarabağa gedən yol Tovuzdan başlanmışdı. 27 sentyabrdan əvvəl Tovuz hadisələri olmuşdu. Tovuz istiqamətində gərginlik iyulun 12- dən başlamış, 13-nə keçən gecə də davam etmişdi.**

İyulun 14-ü yenə səhər saatlarından başlayaraq rayonun Ağdam və Əlibəyli kəndləri iriçaplı silahlardan və artilleriya qurğularından atəşə tutulmuş, düşmənin təxribat xarakterli hücumu nəticəsində Azərbaycan Ordusunun general-mayoru Polad Həşimov, polkovnik İlqar Mirzəyev və həmçinin hücumun qarşısını alarkən daha 5 hərbi qulluqçu şəhid olmuşdu. Uzun fasilədən sonra qapıları yenə şəhid xəbərləri döyməyə başlamışdı.



...Şəhidlik xəbəri Tovuz rayonunun Cəlilli kənd sakini Ayaz Zeynalovun da qapısına çatdı. Bəd xəbərlə eyni vaxtda qonum - qonşu həyətə toplaşdı... Halbahal olan İlqarın anası Laçına su, atası Ayaza toxdaqlıq verən kim, “bəlkə yalandır” – deyə ümidlənən kim ...

İlqar Ayaz oğlu Zeynallı 9 iyul 1995-ci ildə Tovuz rayonunun Cəlilli kəndində anadan olub. Ailənin ikinci uşağı olan İlqar həkim olmaq arzusu ilə böyüyüb. Həmin kənddə yerləşən məktəbdə orta təhsil alarkən əla qiymətlərlə oxumuş, valideyn iclaslarında adı həmişə layiqli məktəbli kimi çəkilmişdir. Onun şəkli uzun illər məktəbin şərəf lövhəsindən düşməmişdir. 2014-cü ildə Azərbaycan Ordusunun N saylı hərbi hissəsində feldşer kimi xidmətə başlamışdır.

Anası Laçın Zeynalova deyir ki, yoldaşlarının söhbətlərinə gorə, 2016-cı ilin aprelində Lələtəpə uğrunda gedən döyüşlərdə yaralananlara ilkin tibbi yardım göstərən İlqar, gecələr də yuxu yatmır, ağır yaralıların keşiyində dururmuş... 2018- ci ildən etibarən Azərbaycan Ordusunun Quru Qoşunlarının giziri, Qara ləqəbli İlqar Zeynallı hərbi fəaliyyətini Tovuz rayonunda davam etdirmişdir.

İlqarın atası Ayaz Zeynalov deyir ki, illər bir-birini əvəz etdikcə, qəlbimizdəki yara sağalmır, daha da çox ağrı verir: “Təsəllim odur ki, oğlum tək deyil. Bu torpaq uğrunda can verənlərin hamısı balamızdır. Minlərlə şəhiddən biri də İlqardır. O, torpağımızın namusunu qoruyan zaman qəhrəmanlıqla şəhid olub. Başımızı uca edib. Ermənistanla Azərbaycan arasında gedən müharibələr zamanı Tovuz rayonu düşmənə bir qarış belə torpaq verməyib. Torpağımız məhz İlqar kimi Vətən sevən oğulların hesabına bütövlüyünü qoruyub”.

Ayaz Zeynalov İlqarın şəhid olduğu günü belə xatırlayır: “Axırıncı gün onun öz maşını ilə lazım olan hər cür ərzaq göndərdim ki, heç nəyə ehtiyacları olmasın. Qardaşı Sənan apardı. 15 dəqiqədən sonra İlqar zəng etdi ki, ata payına qurban olum. Göndərdiklərin çatdı və paylaşdırdıq. Məni tam arxayın etdi ki, hər şey yaxşıdır, narahat olma. Saat 4-də gördüm Sənan maşını yenə işə salıb getmək istəyir. Bildim ki, nə isə xəbər eşidib... Mən də ona qoşuldum. Getdik... Yarım saat sonra İlqarı təcili yardımla gətirdilər...

Mən bilirdim ki, bu döyüş güclü başlayıb və itkilərsiz Qələbə olmayacaq. Ona görə də bu ana da hazır idim. İlqara hərbçi olmağı da mən tövsiyə etmişdim. Atanın oğlu haqqında danışması çox ağırdır. Kimi dindirsəniz, onqat artıq danışar onunla bağlı. Belə deyim var ki, oğulu el tərifləyər. Bütün şəhidlərimizə Allahdan rəhmət diləyirəm. Şəhidlər ölməzdir, Vətənimiz basılmazdır. Biz oğulu Vətən üçün böyüdürük. 55 yaşım var. Bir oğlum da, mən də istənilən vaxt torpağımızı, ana – bacılarımızın qeyrətini qorumaq uğrunda vuruşmağa hazırıq”.

Qardaşı Sənan danışır: “Deyirdilər, İlqar filan yaralını aşağı endirdi, filankəsə yardım göstərdi. Arxayın idim ki, qardaşıma heç nə olmaz, o, təhlükəsiz yerdədir. Özü də danışanda deyirdi ki, aşağıdayam, onları görmürəm. Mən nə biləydim ki, İlqar düşmənlə üzbəüzdədir, silahsız döyüşür. Biz bütün gənclər ön cəbhəyə yaxın yerdə döyüşə atılmağa hazır idik”.

İlqarın anası Laçın Zeynalova isə hələ də ovunmur: “Mən elə bilirəm ki, həyətə Azərbaycanın o müqəddəs bayrağına bükülüb gətirilən tabutdakı şəhid İlqar deyil. O gələcək. Arzuları vardı, xəyallar qururdu. Onu gerçəkləşdirməmiş hara getdi? Mən onun toyunu, nişanını görmədim, ölümmü? İlqar mənim də onunla bağlı arzularımı yarımçıq qoydu, hamısı gözümdə qaldı, ürəyimdə daşa döndü. Tovuz döyüşləri olan günlərdə gecələr də evə gəlmirdi. Səhərəcən qapının ağzında gözləyirdim. Tək mən yox, bütün kənd. Övladı döyüşdə olan da, olmayan da o dörd gündə səhəri dirigözlü açır, dualar edirdik ki, ölüm - itim olmasın. İlqarın xəbəri şəhid olan kimi yayıldı. Çünki, rayonun cavanları, hamısı döyüş bölgəsində sıraya düzülüb, vuruşmaq üçün silah istəyirdilər. Hərbi komissarlığın həyətinə iynə atsaydın, yerə düşməzdi. Bunun davamını 44 günlük Vətən müharibəsində də gördük. Səhərə qədər Respublika Səfərbərlik və Hərbi xidmətə çağırış üzrə Tovuz rayon şöbəsinin həyətində qeydiyyata düşmək üçün gözləyənlər vardı.

2014-cü ildən 2020-ci ilədək həyatını orduya bağlayan, rütbəsi gizir, vəzifəsi feldşer olan İlqar anadan olduğu Cəlilli kəndində dəfn edildi. Onunla vida mərasiminə Azərbaycan Ordusunun zabitləri də qatıldı. Nakam oğlumun bir nişanəsi də qalmadı. Subay idi, özündən yaşca böyük qardaşı və kiçik bacısı var. Hamısı sağ olsun. Hərənin öz yeri var. Kimsə kimsəni əvəz edə bilməz”.

Ən ali, müqəddəs və şərəfli zirvə olan şəhidlik zirvəsinə yüksələn İlqar və onun kimi oğullar aramızda olmasalar da, ürəklərimizdə hər zaman yaşayacaqlar.

***Zərifə BƏŞİRQIZI,***
***“Xalq qəzeti”***

Ədəbiyyat və əbədiyyət

# Molla Pənah Vaqifin faciəli qətli

**Sonuncu Qarabağ hökmdarı İbrahimxəlil xanın sarayında baş vəzir olmuş şair-diplomat Molla Pənah Vaqifin faciəli qətli barədə tarixi mənbələrdə və sənədli ədəbiyyatda bir sıra versiyalar mövcuddur. Mirzə Adıgözəl bəyin "Qarabağnamə"sində və Mirzə Camal Cavanşirin "Qarabağ tarixi" əsərlərində istər İbrahimxəlil xan, istərsə də Vaqif haqqında yazılan əhvalatlar, mülahizələr yetərli olduğu qədər də dəqiqdir. Onlar həmin dövrdə yaşadıqlarından hər iki şəxsiyyətin doğru-dürüst surətini ustalıqla yarada bilmişlər.**

Mirzə Camal Ağa Məhəmməd şah Qacar Şuşada öz adamları tərəfindən qətlə yetiriləndən və Qarabağda hakimiyyəti qısa müddətdə ələ keçirmiş xanın qardaşı oğlu Məmməd bəy Cavanşir şahın həbsə saldırdığı baş vəzir Molla Pənah Vaqifi edam etdirəndən sonrakı dövrdə həm İbrahimxəlil xanın sarayında, həm də Mehdiqulu xanın sarayında vəzir olmuşdur. O, şahidi olduğu əhvalatları elə dəqiq, inandırıcı yazmışdır ki, tarixçi və oxucu heç bir cümləni, heç bir əhvalatı şübhə altına almır. Eyni zamanda, Mirzə Camal Cavanşir onunla bir nəsildən olmağına baxmayaraq, Məmməd bəyin naxələf əməllərini, möhtərəm əmisi İbrahimxəlil xan Cavanşirə qarşı müxalif olmağını, hakimiyyət iştahını öz əsərində açıq-aydın göstərmişdir.



## Vaqifi kim öldürdüb?

Mirzə Camal yazır ki, İbrahimxəlil xan 3 aydan sonra Balakəndən qayıtdı. Şuşa əhalisi və ətraf kəndlərdən axışıb gələn camaat xanın pişvazına çıxmışdı. Hamı sevinc və şadlıqla qaladan enib Əsgəran yoluna gəlmişdi. Bəylər, ağalar tüfəng atır, qılınc oynadırdı. Qarabağın səmənd kəhəri üstündə şahanə oturan İbrahimxəlil xan yan-yörəsində baş əyənləri salamlayırdı. Cilov gəmirən xanın atı fınxıra-fınxıra irəliləyir, arabir də başını qaldırıb, Şuşa tərəfə baxır, kəsik-kəsik kişnəyirdi. Bu şadyanalığı, sevinən xalqı görən İbrahimxəlil xan da kövrəlmişdi. Arabir sağ əli ilə atın yalmanını, boynunu sığallayıb deyirdi:

– Hə, Maral, deyəsən, ovlaqlarını görüb tanıdın. Tələsmə, vətənə çatmışıq...

Gəncə qapısını keçən kimi xanın böyük oğlu Məmmədhəsən ağa nökərinə əmr elədi ki, qoy, çal-çağırı, oxumağı yığışdırsınlar. Ağam əvvəlcə Vaqifin məzarını ziyarət edəcək, sonra sarayına gedəcək.

İbrahimxəlil xan Molla Pənah Vaqifin məzarı üstə gəlib, astadan "Yasin" oxumağa başladı. Birdən dayandı, qəhər onu boğurdu. Həyəcandan boğazı qurumuşdu. Sonra surəni tamamlayıb dedi:

– Bizdən sənin pak ruhuna fatihələr, rəhmətlər. Unudulmaz xatirən ki, qəlb dolusu hörmətlər. Dünyanın işinə bax. Mən kimin üçün, nə oxuyuram. 30 il sadiq dost, qardaş kimi qulluğumda duran, sarayımın ən möhkəm dayağı, yaraşığı dəryayi-alim Axund Molla Pənah... Axı, mən yaşda ondan böyüyəm... Zırrama Məmməd bəyə nə deyəsən… Qılıncla vurub, başını ayağının altına atasan…Heyif, bizi külli-Qarabağın sevimli şairindən məhrum etdi".

Məhəmmədhəsən ağa atasına bir az da yaxın gəlib dedi:

– Namərd belə bir ağıllı, müdrik şəxsiyyəti öldürməklə bizim saf Cavanşirlər nəslimizə ömürlük ləkə vurdu.

Xan kövrək səslə:

– Heyif ki, bizim nəsildəndir, amma bizə oxşamadı. Allah bəlasın versin...

Üstündən əsr yarım keçəndən sonra Xalq şairi Səməd Vurğun bu faciəli ölümü belə nəzmə çəkdi:

**Vaqif, ey şeirimin könül dastanı,**
**De, söhbətin hanı, de, sazın hanı?**
**Susdumu nəğmələr oxuyan dilin?**
**Yasını tutdumu barı sevgilin?**
**Ey könül yolçusu, gülər sənətkar,**
**Qədrini bilmədi sənin saraylar.**
**... Qalxacaq, şairim, bir gün heykəlin**
**Bizim Qarabağın Cıdır düzündə…**

Səməd Vurğun 1937-ci ildə "Vaqif" pyesinin müzakirəsi zamanı "Şairin ölümü" poemasından danışaraq demişdir: "Azərbaycan poeziyasının böyük siması, xalqımızın doğma oğlu Molla Pənah Vaqifin taleyi məni uzun müddət düşündürmüşdür… Məşhur lirik şair, şadlıq və sədaqət müğənnisi haqqında bir poema yazdım. Lakin o məni təmin etmədi. Bu zaman bu mövzuda dram yazmağı qərara aldım ki, indi oynanılan bu əsər də onun nəticəsidir".

Bu gün 2 əsrdən çox keçəndən sonra istər-istəməz fikirləşirik ki, nə üçün Səməd Vurğun "Şairin ölümü" poemasında M.P.Vaqifi qətlə yetirən adamın adının Məmməd bəy Cavanşir (1762-1797) olduğunu bildirmir. 1935-ci ildə Səməd Vurğun "Şairin ölümü" poemasını yazanda qatil Məmməd bəy Cavanşirin adının çəkilməməsini onun nəvəsi, böyük Cəlil Məmmədquluzadənin ömür-gün yoldaşı Həmidə xanım xahiş edibmiş. Bu barədə Süleyman Rüstəm sonralar mənə belə demişdi:

– Səməd 1935-ci ildə ilk dəfə poemanı mənə oxudu. Orda Məmməd bəyin adı bir beytdə vardı:

**Sarayda hökm edir Məmməd adlı xan,**
**Qan-qarğış tökülür qaş-qabağından.**

Poema dərc olunanda oxudum, gördüm Məmməd bəyin adı yoxdur. Soruşdum niyə belə oldu, Səməd? Qatil kimdi, Vaqifi kim qətlə yetirib. Belə çıxır ki, Vaqifi İbrahim xan qətlə yetirib. Çünki hər yerdə xan, xan deyirsən, yazırsan.

– Süleyman, – dedi, – sən düz deyirsən, elə idi. Məmməd bəyin nəvəsi Həmidə xanım Cavanşirovanı tanıyırsan. Mirzə Cəlilin arvadını deyirəm, evimə gəldi. Poemadan xəbəri olduğunu bildirdi. Poemanı Yazıçılar Cəmiyyətində oxumuşdum. Həmidə xanım dedi ki, Məmməd bəy mənim doğmaca babam düşür. Xahiş elədi, kövrəlib ağlamsındı ki, poemadan onun adını çıxardım. Yoxsa, bütün Qarabağda rüsvay olacam. Xətrini çox istədiyim ağbirçək Həmidə xanımın xatirinə Məmməd bəyin adını çıxartdım.



Yaxşı ki, hələ XVIII əsrin sonlarında və XIX əsrin əvvəllərində şahidlər susmayıblar. Tarixçi-şair, maarif xadimi Mir Mehdi Xəzani, Vaqifin müasiri Mirzə Adıgözəl bəy, Mirzə Camal Cavanşir, Rzaqulu bəy Mirzə Camal oğlu, Mirzə Rəhim Fəna, Həsənəli xan Qaradaği, Mirzə Yusif Qarabaği, Salman Mümtaz və digər şahidlər Molla Pənah Vaqifin günahsız öldürülməsini öz əsərlərində bizə çatdırıblar. Yalnız Məmməd bəyin tarixçi nəvəsi, Həmidə xanımın atası Əhməd bəy Cavanşirdən başqa, hamısı qansız Məmməd bəyin M.P.Vaqifin xalq arasında, xüsusilə Şuşa camaatı arasındakı böyük hörmət və nüfuzundan qorxub, gecə Cıdır düzündə onu oğlu Əli bəylə qətlə yetirdiyini yazıblar.

(ardı var)

**Şəmistan NƏZİRLİ,**
**yazıçı-publisist,**
**Prezidentin fərdi təqaüdçüsü**

# Qazaxda Vaqif Poeziya Günlərinə start verildi



**Heydər Əliyev Fondu, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi və Azərbaycan Yazıçılar Birliyinin təşkilatçılığı ilə keçirilən Vaqif Poeziya Günləri dünən şairin doğma şəhərində - Qazaxın Yuxarı Salahlı kəndində Vaqifin büstünə gül qoyulmaqla başlayıb.**

Sonra mədəniyyət və incəsənət xadimləri, Azərbaycan Yazıçılar Birliyinin üzvləri, gənc yazıçılar və şairlər Qazax şəhərinin mərkəzindəki "Mütəfəkkirlər parkı"nda toplaşıblar.

Mədəniyyət nazirinin müavini Murad Hüseynov Vaqif Poeziya Günlərinin keçirilməsinin əhəmiyyətindən danışıb. Bildirib ki, Vaqif Qazaxda dünyaya göz açsa da, Şuşada məşhurlaşıb və orada dəfn olunub. Qazaxda start götürən Vaqif Poeziya Günləri iyulun 14-15-də mədəniyyət paytaxtımız Şuşada davam edəcək.

Azərbaycan Yazıçılar Birliyinin katibi İlqar Fəhmi çıxışında deyib ki, Şuşa azad olunandan sonra artıq 3-cü ildir Vaqif Poeziya Günləri keçirilir: "Hələ sovet dövründə Vaqif Poeziya Günləri Vaqifin vətənində - Qazaxda start götürürdü, Şuşada davam edirdi. Bu il qərar belə oldu ki, poeziya günləri ənənəyə uyğun olaraq Qazaxda başlasın. Bu gün artıq layihəyə start verilib".

Ədəbiyyatşünas Rüstəm Kamal, şairlər Əkbər Qoşalı, İbrahim İlyaslı və başqaları çıxışlarında Vaqifin Azərbaycan ədəbiyyatındakı misilsiz xidmətlərindən, onun yaradıcılığının ədəbiyyatımıza bəxş etdiyi zənginliklərdən danışıblar.

Bildirilib ki, bu tədbir həm də Türk dünyasının mədəniyyət paytaxtında Türk dünyasından gəlmiş şair və yazıçıların iştirakı ilə keçirilməsi mühüm hadisədir.

Daha sonra söz şairlərə və aşıqlara verilib, Molla Pənah Vaqifin qəzəlləri səslənib.

**"Xalq qəzeti"**

İDMAN

# "Olimpiya Festivalına yüksək nəticə üçün gedəcəyik"



**Avropa Yeniyetmələrinin XVII Yay Olimpiya Festivalına sayılı günlər qalır. İyulun 25-də Sloveniyanın Maribor bölgəsində start götürəcək yarışlarda Azərbaycanı 7 idman növü üzrə 36 idmançı təmsil edəcək. Bugünlərdə Milli Olimpiya Komitəsində (MOK) bu nüfuzlu yarışda Azərbaycanı təmsil edəcək idmançılarla görüş keçirilib. Komitənin vitse-prezidenti Çingiz Hüseynzadə yarışların əhəmiyyətini vurğulayıb, Avropa Yeniyetmələrinin Yay Olimpiya Festivallarında hər zaman Azərbaycan komandasının fərqləndiyini deyib. Vurğulayaq ki, Avropa Yeniyetmələrinin XVI Yay Olimpiya Festivalı Bakıda keçirilmişdi. Komandamız həmin yarışlarda 10 qızıl, 7 gümüş və 6 bürünc medalla festivalı 4-cü sırada başa vurmuşdu. Azərbaycan millisinə ən çox medalı güləşçilər qazandırmışdı.**

Ümumilikdə, 23 medaldan 16-sı pəhləvanların payına düşüb. Budəfəki yarışlarda idmançılarımız cüdo, atletika, tennis, üzgüçülük, velosiped, MTB (dağ velosipedi), gimnastika növlərində qüvvələrini sınayacaqlar. Bu idman növlərimiz arasında ən böyük heyətlə təmsil olunan cüdoçularımızın medal potensialları da böyükdür. Sloveniyaya yollanacaq komandanın heyətində yer almış idmançıların nailiyyətlərinə nəzər salsaq, onların bu il təşkil edilmiş Avropa birinciliyi, qitə kuboku yarışları və müxtəlif beynəlxalq turnirlərdə böyük qələbələr qazandığını görərik.

**Cüdo üzrə yığma komandamızın baş məşqçisi Rüstəm Alimli** "Xalq qəzeti"nə müsahibəsində komandanın hazırda təlim-məşq toplanışına cəlb edildiyini bildirdi: "Festivalda cüdo yığmamızın heyətində 8 oğlan, 4 qız mübarizə aparacaq. Cüdoçularımız həm fərdi, həm də qarışıq komanda yarışında iştirak edəcəklər. Yığma üzvləri hazırda Bakıda təlim-məşqdədirlər. Onların hərtərəfli hazırlıq keçmələri üçün federasiya tərəfindən bütün tədbirlər görülür. 25 nəfəri hazırlığa cəlb etmişik. Festivalda ikinci heyətimiz iştirak edəcək. Hər çəkidə cüdoçularımıza böyük ümidlər bəsləyirik. Onların arasında son Avropa birinciliyinin qızıl medalçıları Məhəmməd Musayev (60 kq), Ramazan Əhmədov (90 kiloqramdan yuxarı), Vüsalə Hacıyeva (48 kq) da var. Olimpiya Festivalına yüksək nəticə üçün gedəcəyik. Təlim-məşq toplanışı bu həftə yekunlaşacaq".

Baş məşqçi Olimpiya festivalından sonra cüdoçularımızın dünya birinciliyində iştirak edəcəklərini bildirdi: "Cüdoçularımız yaxşı formadadırlar. İnanırıq ki, komandamız həm Olimpiya festivalında, həm də dünya birinciliyində potensiallarından maksimum istifadə edəcəklər".

Xatırladaq ki, Bakıda keçirilmiş Avropa Yeniyetmələrinin XVII Yay Olimpiya Festivalında komandamızın qazandığı 10 qızıl medalın 2-sinə cüdoçularımız Hüseyn Məmmədov və Turan Bayramov (hər ikisi cüdo) sahib olmuşdular.

Onu da vurğulamaq yerinə düşər ki, bu yaxınlarda yeniyetmələrdən ibarət cüdo millimiz Avropa çempionatında 6 qızıl və 3 bürünc medalla ümumi hesabda oğlanlar arasında birinci yerə layiq görülüb. Millimiz qarışıq komanda yarışlarında da qızıl medal qazanıb. Yeniyetmə cüdoçularımızın bu il Avropa birinciliyi ilə yanaşı, Avropa kuboku yarışlarında, digər beynəlxalq turnirlərdə əldə etdikləri parlaq nailiyyətlər Olimpiya Festivalında da yüksək nəticələr üçün əsaslı zəmin yaradır.

Qeyd edək ki, Avropa Yeniyetmələrinin XVII Yay Olimpiya Festivalında 48 iştirakçı ölkədən 11 idman növü üzrə 3600-a yaxın yaş həddində olan yeniyetmə idmançılar iştirak edəcəklər.

**Leyla SABİRQIZI,**
**"Xalq qəzeti"**

# Sumqayıt Teatrında mövsümün son akkordları

**Cari mövsüm Sumqayıt Dövlət Dram Teatrının yaradıcı heyəti üçün 55 illik yubiley tədbirləri ilə əlamətdar olub. Mart ayında M.F.Axundzadənin "Müsyö Jordan və dərviş Məstəli şah" tamaşası ilə qeyd edilən yekun yubiley tədbiri yaddaqalan olub. Xatırladaq ki, ilk dəfə teatrın pərdələri açılan zaman da səhnədə həmin əsər oynanılıb.**



Zəngin bir yol keçmiş Sumqayıt teatrının güclü potensiala malik truppası ayrı-ayrı illərdə beynəlxalq festivallardan mükafatla qayıdıb. Azərbaycan və dünya dramaturqlarının yüzlərlə pyesi bu teatrın səhnəsindən tamaşaçılara çatdırılıb və onların bədii-estetik zövqünün formalaşmasına xidmət edib.

Sumqayıtın teatrı sayca 54-cü olan cari mövsümünü də məhsuldar proqramla sona çatdırır. Təkcə son 2 həftədə yaradıcı heyət həm doğma teatrda, həm də Bakıda və Lənkəranda sənətsevərlər qarşısında hesabat verib.

Teatrın direktor əvəzi, Əməkdar artist Vidadi Məmmədov bu barədə danışmazdan əvvəl kollektivin beynəlxalq əlaqələrindən bəhs edərək dedi ki, ölkəmizin Özbəkistanla mədəniyyət sahəsində əməkdaşlığı çərçivəsində iyunun 30-da Səmərqənd teatrı ilə Sumqayıt teatrı arasında əməkdaşlığın gücləndirilməsi, təcrübə mübadiləsinin artırılması məqsədilə Memorandum imzalanıb. Özbəkistanın incəsənət xadimləri Sumqayıt teatrının inzibati binası, qrim otaqları, texniki təchizat otaqları ilə tanış olublar və yaradıcılıq planları, gələcək əməkdaşlıq imkanları barədə müzakirələr aparılıb.

– Ondan bir neçə gün sonra Azərbaycan Teatr Xadimləri İttifaqının (ATXİ) Mədəniyyət Nazirliyinin dəstəyi ilə reallaşdırdığı "Qonaq teatr" layihəsinə qoşulduq, – deyə Vidadi müəllim davam etdi. – Bu çərçivədə Aktyor evində repertuarlarımızın baxımlı nümunələrdən birini – Türkiyə yazıçısı Turqut Özakmanın eyniadlı əsəri əsasında hazırlanan "Ocaq" tamaşasını təqdim etdik. Qeyd edim ki, əsas etibarilə bölgə teatrlarını paytaxt teatrsevərləri ilə görüşdürüb, onların yaradıcılığını geniş auditoriya önünə çıxaran layihə Azərbaycan peşəkar milli teatrının yaranmasının 150 illiyinə həsr olunan gözəl təşəbbüsdür.

Teatrımızın baş rejissoru, Xalq artisti Firudin Məhərrəmovun quruluş verdiyi birhissəli səhnə əsərində rolları Əməkdar artistlər Növrəstə Həşimova, Xatirə Süleymanova, Rauf Ağakişiyev, Cəlal Məmmədov, aktyorlar Habil Xanlarov, Şəmistan Süleymanlı və Şəhla Məmmədova oynadılar. Tamaşanın sonunda teatrımız və baş rejissorumuz Teatr Xadimləri İttifaqının fəxri fərmanı ilə təltif olundu.

Teatrın yaradıcı heyəti iyulun 7-də öz səhnəsində məşhur komediya ilə çıxış edib. Üzeyir Hacıbəylinin "O olmasın, bu olsun" liberettosu Əməkdar artist Namis Şirməmmədovun quruluşunda maraqlı səhnə taleyi yaşayıb.

Bu günlərdə isə Lənkəran Dövlət Dram Teatrının səhnəsində sumqayıtlı sənətçilərin təqdimatında Əziz Nesinin "Öldür məni, canciyər" komediyası oynanılıb. Rejissor Xalq artisti Firudin Məhərrəmovun quruluşunda tamaşa uğurla keçib. Obrazları Əməkdar artistlər Növrəstə Həşimova, İlahə Səfərova, aktyor Mətləb Səfərli canlandırıblar.

Sumqayıt teatrında mövsüm bağlanışı iyulun 16-da Hafiz Ataxanlının "Xəzinə" pritçası ilə reallaşacaq. Əsər dahi mütəfəkkir Nizami Gəncəvinin bəşəri ideyalarının konsepsiyasını ehtiva edir. Beş poemanın əsas obrazlarının cəm olduğu pritçada insan və onun kamilliyi, zəkanın qüdrəti mesaj kimi verilir. Tamaşada klassik yönlərlə avanqard teatr elementləri vəhdət təşkil edir.

Onu da qeyd edək ki, cari mövsümünü başa vurmağa hazırlaşan teatrda daha iki tamaşanın istehsalat prosesi tamamlanıb. Növbəti mövsümdə təqdim olunacaq həmin səhnə əsərlərindən biri Xalq artisti Firudin Məhərrəmovun quruluşunda Georgi Xuqayevin "Varlı ev" faciəsi, digəri isə gənc rejissor Telman Musayevin quruluşunda Ejen İoneskonun "Daz müğənni" absurd pyesinin tamaşasıdır.

**Əli NƏCƏFXANLI, "Xalq qəzeti"**

# Zelenskinin NATO ümidləri puç oldu

## *Hərbi blok "soyuq müharibə"dən bəri ilk dəfə "Rusiyaya qarşı müdafiə planı" üzərində razılığa gəlib*

**İyulun 11–12-də Vilnüsdə NATO-nun ikigünlük sammiti keçirilib. Gündəlikdə İsveçin alyansa üzvlüyü və Ukraynaya dəstək məsələsi əsas mövzu olub. Litvada keçirilən görüş daha çox rəmzi xarakter daşıyıb - 10 il əvvəl burada Şərq Tərəfdaşlığı sammiti keçirilib: Sonrakı dövrdə Avromeydan və Ukrayna münaqişəsi başlayıb.**



Danışıqlar zamanı Baltikyanı ölkələr Ukraynanın alyansa daxil olması üçün aydın qrafikin işlənib hazırlanmasının tərəfdarı olublar. Lakin alyans liderləri Kiyevə hərbi və siyasi dəstəyin artmasına baxmayaraq, hələ də onu NATO-ya dəvət etməyə hazır deyillər. Bu ölkənin alyansa daxil olması üçün qrafiki razılaşdırmaqdan imtina ediblər. Ekspertlər vurğulayırlar ki, Qərb Rusiya ilə nüvə münaqişəsi qorxusundan hələ də bu addımı atmaqdan çəkinir.

Bildirilib ki, NATO "müttəfiqlər razılaşdıqda və lazımi şərtlər yerinə yetirildikdə" Ukraynanın alyansa qoşulmasına icazə verəcək. Əslində, Ukraynanın NATO-ya üzvlüyü Co Baydenin qərarından asılı idi. Bayden isə Ukraynanın alyansa üzvlüyünə qarşıdır. O bu barədə deyib: "Ukrayna müharibə şəraitində NATO-ya daxil olmağa hazır deyil. Bu məsələyə yalnız sülhün bərqərar olmasından sonra baxılacaq". Bayden, eyni zamanda, onu da qeyd edib ki, NATO ölkələrində hazırda Ukraynanın üzvlük məsələsilə bağlı fikir ayrılığı hökm sürür.

Alyans həmçinin Ukraynaya üzvlüklə bağlı "Fəaliyyət planı"nı hələlik ləğv etməyi təklif edib. Brüssel hesab edir ki, bu tədbir Kiyevin təşkilata qoşulması prosesini qısaldacaq. Nəhayət, NATO Ukrayna Silahlı Qüvvələrinə çoxillik dəstək planını razılaşdırmağa söz verib. Stoltenberq, öz növbəsində, kaset bombaları da daxil olmaqla, Kiyevə hərbi yardımı artırmağa çağırıb: "Qısa müddətdə Ukraynanın kifayət qədər mərmisinin olmaması riski var, ona görə də biz onları maksimum sursatla təmin etmək üçün mümkün olan hər şeyi etməliyik.

Ukrayna–NATO Şurası da yaradılacaq. Kiyev sadələşdirilmiş qaydada üzvlük üçün müraciət edəcək. Şuranın ilk iclası isə iyulun 12-nə planlaşdırılıb. Bu şura, alyansın Kiyevlə siyasi əlaqələrini gücləndirəcək".

Aydındır ki, Ukrayna prezidenti daha çox şeyə ümid edirdi. NATO-ya üzv ölkələrinin Ukraynanın Şimali Atlantika Alyansına mümkün üzvlüyü ilə bağlı birgə bəyanatı Kiyevin narazılığına səbəb olub. Bu ölkənin prezidenti Volodimir Zelenskinin davranışı Vilnüs sammitində ABŞ prezidenti Co Bayden başda olmaqla bu ölkənin nümayəndə heyətinin üzvlərinin böyük narazılığı ilə qarşılanıb. Bu barədə məlumatlı mənbəyə istinadən "Vaşinqton Post" xəbər yayıb. "Amerika nümayəndə heyətinin üzvləri Zelenskinin tvitinə görə qəzəbləniblər. Orada dövlət başçısı "hirslə" NATO ölkələrini Ukraynanın alyansa qoşulmaq istəyinə ciddi yanaşmamaqda ittiham edib. Zelenski ölkənin alyansa qəbulu üçün dəqiq müddətin olmamasını "görünməmiş və absurd vəziyyət" adlandırıb.

Nəşr qeyd edir ki, Zelenski tvitində Co Baydenin adını çəkməsə də, ABŞ prezidentini "NATO-nun rəhbəri, qərar qəbul edən şəxs" adlandırıb və Ukraynanın alyansa üzvlük çağırışlarını Ağ evə ünvanlayıb.

Sammitin yekunlarına dair brifinqdə isə prezident Volodimir Zelenski vurğulayıb ki, Ukraynaya hərbi yardımın göstərilməsi ilə bağlı qərarlar qəbul edilib və bu, işğalçılara qarşı müharibədə qələbəni yaxınlaşdırmağa kömək edəcək. Prezidentin sözlərinə görə, NATO sammitinin iki günü ərzində Ukraynanın NATO-ya üzvlüyünün perspektivləri ilə bağlı hər hansı şübhə və qeyri-müəyyənlik yoxdur: "Ölkəmiz alyansa daxil olacaq, lakin bunun üçün vaxt lazımdır".

Bundan əvvəl, ABŞ Dövlət Departamentinin mətbuat xidmətinin rəhbəri Metyu Miller Ukraynanın NATO-ya daxilolma vaxtı və münaqişənin sona çatması şərtləri ilə bağlı proqnoz verməkdən imtina etmişdi. Almaniya kansleri Olaf Şoltz isə Ukraynanın indiki şəraitdə NATO-ya üzv ola bilməyəcəyinin səbəbini açıqlamışdı: "Ukrayna hökuməti özü də bəyan edir ki, Rusiya ilə münaqişə vəziyyətində olduğu müddətdə NATO-ya qoşulmaqdan söhbət gedə bilməz. Çünki Kiyevin alyansa üzvlüyü NATO-nun müharibəyə qoşulması deməkdir".

O, həmçinin əlavə edib ki, NATO və Avropa İttifaqı (Aİ) G7 ölkələri ilə birlikdə effektiv və uzunmüddətli təhlükəsizlik öhdəlikləri hazırlayıb. Artıq G7 ölkələri Ukraynaya təhlükəsizlik zəmanətlərinin verilməsi üçün ümumi prinsiplər barədə razılığa gəldilər. Bunlara quru, hava və dəniz yolu ilə müasir hərbi texnikanın çatdırılması, Ukrayna qüvvələrinin təlimi, kəşfiyyat məlumatlarının mübadiləsi və kibermüdafiə yardımı daxildir. Amma bunun müqabilində Kiyev islahatlar, o cümlədən məhkəmə sistemində dəyişikliklər və silahlı qüvvələr üzərində mülki nəzarəti həyata keçirməyə borcludur.

Başda prezident Co Bayden olmaqla ABŞ daha bir təşəbbüsün müəllifidir. Bildirilib ki, Vilnüsdə keçirilən NATO sammiti Rusiyanın işğaldan sonra Ukraynaya qarşı genişmiqyaslı müharibəyə başladığı ilk məqsədlərindən nə qədər uzaqlaşdığını göstərdi. Bu da NATO-nun Vilnüsdə keçirilən sammitində "soyuq müharibə" başa çatdıqdan sonra ilk dəfə Rusiyadan gələn təhdidlərə qarşı yeni "Fəaliyyət planı"nın qəbul edilməsinə səbəb olub. Əslində bu, Avropada genişmiqyaslı müharibə planıdır. Planın əsas məqsədi Rusiyanın bütün qərb sərhədlərində NATO qoşunlarının sayını artırmaqdır.

Bu plana uyğun olaraq yüksək hazırlıq səviyyəsində olan 300 min NATO əsgəri , o cümlədən əhəmiyyətli hava və dəniz döyüş qüvvələri cənubdan, şimaldan və qərbdən Rusiyanın sərhəddində yerləşdiriləcək. Kosmik və kompüter qüvvələri də əməliyyatlara qoşulacaq. Aydındır ki, bundan qazanan ABŞ olacaq, silahları ilə müttəfiqlərini təmin edəcək. Bu, eyni zamanda Avropa ordularını öz müdafiə sənayesinə bağlılığını azaldacaq, milyardlarla dollar vəsait ABŞ-a axacaq.

**Pünhan ƏFƏNDİYEV,**
**"Xalq qəzeti"**

---

**Mən son illərin ən qızmar yayında küləkli Bakıdan ayrılıb daha isti olduğunu güman etdiyimiz Qazaxıstana gedəndə məlum oldu ki, qayıtmağımı gözləyənlər çoxdur. Nəvələrim də, onların böyükləri də, iş yoldaşlarım da – "yaxşı yol!" – deyənlərin hamısı soruşurdu ki, nə vaxt qayıdırsan? Deyirdim ki, çatan kimi məktub yazacam. Amma təyyarədə fikirləşdim ki, indi deltasına getdiyim Ak Jayık ( Ural çayı) Xəzərə tökülür. Görəsən o çaya bir vərəqlik məktub atsam, Bayıl sahillərinə nə vaxta çatar?**

# Qazaxıstanın "neft paytaxtı"ndan Qafqazın neft mərkəzinə salam




... Belə qismət imiş. Qazaxıstana ötən ilin noyabrındakı səfərim ölkənin "Dəniz qapısı" adlandırılan Aktau (Ağ dağ) şəhərinə olmuşdu. Xatırladım ki, Xəzər dənizi vasitəsilə daşınan yüz min tonlarla müxtəlif yüklər mənzil başına məhz bu liman vasitəsilə çatdırılır. "Ələt – Aktau" bərə yolu Qədim İpək Yolunun tərkib hissəsidir. Bu nəqliyyat dəhlizi Çindən göndərilən yüklərin Avropaya daha tez çatdırılmasını təmin edir. Üstəlik, bu dəhlizdəki limanlar heç zaman donmurlar.

İkinci səfərim isə Qazaxıstanın "neft paytaxtı" adlandırılan Atırau ( Ak Jayıkın deltası) şəhərinə oldu. Ölkənin qərbində, Xəzər dənizinin şimalında, Ural çayı sahilində yerləşən, Sovet dönəmində Quryev adlandırılan, hazırda eyni adlı vilayətin mərkəzi olan Atırau barədə çox yazılıb, indi də yazılır və əsas həqiqətlər irəlidədir.

Bu şəhərə gəlmək, buranı görmək mənim üçün bir neçə cəhətdən maraqlı idi. Əvvəla, ona görə ki, Azərbaycanın həm coğrafi-siyasi, həm də neft paytaxtı olan, əlli ilə yaxın yaşadığım Bakı ilə bu neft şəhəri arasında hansısa oxşarlıqları, yaxınlıqları görmək, daha doğrusu, sezmək və qələmə almaq istəyirdim. İkinci, hələ məktəb illərindən bilirdim ki, Avropa ilə Asiyanın sərhədi Ural dağı, Ural çayı və Xəzər dənizindən keçir. Ural çayı həm də Atıraunun mərkəzindən keçir. Ona görə üreyimdə səhər çayını Asiyada içib, nahar üçün Avropaya keçmək istəyi yaranmışdı. Bura gəlib çatan kimi öyrəndim ki, Atırauda ondan çox körpü Ural çayını kəsib-doğrayır.

Yeri gəlmişkən, mən bayaqdan bəri bir neçə dəfə Ural çayı və Ak Jayık sözlərini işlətmişəm. Ancaq Qazaxıstanda Ural çayı ifadəsi işlədilmir. Qazaxlar bu çaya Ak Jayık – Ağ çay deyirlər. Hələ bu səfərə gəlməmişdən Bakıda yaşayan bir qazax tanışımdan öyrənmişdim ki, İkinci Yekaterinanın 1775-ci ildə imzaladığı sərəncamdan sonra bu çay Ural adlandırılmışdır. Ancaq xalq bu çayın qədimi adını bütün dövrlərdə yaşadıb. Həmin sərəncamdan əvvəlki dövrdə, hətta, Sovet dönəmi başa çatana qədər də rəsmi sənədlərdə Ural adlanan çay haqqında xalqın işlətdiyi əsas ifadə məhz Ak Jayık olmuşdur.

Ancaq Atırauya gələn kimi xəyalımdakı Ural çayının, qazaxların min illərdən bəri Ağ çay adlandırdıqları nəhrin rəngi məni çox pəjmürdə elədi. Çay qətiyyən ağ deyil. Ən çox çirklənmiş, müasir texniki proseslərin fəsadları ilə rəngi saralmış Uralın suyunun içməli olduğuna adam inanmaq istəmir. Şair demiş: "Sordum ki, bu nə haletdir? Dedilər Maqnitoqorskdan gələn fəlakətdir".

Beləliklə, mən Avropanın Volqa (3690 kilometr) və Dunay ( 2779 kilometr) çaylarından sonra üçüncü ən böyük çayı olan Uralın ( 2428 kilometr) sahilindəyəm. Burada atıraulu bir oğlan dedi ki, Ak Jayık Volqa və Kürdən sonra Xəzərə axan ən böyük üçüncü çaydır. Mən Ana Kürümüz haqqında olan bu həqiqəti – Kürün Xəzərə Uraldan da çox su gətirdiyi faktını gedib Qazaxıstanda öyrənməyimdən həm məmnun oldum, həm də...

İlk təəssüratım ondan ibarətdir ki, Aktauda olanda Bayılda gəzdiyim kimi sərbəst idimsə, Atırauda özümü Xırdalandakı kimi hiss edirəm. Fərq bir az Ural dağının havasının və yolda çirklənmiş də olsa, Ural suyunun yaxın olması, bir az da sakinlərin daha çox rus dilində danışmasıdır. Başqa hər cəhətdən adam özünü Vətəndəki kimi hiss edir.

Bura gələn kimi öyrəndiyim ilk faktlardan biri budur ki, Atırauda "Ak Jayık" adında vilayət miqyaslı qəzet və informasiya agentliyi fəaliyyət göstərir. O biri fakt isə ondan ibarətdir ki, Atırau vilayəti ümumi daxili məhsul istehsalı və əhaliyə göstərilən xidmətlərin miqyasına görə Almatı vilayətindən sonra ikinci yeri tutur.

Əsas odur ki, Turan torpağında, müasir Türk dünyasının ən öndə olan ölkələrinin birindəyəm. Qazaxıstan türkləri tərəfindən ehtiramla, doğma adam kimi qarşılananda böyük şairimiz Bəxtiyar Vahabzadənin məşhur şeirinin bir bəndi yadıma düşdü:

*Sübutdur, dəlildir ağlın qibləsi,*
*Dəyişə bilərsən adını ancaq.*
*Canını çıxanadək qəlbimin səsi,*
*Türkəm – gerçəyini pıçıldayacaq.*

Ona görə də inanıram ki, "Xalq qəzeti"nin oxucularına bu səfər barədə deyiləsi sözüm çox olacaq.

**İttifaq MİRZƏBƏYLİ,**
**"Xalq qəzeti"**
**Qazaxıstan, Atırau şəhəri**

---

# Naxçıvan Dövlət Universitetində SAT imtahan mərkəzi yaradılıb



**Naxçıvan Dövlət Universitetinin Beynəlxalq Məktəbində fəaliyyətə başlayan regional SAT (STANDARTLAŞDIRILMIŞ TEST İmtahanı) mərkəzinin təqdimat mərasimində bildirilib ki, hazırda burada 6 fərqli dildə kadr hazırlığı həyata keçirilir. Son 2 ildə 5 ixtisas üzrə təhsil isə ingilis dili əsasında qurulub.**

Rektor Elbrus İsayev bildirib ki, Azərbaycan ali təhsil məkanında ilk dəfə Naxçıvan Dövlət Universitetində yaradılan İELTS mərkəzi, yalnız muxtar respublikada yox, ölkəmizdə də təhsilin və akademik səviyyələrə yüksək qəbulun həyata keçirilməsində böyük rol oynayacaq. Bununla belə, universitetdə əcnəbi tələbələrin sayca üstünlüyü nəzərə alınsa, digər regionlardan təhsil almaq üçün gələnlər də bu mərkəzdən faydalana bilərlər. Rektor universitetin elmi mühitində uğurlar qazanılmasında, professor-müəllim heyətinin nüfuzlu jurnallara çıxışının təmin olunmasında da mərkəzin fəaliyyətini önə çəkib. Qeyd edilib ki, artıq universitetdə müəllim və tələbələr İELTS sertifikatı üzrə təlimlərə başlayıblar.

SAT İmtahan Mərkəzi haqqında məlumat verən prorektor Aidə Cəlilzadə qeyd edib ki, bu imtahan həm kağız üzərində, həm də rəqəmsal formada götürülə bilər. Sonra imtahan prosedurundan bəhs edilib.

Qeyd edək ki, Naxçıvan Dövlət Universiteti 14 iyun 2023-cü ildə Amerika Birləşmiş Ştatlarının "College Board" təşkilatı tərəfindən rəsmi olaraq SAT imtahan mərkəzi kimi qeydiyyata alınıb.

**Səbuhi HƏSƏNOV,**
**"Xalq qəzeti"**
**Naxçıvan**

---

# Tibbi sığorta sağlamlığımızın keşiyində

**Hörmətli redaksiya, Azərbaycanda səhiyyə sistemində baş verən yeniliklərə, tibbi sığortanın tətbiqinin rahatlığına, müasir avadanlıqlarda müayinələrin və müalicənin necə aparılmasına bu yaxınlarda Elmi-Tədqiqat Tibbi Bərpa İnstitutunda müalicə olunduğum zaman şahid oldum.**



Çox sevindirici haldır ki, hazırda insanlarımız sağlamlığında hansısa bir problem yarandığı zaman müasir üslubda tikilmiş və ya bərpa olunmuş, müasir avadanlıqlarla təchiz olunmuş tibb müəssisələrinə müraciət edə bilir. Mən böyük tarixə malik müalicə ocağı olan, minlərlə insanın şəfa tapdığı Elmi-Tədqiqat Tibbi Bərpa İnstitutuna müraciət etdim, orada müalicə kursu aldım.

Bu müalicə ocağında mənə göstərilən diqqət və qayğıya görə institutun bütün kollektivinə, xüsusən onun direktoru Sədaqət Hüseynovaya, kiçik elmi işçi, nevroloq Aygün İsayevaya, baş tibb bacısı Gülmirə xanıma dərin təşəkkürümü bildirirəm.

**Oruc KƏNGƏRLİ,**
**Bakı sakini**

---

# FHN sənəd qəbulunu 7 şəhərdə həyata keçirəcək

**"Qeyri-yaşayış təyinatlı bəzi tikinti obyektlərinin istismarına icazə verilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 14.06.2023-cü il tarixli 2181 nömrəli Fərmanının icrası ilə əlaqədar Fövqəladə Hallar Nazirliyinin Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyi tərəfindən sənəd qəbulu həyata keçirilir.**

Belə ki, fərmana müvafiq olaraq, 1 iyun 2023-cü il tarixinədək tikinti-quraşdırma işləri başa çatmış qeyri-yaşayış təyinatlı binaların yükdaşıyan konstruksiyalarının dayanıqlılıq, möhkəmlik baxımından istismara yararlılığı, yanğın təhlükəsizliyi tələblərinə cavab verməsi, qaldırıcı qurğuların və digər təhlükə potensiallı qurğu və konstruksiyaların istismara hazırlığı, aidiyyəti qurumlar tərəfindən mühəndis-kommunikasiya təminatı şəbəkəsinin istismara hazırlığı baxımından müayinə edilməsi, müayinələrin nəticəsinə dair istismara hazır olması barədə rəylərin tərtib edilməsi və bu rəylər əsasında müvafiq icra hakimiyyəti orqanları tərəfindən qeyri-yaşayış təyinatlı obyektlərin istismarına icazənin verilməsi nəzərdə tutulur.

Bu məqsədlə, FHN-in Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyi tərəfindən Bakı, Gəncə, Xaçmaz, Yevlax, Salyan, Lənkəran və Qəbələ şəhərlərində Fərmanın icrası ilə bağlı sənəd qəbulu aparılır. Qeyri-yaşayış təyinatlı obyektlərin istismarına icazənin verilməsi üçün ərizə və ona əlavə edilmiş müvafiq sənədlər qeyri-yaşayış obyektinin sifarişçisi (sahibi) və ya onun qanuni nümayəndəsi tərəfindən şəxsən təqdim edilməlidir.

Ərizə forması, tələb olunan sənədlər, sənəd qəbulu aparılan ünvanlar və digər müvafiq məlumatları bu səhifəyə daxil olmaqla əldə etmək mümkündür – https://www.fhn.gov.az/?aze/news/xronika/2023/4/3/1030

**Q.QASIMOV, "Xalq qəzeti"**

---

## BİLDİRİŞ

*"Azərenerji" ASC tərəfindən 2023-cü il aprelin 7-də elan edilmiş elektrik stansiyalarında istifadə olunacaq müxtəlif energetik yağların satın alınması (elektrik stansiyalarının mühərriklərində mövcud olan energetik yağlara istehsalçının tələbinə və avadanlıqların istismar qaydalarına uyğun eyni markalı yağların əlavə edilməsi və yenilərinin tədarük olunması) üçün açıq tender üsulu ilə keçirilən müsabiqədə iddiaçılardan daxil olan təkliflərin qiymətləndirilməsi həyata keçirilmiş və tender komissiyasının qərarı ilə formal tələblərə cavab verən və ən aşağı qiymət təklif edən "Exol Azerbaijan" QSC tenderin qalibi müəyyən edilmişdir.*

*Qalib gəlmiş təşkilatla müvafiq satınalma müqaviləsi imzalanmışdır.*

*Tender komissiyası*

SON SƏHİFƏ
# Xalq qəzeti
Xalqın qəzeti!
№ 145 (30261) 14 iyul 2023-cü il, cümə
veb-sayt: www.xalqqazeti.az

İdman xəbərləri

## Qurban Qurbanov beynəlxalq reytinq cədvəlində irəliləyib

**Dünyanın ən yaxşı 500 baş məşqçisinin reytinq siyahısı açıqlanıb.**



Siyahıda yeganə Azərbaycan təmsilçisi Qurban Qurbanovdur. Ağdamın "Qarabağ" klubunun baş məşqçisi son 4 ilin nəticələrinə əsasən tərtib olunan reytinq cədvəlində 199-cu pillədədir. Əlli bir yaşlı mütəxəssisin hesabında 1595 xal var. Qurban Qurbanov ötən siyahı ilə müqayisədə 5 pillə irəliləyib.

Qeyd edək ki, siyahıya Pep Qvardiola (2194) başçılıq edir.

## "Qəbələ" klubundan Türkiyədə ilk qələbə



**Türkiyənin Bolu bölgəsində təlim-məşq toplanışında olan "Qəbələ" klubu ilk yoxlama oyununu keçirib.**

Elmar Baxşıyevin baş məşqçi olduğu komanda Moldova təmsilçisi "Sukleya" ilə üz-üzə gəlib. "Termal otel"in məşq bazasında baş tutan qarşılaşma "qırmızı-qaralar"ın 4:2 hesablı qələbəsi ilə yekunlaşıb.

Qeyd edək ki, "Qəbələ" qardaş ölkədə daha iki görüş keçirəcək.

## Qaxda Respublika Şahmat Olimpiadası keçirilir

**Qax şəhərində 16 yaşadək yeniyetmələr arasında Respublika Şahmat Olimpiadası keçirilir. Qax Olimpiya İdman Kompleksində təşkil olunan olimpiada A və B qruplarından ibarətdir.**



A qrupunda 262, B qrupunda isə 224 şahmatçı olmaqla ümumilikdə 45 rayon (şəhər) təşkilatından 486 şahmatçı qalib adı uğrunda mübarizə aparır.

11 turdan ibarət İsveçrə sistemi üzrə təşkil olunan olimpiadada 8-ci tura yekun vurulub. A qrupunda Şəki şahmatçısı İslam Hacıəliyev və Gəncə şahmatçısı Hüseyn Qurbanov 7,5 xalla müvafiq olaraq 1-2-ci yerləri bölüşdürür. 3-cü yerdə olan Sumqayıt təmsilçisi Nahid Ağalı liderlərdən yarım xal geri qalır. B qrupunda Cavad Abbassoy (3 № RİOEUGİŞM) , Nihad Məmmədov (AHİTA), Məhəmməd Kazımzadə (4 № İOEUGİŞM), Yusif İsmayılov (Gəncə 2 № UGİŞM) 7 xalla müvafiq olaraq 1-4-cü yerləri bölüşdürür.

Qeyd edək ki, Respublika Şahmat Olimpiadasına iyulun 15-də yekun vurulacaq.

*L.SABİRQIZI, "Xalq qəzeti"*

Texnologiya yenilikləri



## İlon Maskın yeni süni intellekt şirkəti

**"Tesla" və "SpaceX" şirkətlərinin sahibi İlon Mask yeni qurumunu təqdim edib. Süni intellekt sahəsində fəaliyyət göstərəcək şirkət "xAI" adlandırılıb.**

Məlumata görə, yeni komanda "DeepMind", "OpenAI", "Google Research", "Microsoft Research", "Tesla" kimi şirkətlərdə çalışıb. Əməkdaşların süni intellekt sahəsinə töhfələr verdiyi, innovativ üsullarla təhlillər təqdim etdiyi və bu sahədə ən böyük irəliləyişlərin inkişafına öncülük etdiyi bildirilib.

Şirkətin internet saytında verilən açıqlamada qeyd olunub ki, "xAI" şirkətinin məqsədi "kainatın əsl mahiyyətini anlamaq"dır. Bu qurum uğur əldə etmək üçün digər şirkətlərlə sıx əməkdaşlıq edəcək.

*Əfsanə ƏHƏDLİ, "Xalq qəzeti"*



## Çin kosmosa metanla işləyən raket buraxıb

**Çinin "LandSpace" şirkəti tərəfindən hazırlanmış dünyanın ilk metan və maye oksigenlə işləyən "Zhuque-2" raketi uğurla kosmosa göndərilib.**

Qobi səhrasındakı "Jiuquan" peyk buraxılış mərkəzindən buraxılan raket yükünü orbitə uğurla çıxarmış metanla işləyən ilk peyk olub. Raketin uzunluğu 49,5, diametri isə 3,35 metrdir, yükdaşıma qabiliyyəti 4 tondur.

Qeyd edək ki, "Zhuque-2" bu sektorda yüksək performans və aşağı əməliyyat xərclərinə görə kosmik sənayedə yeni bir uğur sayılır.

*Aytən NƏCƏFOVA, "Xalq qəzeti"*

## Filmimiz mükafat qazanıb

**"Qara pişik ağ şanı" sənədli filmi "Chinar film"in proyekti olaraq "CineDOC" Tbilisi beynəlxalq sənədli film festivalının mentorluq proqramında "Current Time TV"nin mükafatına layiq görülüb.**



Bu proqramın əsas məqsədi sonda hər bir layihəni beynəlxalq jüri qarşısında təqdim etməkdir.

Film şəxsi hekayə haqqındadır. Özünün keçmiş səhvlərindən xilas olmaq üçün Bakı ətrafında yerləşən bağ evinə köçən Füruzənin və nəvəsi Ələmdarın hekayəsidir. Burada Füruzə öz üzüm bağında üzümçülüklə məşğul olur və həyatə gələn qara pişiyi bəsləyir. Günlərin birində ordudan yeni qayıtmış nəvəsi Ələmdar ona baş çəkir və hər ikisi keçmiş ailə səhvləri ilə üzləşirlər. Filmin prodüseri Türkan Hüseyn, rejissoru Ələmdar Faiqdir.

*F. SALMANOVA, "Xalq qəzeti"*

Maraq dünyamız

## Amazon planetin "ağ ciyəri"dir

**Amazon meşələri 5,5 milyon kvadratkilometr ərazini əhatə edir. Onun cəngəlliyi böyük miqdarda karbon qazını udaraq Yerdəki oksigenin əhəmiyyətli bir hissəsini istehsal edir: buna görə də bu meşələri tez-tez planetin ağciyərləri adlandırırlar.**



Amazon meşələri dünyanın ən zəngin canlı aləminə (bitki örtüyü və heyvanat aləmi) malik olan ərazidir. Alimlərin fikrincə, meşə ərazisində dörd yüzdən artıq heyvan növü yaşayır və yerli sularda yaşayan üç mindən artıq müxtəlif növ balıq var. Hələ də orada yaşayan canlı aləmin dəqiq şəkildə siyahısı müəyyən edilməmişdir və buna görə də tez-tez yeni canlıların tapılması hallarına rast gəlmək olur. Çünki olduqca sıx olan meşəlik ərazilər tədqiqatçılara meşənin dərinliklərinə getməyə imkan vermir. Amazon çayı həm də qədim dövrlərdən qalma piraniya balıqlarına da sahiblik edir. Hətta meşənin dərinliklərində sivilizasiyadan tamamilə təcrid olunmuş ictimai icma quruluşunda yaşayan insanlara belə rast gəlinir.

## Havay adaları Alyaskaya yaxınlaşır

**Yer qabığı bir neçə nəhəng hissədən – tektonik plitələrdən ibarətdir. Bu plitələr mantiyanın yuxarı təbəqəsi ilə birlikdə daim hərəkət edir.**



Havay adaları Sakit okean plitəsinin orta hissəsində yerləşir və Alyaskanın yerləşdiyi Şimali Amerika plitəsinə doğru yavaş-yavaş şimal-qərb istiqamətində sürüşür. Hər il Alyaskaya 7,5 santimetr yaxınlaşır.

Xatırladaq ki, Havay adaları 24 adadan və atoldan, eyni zamanda Sakit okeanın şimalında yerləşən çox sayda xırda adalardan ibarət arxipelaqdır.. Vulkanik mənşəlidir. Arxipelaq öz adını ən böyük adası olan Havayinin adından almışdır. Adalar ABŞ-ın 50-ci ştatını təşkil edir.

## Yer planeti 2,3 milyard ildən sonra

**Yer 2 milyard 300 milyon ildən sonra indiki Marsa bənzər geniş səhraya çevriləcək. Yüz milyonlarla ildir ki, Günəş isinir, daha da parlaqlaşır və qızmaqda davam edir.**



Təxminən, 2 milyard il və ya daha çox müddətdə temperatur o qədər isti olacaq ki, Yer kürəsini yaşayış üçün əlverişli edən okeanlar buxarlanacaq. Bütün planet sonsuz səhraya çevriləcək. Alimlərin proqnozlaşdırdığı kimi, yaxın bir neçə milyard il ərzində Günəş qırmızı nəhəngə çevriləcək və Yeri tamamilə udacaq - planetin sonu mütləq gələcək.

*P.ƏFƏNDİ, "Xalq qəzeti"*

## Ukrayna – İngiltərə matçı Polşada keçiriləcək



**Futbol üzrə "Avro-2024"ün seçmə mərhələsi çərçivəsində keçiriləcək Ukrayna - İngiltərə oyununun yeri müəyyənləşib.**

Qarşılaşma Polşada keçiriləcək.

Görüş sentyabrın 9-da 45 min tamaşaçı tutumuna malik Vrotslav şəhər stadionunda oynanılacaq. Bu arena Polşa və Ukraynanın birgə təşkil etdiyi "Avro-2012"nin oyunlarına ev sahibliyi edib.

Qeyd edək ki, martda "Uembli" stadionunda "Avro-2024"ün seçmə mərhələsi çərçivəsində İngiltərə – Ukrayna oyunu keçirilib və meydan sahibləri 2:0 hesablı qələbə qazanıblar.

*S.RZAYEVA, "Xalq qəzeti"*

Sağlamlıq

## 1 qab enerji içkisi uşağı zəhərləyər

**Mütəxəssislər enerji içkilərinin orqanizmə necə təsir etdiyi ilə bağlı çoxlu araşdırmalar aparıblar. Belə qənaətə gəliblər ki, bu içkidən hər gün qəbul etmək olmaz. Ən yaxşı halda isə bir qabdan artıq içmək insana zərər verər.**



Həkim - nutrisoloq İqor Strokovun fikrincə, diabet xəstələri enerji içkiləri içməməlidir. Ürəyində problem olanlar da enerji içkilərindən uzaq durmalıdır. Bu içkilərdən çox istifadə ürəyin ritmini pozur.

Enerji içkisi qəbul etdikdən, təxminən 40 dəqiqə sonra kofein orqanizmə yayılır. Qandakı kofeinin yarısı yalnız 5-6 saatdan sonra xaric olur. 12 saatdan sonra hər şey tükənir. Ancaq bunlar yalnız təxmini göstəricilərdir. Həm də yaş və cinsdən asılıdır.

Bir qab enerji içkisinin tərkibində uşağı zəhərləyə bilən qədər kofein var. Həm də bu içkilər sağlam yeniyetmələrdə də ciddi ürək problemləri yarada bilər.

*Z.HÜSEYNLİ, "Xalq qəzeti"*

Proqnoz




Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən **iyulun 14-də Bakıda və Abşeron yarımadasında** yağmursuz keçəcək Şimal-şərq küləyi əsəcək. Gecə 20-24°, gündüz 28-33° isti olacaq. Atmosfer təzyiqi normadan yüksək 763 mm civə sütunundan 759 mm civə sütununa enəcək, nisbi rütubət gecə 70-80, gündüz 40-50 faiz olacaq. Abşeron çimərliklərində dəniz suyunun temperaturu:Şimal çimərliklərində: (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulba) 25-26° isti, Cənub çimərliklərində: (Türkan, Hövsan, Sahil, Şıx) 26-27° isti olacaq.

Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi yerlərdə qısamüddətli az yağış yağacağı ehtimalı var. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 20-25°i, gündüz 31-36°, dağlarda gecə 11-16° , gündüz 16-21° isti olacaq.

*Q. QASIMOV, "Xalq qəzeti"*

✓ 2010-cu ildə Qarabağ müharibəsi veteranı Əzizov Afiq Əlibaba oğlunun adına verilmiş gizirin SQ seriyalı, 0012020 nömrəli şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN

"Xalq qəzeti"nin əməkdaşları Tahir Aydınoğlu, Şakir Quliyev və Namiq Əhmədov Azərbaycan Dövlət Pedaqoji Universitetinin prorektoru, professor Mahirə Hüseynovaya əzizi

**ZÜLEYXA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Biləsuvar rayonundan Niftulla Əzizov ailəsi ilə birlikdə yaxın dostu Məsaim Abdullayevə anası

**XAVƏR XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 4402
SİFARİŞ 1730
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Vaqif BAYRAMOV

Çapa imzalanmışdır
00:00